**RƏNA QURBANLI**
**(Qılıcova)**

# QIRX DÖRD GÜNÜN SƏDASI

**"Elm və təhsil"**
**Bakı - 2021**

**Redaktor:**
**Nailə Dərya Qılıc**

**Rəna Qurbanlı (Qılıcova). Qırx dörd günün sədası**
**Bakı, "Elm və təhsil", 2021, 236 səh.**

4702000000 / N-98-2021 qrifli nəşr

**© Rəna Qurbanlı (Qılıcova), 2021**

## ÖN SÖZ

"Qırx dörd günün sədası "adlandırdığı kitabı ilə Rəna Qurbanlı( Qılıcova) oxucuları ilə doqquzuncu dəfə görüşə gəlir.

Müasir dövrün qələm sahibi kimi Rəna xanım ətrafda cərayan edən hadisələri qəlbinin süzgəcindən keçirib, sadə,anlaqlı və axıcıl tərzdə qələmə almışdı.

Hal-hazırda vətənimizdə hər kəsi qüşündürən, hər kəsin ürəyini yandıran müharibənın törətdiyi ağır, dəhşətli müsibətləri, insan həyatının, ruhunun, ovqatının ayrılmaz hissəsi olan poeziyanın dili ilə oxucusuna çatdırmışdı. Kitabda " Tovuz şəhidləri", "Qırx dörd günün sədası " adlı iki iri həcimli poema və vətən uğrunda canında keçmiş mərd oğullara həsr olunmuş şeirlər toplusu yer almışdır.Şairə xanımın amacı qəhrəman oğullarımızın doyüş yollarını, iğidliklərini, qorxmazlıqlarını, bir sözlə döyüşdə göstərdikləri misilsiz rəşadətləri işiqlandırmaqdır.Rəna xanımın qələmi qəlbinin mərd oğullarla birgə cırpınmasını misralarda oxucusuna yetirmişdi. O misralar ki, qırx dörd günün ağrısını-açısını , sevincini - kədərini özündə əks etdirə bilmişdi. Müəllif igid oğulların göstərdikləri inanılmaz qəhrəmanlıqları, onlarla birlikdə dəniz kimi dalğalanan xalqın çoşğusunu öz qəlbinin hərarəti ilə isidə bilmişdir. Rəna xanım uzun illərdən bəri xalqımızın çəkilməz dərdinə, ürəyinin yarasına çevrilən bu torpaq savaşını qələmə alarkən bir daha oxucu-

sunu yormamaq üçün poemanı həyatın əsas meyarı olan məhəbbət mötivləri altında qələmə almışdır. Bununla müəllif bütün bu ağrı-acılara rəğmən həyatın davam etdiyini, işiqlı sabahların açılaçağını oxucuya xatırlatmaq istəmişdir.

Xanım müəllif "Qırx dörd günün sədası" adlı poemasını yazmaqla Azərbaycan xalqının igid, döyüşkən, basılmaz bir xalq oldunu göstərib qəhrəmanlıq səlnaməsi yarada bilmişdir. Rəna xanıma yeni - yeni yaradlçılıq uğurları və çoxlu oxucu auditoriyası arzulayıram.

***Azər Kərimli***
*Texnika elmləri doktoru,*
*professor Çexiya Azərbaycan Mədəni*
*Əlaqələr Mərkəzinin sədri,*
*Beynəlxalq Diaspor Mərkəzinin Avropa təmsilçisi*

# Poemalar

## TOVUZ ŞƏHİDLƏRİ!

Nə qədər ağırdır həmin o gecə.
Tarixə adını yazdırdı necə?
On iki iyulda açılan səhər,
Hamının yeməyi oldu lap zəhər.
Erməni o gecə hücuma keçdi.
Bu dəfə hədəf də Tovuzu seçdi.
Hər yana yayıldı atışma səsi.
Lərzəyə gətirdi bu səs hər kəsi.
Təşvişə düşmüşdü rayonda hamı.
Vahimə basırdı bütün adamı.
Sərhəddən cürbəcür xəbər gəlirdi.
Xəbərlər ox olub ürək dəlirdi.
Ayağa qalxmışdı bütün insanlar.
Dəhşətdi həmin gün, həmin o anlar.
Getdikcə artırdı gurultu səsi.
Hamının döyüşdə vardı kimsəsi.
Körpələr, uşaqlar qorxurdu səsdən.
Yardım istəyirdi evdə hər kəsdən.
Şayələr baş alıb gedirdi yaman.
Bilmirdin düzdümü, yoxsa ki, yalan.
Dedilər erməni keçibdi gecə,
On nəfər əsgəri öldürüb necə?
Dağıdıb sərhədin torpaq , daşını.
Kəsiblər onların bir-bir başını.
Güllə tək dağıldı xəbər hər yana.

Bir anda yayıldı Azərbaycana.
Getdikcə artırdı atışma səsi.
Lərzəyə gətirdi bu səs hər kəsi.
Topun gurultusu qalxdı göylərə.
Mərmilər dağıldı bütün hər yerə.
Nə qədər yaralı , şəhid varıydı.
Hamının başına dünya darıydı.
Məmmədov Elşaddı şəhidin biri.
Bu xəbər bürüdü bütün hər yeri.
Onların evindən post görünürdü.
Gurultu səsinə ev bürünürdü.
Ata tez tövlənin üstünə qalxdı.
Ordan da Elşadın postuna baxdı.
Hər şeyi gözüylə görürdü Dönməz.
Deyirdi: Elşadım heç zaman ölməz.
İki top bu posta düşdüyü zaman,
Dönməzi elə bil vurdu cərəyan.
Üçüncü top düşdü bir az kənara.
Az qaldı bu kişi dəysin divara.
Bunları gözüylə görürdü kişi.
Anladı başına gələcək işi.
Bir kəlmə söylədi kişi bu sözü.
Kaş elə kor olsun düşmənin gözü.
Deyəsən yıxıldı bax mənim evim.
Qurusun , lal olsun, ay Allah dilim.
Bu dəmdə qışqırdı evdə qız , gəlin.
Elşadın postuna top düşdü bilin.
Səs-küyə boylandı Nuriyyə ana.

Qışqırıb ağladı o, yana-yana.
Üşütmə gəlmişdi onun canına.
Bu qorxu yayıldı tamam qanına.
Ağlaşma səsinə yığıldı hamı.
Yandırırdı bu səs bütün adamı.
Dedilər ölməyib o, yaralıdır.
Top düşən yer ordan lap aralıdır.
Bu sirri saxlamaq mümkün olmadı.
İstəklər yerinə gəlib dolmadı.
Gecənin yarısı bir xəbər gəldi.
Xəbər lap onların qəlbini dəldi.
Ölüm xəbərini artıq aldılar.
Hər yerə ağlaşma, şüvən saldılar.
Ananın ürəyi tir-tir əsirdi.
Bir ağrı qılınc tək onu kəsirdi.
Möhkəm ağlayırdı ana Elşadı.
Elşadın qalmışdı körpə övladı.
Məmmədin varıydı düz yarım yaşı.
Anlaya bilməzdi bu işi başı.
Gözünü zilləyib ancaq baxırdı.
Adamı yandırıb, yaman yaxırdı.
Hamının üzündə qalmışdı gözü.
Anlaya bilmirdi heç nəyi özü.
Bəzən də qorxaraq o, ağlayırdı.
Gözündən sel kimi yaş çağlayırdı.
Elşad öz sevdiyi qızı almışdı.
Bu gün o, qızı da dərdə salmışdı.
Üç aylıq hamilə olmuşdu bu qız.

İndi də Elşadsız qalmışdı yalqız.
Gözündən od kimi yaş ələyirdi.
Hər yeri bu yaşla o, bələyirdi.
Atanın böyükdü dərdi, kədəri.
Allahdan gəlmişdi belə qədəri.
Ağlayıb əlini vurub dizinə,
Deyirdi bu kişi özü-özünə.
Zülümlə böyütdüm mən bu uşağı.
Qanıyla suladı Elşad torpağı.
Nə günlə yığmışdım onun qanını.
Ovcumda qorudum hər an canını.
Odun doğramaqla saxladım onu.
Gör necə puç oldu Elşadın sonu.
Evimdə olmurdu çox zaman yemək.
Tapanda bir parça mən quru çörək,
Ovcumda Elşada yedizdirərdim.
Suyu da üstündən içizdirərdim.
Həmişə baxırdı uşaq üzümə.
Deyirdi çörəkdən saxla özünə.
Onda söyləyirdim ona da yalan.
Deyirdim bu saat yemişəm inan.
Halbu ki , acından ölürdüm özüm.
Yoxuydu deyəcək başqa bir sözüm.
Allahım Elşadı əlimdən aldı.
Evimin qapısı lap bağlı qaldı.
Olsa da bu xəbər acıdan acı.
Yoxuydu heç nəyin artıq əlacı.

Nəhayət yetişdi dəfn zamanı.
Tarixə yazıldı ömrün o anı...
*****
Şəhidin biri də çavuş Vüqardı.
Onun düz otuz üç yaşı olardı.
Ordu da illərdi xidmət edirdi.
Həmişə döyüşdə öndə gedirdi.
Varıydı Vüqarın üççə övladı.
Sonadək dadmadı o, övlad dadı.
Bir övlad olmuşdu evdə yeganə.
Heç nəyə olmurdu heç vaxt biganə.
Anası gözləmiş on il yolunu.
Sanki bu itirdi iki qolunu.
Anası qıymırdı o, əsgər gedə.
Bilmirdi nə edə , bəs necə edə?
Vüqara verməyə belə bir imkan.
Çünki o, qorxurdu onunçün hər an.
Vüqar anasına dedi sözünü.
Ay ana , narahat etmə özünü.
Səngərdə var bizim çox şəhidimiz.
Artıq deyilik ki , biz heç birimiz.
Bütün şəhidlərin öz anası var.
Bəs onlar neyləsin? Söylədi Vüqar?
Sən artıq deyilsən onlardan ana!
Ev-eşik bir yana , vətən bir yana.
Heç ona görə də bir söz demə sən.
Çünki bu yolumdan gönəmmərəm mən.
Evin hər yukunu Vüqar çəkirdi.

Daş töküb o, yeni bir ev tikirdi.
Xəstə atasına baxan Vüqardı.
Onun dərmanını özü alardı.
Bütün arzuları yarımçıq qaldı.
Yaşlı anasını azara saldı.
Elə ki , eşitdi ana xəbəri,
Qaranlıq gördü o, bütün yerləri.
Çünki onun üçün günəş batmışdı.
Taleyi ananı zülmə atmışdı.
Qışqırıb ağladı , saçını yoldu.
Olanlar hamısı anaya oldu.
Vüqar söyləməkdən batmışdı səsi.
Gəlmirdi az qala onun nəfəsi.
Vüqarın qapıya gələndə nəşi,
Onlara axışdı bütün hər kişi.
Bütün kənd gəlmişdi düz Vüqargilə.
Onu ötürdülər bu son mənzilə.

*****

Xəyyam Dadaşovdu şəhidin biri.
Bu xəbər dolandı , gəzdi hər yeri.
Həmin gecə igid yaralanmışdı.
İşıqlı dünyadan aralanmışdı.
Öncədən anaya məktub yazmışdı.
Bu yağı düşmənlər yolu azmışdı.
Onlar düz Ağdama hücum etdilər.
Güllələr Xəyyamı dəlib getdilər.
Şəhid anasına yazmışdı , ana!
Əzimlə baxarsan sən bu cahana.

Ürəklə söykən gəl əvvəl divara.
Gözünü dikərsən ordan yollara.
Son dəfə gələcəm o yolla evə.
Məni bas bağrına sən sevə-sevə.
Son dəfə qucaqla , ay ana , məni.
Şəhidəm , görmərəm bir daha səni.
Bu bizim sonuncu görüş olacaq.
Oğlun şəhid kimi yadda qalacaq.
Bu sözlər ananı yandırdı , yaxdı.
Gözünün yaşları sel kimi axdı.
Xəyyamın varıydı on səkkiz yaşı.
Bir də ki , özündən kiçik qardaşı.
On səkkiz baharı , qışı varıydı.
Ananın başına dünya darıydı.
Boyunu sevərək böyütdü onu.
Artıq bu oğlanın gəlmişdi sonu.
Ana əl qatmışdı öz üz-gözünə.
Ölüm diləyirdi indi özünə.
Əliylə üzünə şıram cəkmişdi.
Elə bil üzündə şumlar əkmişdi.
Yanaqdan sızan qan üzdə iz saldı.
Anaya Xəyyamdan şəkillər qaldı.
Atanın gözündən yaşlar axırdı.
Əlacsız qalaraq yerə baxırdı.
Cəbhədə qalmışam deyirdi dörd il.
Şəhidlik nəsibim olmayıbdı bil.
Xəyyamım cəbhədə üççə ay qaldı.
Üc aya şəhidlik zirvəsi aldı.

Neyləyək? Fəxrimdi bu oğlum mənim.
Sağ olsun deyirəm yenə vətənim!

*****

Leytenant Rəşaddı şəhidin biri.
Bu xəbər dolandı artıq hər yeri.
İyulda gəlmişdi dünyaya Rəşad.
Gözündə qalmışdı arzu və murad.
Həmin ay köç etdi Rəşad dünyadan.
Şəhidlik taxtına qalxdı həmin an.
Üç aylıq olanda o, yetim qaldı.
Dayısı onları yanına aldı.
Oğlundan seçmədi Rəşadı dayı.
Dayının olmuşdu ən əziz payı.
Otuza yaxındı Rəşadın yaşı.
Rəhmətə getmişdi böyük qardaşı.
Ananı üzürdü beləcə kədər.
Allahdan gəlmişdi ona bu qədər.
Rəşadın üstündə tir-tir əsirdi.
Bu qorxu həmişə onu kəsirdi.
Rəşadın çoxuydu xoş arzuları.
Yarımçıq tərk etdi bütün onları.
Ayrı ev tikirdi Rəşad özünə.
Düz çıxa bilmədi ancaq sözünə.
Bu mənfur erməni vermədi imkan.
Gülləyə tuş gəldi orda həmən an.
Gözaltı etdiyi qızı da vardı.
Yaşasa onunla evli olardı.
Yandırdı bu ölüm dərdli ananı.

Həm ağlar qoymuşdu gözəl cananı.
Ananın yoxuydu başqa əlacı.
Ancaq ağlayırdı o, acı-acı.
Deyirdi aparın cəbhəyə məni.
Əlimnən boğacam özüm düşməni.
Rəşadla görüşə gəlmişdi hamı.
Yığılmışdı ora  kəndin adamı.
Elliklə Rəşadı yola saldılar.
Ömürlük Rəşadsız hamsı qaldılar.

*****

Atışma gecədən davam edirdi.
Bu səs -küy aləmi aşıb gedirdi.
Səhər tezdən yenə qızışdı dava.
İyulun on dördü açıldı hava.
Uşaqdan qocaya  ayağa qalxdı.
Dəstəynən adamlar sərhədə axdı.
Küçələr tutmurdu bu izdihamı.
"Qarabağ bizimdir" deyirdi hamı.
İş gəlib çatmışdı belə bir həddə.
Toplaşıb yığıldı hamı sərhəddə.
Dəqiq bir məlumat yoxuydu hələ.
Söz-söhbət gəzirdi hələ ki, belə.
Birdən bir general çıxdı qabağa.
Başını salmışdı tamam aşağa.
Çətinlik çəkirdi o, danışmağa.
Gözünü qaldırıb baxdı uzağa.
Səsində varıydı xırıltı , kədər.
Duruxdu , boylandı yenə bir qədər.

Nəhayət o, ələ aldı özünü.
Sonunda xalqına dedi sözünü.
Bilmirəm , mən necə söyləyim sizə?
Çox ağır bir itki üz verib bizə.
İtirdik nüfuzlu bir generalı.
Səngərdən olmadı bir an aralı.
Həşimov Poladdı həmin qəhrəman.
Əsgərin önündə olub həmən an.
Poladla olubdu palkovnik İlqar.
Səngərdə birlikdə durublar onlar.
Bax bu da göstərdi bütün cahana,
Nə qədər mərd oğul doğubdu ana.
Adı tək Poladdır, əyilməz dəmir.
Əsgərə arxadan verməyib əmir.
Əsgərin önündə gedibdir hər an.
Arxamca , söyləyib igid, qəhrəman.
Artıq bu millətin səbri dolubdu.
Bir neçə əsgər də şəhid olubdu.
İndi açıqlanar onların adı.
Acıdır hamıya xəbərin dadı.
Batmışdı adamlar qəmə , kədərə.
Xəbərlər yayıldı bütün hər yerə.
Böyükdən kiçiyə qan ağlayırdı.
Bulaq tək gözlərdən yaş çağlayırdı.
Artıq axşam düşüb hava qaraldı.
Getdikcə səbirlər tamam daraldı.
Cənazə karvanı çıxmışdı yola.
Millət toplanmışdı saga , həm sola.

Elə ki , tamamən qaranlıq oldu,
Yolun kənarları adamla doldu.
Uzaqdan göründü maşın karvanı.
Həyəcan bürüdü bütün hər yanı.
Göylərə yüksəldi alqış səsləri.
Ağlatdı ordakı bütün kəsləri.
Tovuzdan şəhərə yollandı karvan.
Sərhəddə döyüşlər gedirdi o an.
Ayağa qalxmışdı hər yerdə millət.
Qaranlıq duşmüşdü , olmuşdu zülmət.
Sumqayıt o gecə qan ağlayırdı.
Leysan tək gözlərdən yaş çağlayırdı.
Poladın evinə axdı adamlar.
Həyətdə çox böyük bir izdiham var.
İynəni atsaydın düşməzdi yerə.
Şüarlar səsləndi bəlkə min kərə.
Əllərdə bayraqlar dalğalanırdı.
İnsanlar qəhərdən lap odlanırdı.
Binada varıydı açıq pəncərə.
Bayraq  dalğalandı ordan hər yerə.
Gecədən keçmişdi nə qədər zaman.
Yerindən getmədi bir nəfər insan.
General-mayoru gözləyirdilər.
Açıq pəncərəni izləyirdilər.
Birdən pəncərədə göründü adam.
Sanki dalğalandı orda izdiham.
Ordan əl salladı hamıya ana.
Oğul gözləyirdi o, yana-yana.

Ananın yanmışdı , köz oldu bağrı.
Onu öldürürdü içində ağrı.
Dünya bir yanaydı , Polad bir yana.
Belə gözləmirdi oğlunu ana.
Xalqın generalı gəlirdi indi.
Ana nə dayandı , nə də ki , dindi.
Beş aydır görmürdü anası onu.
Üstəlik susmuşdu həm telefonu.
Xalqın qarşısına çıxdı bacısı.
Olduqca böyükdür onun acısı.
Hamıya üz tutdu , söylədi bacı.
Dəhşətdir , ağırdır dedi bu acı.
Təmkinli olmağa çağırıram mən.
Qapının önündə durubdu düşmən.
Artıq heç bir şeyə yol verməyək biz.
Poladın xətrinə dözməlisiz siz.
Mənə yox hamıya olubdu qardaş.
Riayət eyləyək hər şeyə bir baş.
Bu gecə Vəndamda qonaqdı Polad.
Görüşə gəlibdi dostlar , həm də yad.
Hamının kədəri başından aşır.
Bu ata yurduyla o, vidalaşır.
Lap səhər tezdəndən gün ki , doğacaq,
O maşın karvanı burda olacaq.
Sumqayıt dönmüşdü qaynar qazana.
Bir qram yatmadı o gecə ana.
Deyə  bilmirdilər ona xəbəri.
Bu xəbər dolandı bütün yerləri.

Nəhayət dil açdı baldızı özü.
Bu oldu anaya dediyi sözü.
Hazırlaş gəl gedək birlikdə kəndə.
Yaralı Polada dəyərsən sən də.
Hərbi qospitala gəlibdi balan.
Gəl yola düzələk indi biz bu an.
Mat qaldı baldızın ana sözünə.
Diqqətlə sən bir bax indi özünə.
Heç gör bax , dəliyə oxşayıram mən?
Ağzına gələni söyləyirsən sən.
Nə vaxtdan Vəndamda qospital olub?
Bu fikir başına bəs niyə dolub?
Baldızın kəsilib sonda əlacı.
Deyibdi bu xəbər olduqca acı.
Polad yaralanıb , şəhid olubdu.
Ömür çiçəkləri tamam solubdu.
Heç tutar qoymadı ana özündə.
İtdi ifadəsi onun üzündə.
Dünyanı görmürdü ananın gözü.
Dilində bitmişdi bir Polad sözü.
Səmayə xalaya olan olmuşdu .
Hər tərəf adamla gəlib dolmuşdu.

****

Elə ki , çəkildi  qatı qaranlıq,
Gecə yırğalandı sanki bir anlıq.
Yavaş-yavaş artıq açıldı səhər.
Göz-gözü görürdü  indi  bir təhər.
Maşınlar şəhərə daxil oldular.

Sırayla həyətə gəlib doldular.
Son dəfə evinə gəldi general.
Hamı pillələri çıxdı  dalbadal.
Qonaqla gəlmişdi indi Poladım.
Adamlar gedirdi lap addım-addım.
Həmişə ayaqla gələrdi özü.
İndi görünmürdü heç yerdən üzü.
Çünki o, bu dəfə tabutda gəldi.
Bu gəliş hamının bağrını dəldi.
Evdə gözləyirdi arvad -uşağı.
Tabutu endirdi onlar aşağı.
Elə bil bu evdə qopmuşdu tufan.
Yer, göy ağlayırdı sanki həmin an.
Üzünü tabuta söykədi ana.
Naləsi yayıldı  bütün cahana.
Yoldaşı , uşaqlar ağlayırdılar.
Sözlərlə ürəklər dağlayırdılar.
Göylərə qalxmışdı ağlamaq səsi.
Az qaldı ananın kəssin nəfəsi.
Heç kimə demədi  bir kəlmə Polad.
Elə bil yoxuydu Polad adda ad.
Adamlar  ağlayıb vay-şivən saldı.
Suallar hamısı cavabsız qaldı.
Polad dillənmirdi , deməyirdi söz.
Ananın sifəti sanki oldu köz.
Yanıb , odlanırdı  ana ürəyi.
Sanki dağılmışdı  evin dirəyi.
Dünya dar olmuşdu onun başına.

Hər yer bələnmişdi gözün yaşına.
Nəhayət yetişdi getmək zamanı.
Saxlamaq olmurdu heç cür ananı.
Fəxri xiyabana yollandı hamı.
Yol , iz tutmayırdı bu izdihamı.
Dövlət adamları dəfnə getdilər.
Növbəynən hamısı çıxış etdilər.
Adamla dolmuşdu fəxri xiyaban.
Orda dəfn olundu  gözəl bir insan.
Əklillər qoydular həmin məzara.
Xalqımız düşübdü dərdə , azara.
Tarixə yazdırdı Polad adını.
General dadmışdı şəhid dadını.
Poladla birlikdə eyni zamanda.
İlqar dəfn olundu həmin məkanda.
Dəfn  mərasimi çatmışdı başa.
Nə qədər əklillər düzdülər daşa.
Saymaq olmayırdı burda adamı.
Artıq evlərinə dönürdü hamı.

******

Ananın çoxuydu dərdi, kədəri.
Hər yerdə Poladı gəzdi gözləri.
Gecələr gözünə getmirdi yuxu.
Şəkilə baxırdı gününün çoxu.
Gecələr rəsminnən söhbət edirdi.
Yorulub qapıya tərəf gedirdi.
Dözmürdü yenidən ana ürəyi.
Hədsiz istəyirdi onu görməyi.

Təlatüm düşürdü onun canına.
Yenidən dönürdü rəsmin yanına.
Suallar verirdi o, danışırdı.
Başı şəkillərə çox qarışırdı.
Sən niyə aldatdın , bala ananı?
Səndən ötrü qəlbi , canı yananı.
Kaş elə evinə dönəydin yenə,
Bir qolu kəsilmiş gələydın mənə.
Elə itirəydin bir ayağını.
Kəsəydim şəklin yox , öz qabağını.
Həmin bu halınla qəbuldun mənə.
Mən nə eyləyim ki , dönəsən yenə?
Şəkli qucaqlayıb o, ağlayırdı.
Albomu açırdı , gah bağlayırdı.
Şəkil qucağında evdə gəzirdi.
Sıxmaqdan onları bəzən əzirdi.
Yas mərasimləri davam edirdi.
Nə qədər qonaqlar gəlib-gedirdi.
Ağlayıb hamıya deyirdi ana.
Salacam səs indi mən bu cahana.
Cəbhəyə aparın deyirdi məni.
Dişimlə didərəm orda düşməni.
Yemək bişirərəm , corab yuyaram.
Bütün əsgərlərə xörək qoyaram.
Yardım eyləyərəm əsgərə mən də.
Sursat daşıyaram yeri gələndə.

*****

Ana istəyirdi yumsun gözünü.
Bəlkə yuxusunda görə özünü.
Heç yuxu gəlmirdi onun gözünə.
Ölüm istəyirdi ana özünə.
Oturub kədərlə fikrə dalırdı.
Xəyallar içində itib qalırdı.
Heç bir şey gəlmirdi onun dadına.
Düşürdü  uşaqlıq ili yadına.
Atası Polada bir  tüfəng aldı.
Polad tez tüdəngi boynuna saldı.
İlk dəfə tüfənglə çəkdirdi şəkil.
Hərbiçi olmuşdu sanki elə bil.
Polad oynayardı tankla , tüfənglə.
Davam eyləyərdi eyni ahənglə.
Məktəbdə həmişə əla alardı.
Hamı bu şagirdə heyran qalardı.
Çox zaman gülmürdü ananın üzü.
Onu az görürdü uşaqlar düzü.
Böyük bir zavodda o, çalışmışdı.
Bütün çətinliyə həm alışmışdı.
Fəhlə işləyirdi bu gözəl ana.
Rahatlıq vermirdi heç zaman cana.
Həmişə olubdu halal çörəyi.
Ərindən görübdü hər an köməyi.
Çətiniydi onun zavodda işi.
Birgə çalışırdı özüylə kişi.
Ər-arvad verərdi onlar baş-başa.

İşə gedərdilər hər gün bir başa.
Ananın çətin də olsaydı işi,
İşləmək olmuşdu onun vərdişi.
Uşaqla o, özü məşğul olardı.
Onlara baxanda gözü dolardı.
Səbirlə Polada deyərdi ana,
Ağıllı övlad ol sən bu cahana.
İtirmə ananın zəhmətini sən.
Həmişə fəxr edim qoy səninlə mən.
Bir zaman olacaq dolarsan yaşa.
Sən onda hər şeyi düşərsən başa.
Böyüyüb olarsan böyük bir oğlan.
Mənim zəhmətimi xatırla o an.
Aralı olarsan pis vərdişlərdən.
Böyüyəndə yapış yaxşı işlərdən.
İllər bir-birini əvəz edirdi.
Polad böyümüşdü dərsə gedirdi.
Məktəbdə hamıdan o, seçilirdi.
Bütün dərslərini əla bilirdi.
Əlaçıydı orda Poladın özü.
Sinifdə olmuşdu şagirdin gözü.
Məktəbdə varıydı böyük hörməti.
Bir dəfə dərsindən qalmazdı qəti.
Xarici dillərə vardı həvəsi.
O, mat eyləyirdi bilən hər kəsi.
Ağlıyla hər yerə səs saldı Polad.
Paladda varıydı gözəl istedad.

*****

Ananın gecəsi gündüz olurdu.
Bulud tək boşalır, gah da dolurdu.
Varıydı ananın öz arzuları.
İstərdi  oxusun bu oğulları.
Keçərdi Poladın böyür - başına.
Tumar da çəkərdi lap göz-qaşına.
Deyirdi var mənim arzu-muradım.
İstərəm prokuror olsun Poladım.
Polad dinləyirdi ana sözünü.
Ona sevdirərdi  möhkəm özünü.
Hüquqşünaslığa hazırlaşırdı.
Həvəsi getdikcə aşır-daşırdı.
Bir gün ana evdə olduğu zaman,
Dərsdən evə gəlir bu igid oğlan.
Çantanı tullayır o, bir kənara.
Kitablar tökülür , dəyir divara.
Polada mat qalır ananın özü.
Oğluna bu olur elə ilk sözü.
Bu nədir, ay Polad, bu nədir etdin?
Kitabı ,  dəftəri dağıdıb getdin.
Nə olub, ay bala , de görüm sənə?
İndi gəl düzünü söylə sən mənə.
Ay ana , bu gün mən verdim bir qərar.
Deyirlər kişilər hərbiçi olar.
Tarix müəllimim danışdı bizə.
Dedi ki, uşaqlar söyləyim sizə.
Hər dövrün , zamanın öz tələbi var.
İndi əsil kişi hərbiçi olar.

Ana qucaqlayıb dedi Polada,
Qurbanam özünə qoyduğum ada.
Şiddətli davalar gedir hər yanda.
Ürək də qalmayıb , vallah insanda.
Hər gündə nə qədər igidlər ölür.
Bax bu da insanın ömrünü bölür.
Ən böyük arzumdu yaşa dolasan.
Əlaçı oxuyub prokuror olasan.
Qoy olsun , ay ana söylədi Polad.
Boş yerə verilmir mənə də bu ad.
Elə ki , məktəbi qurtarır oğlan,
Hərbiyə imtahan verir həmin an.
Verdiyi yerə də o qəbul olur.
Bütün arzuları yerinə dolur.
Aradan keçsə də nə qədər zaman,
Ananın gözündə canlanır o an.
Anaya qalan bu xatirələrdi.
Aradan yox olan ancaq illərdi.
Bir evdə doğulub , bu xalq igidi!
İndi hər bir evin olub şəhidi.

*****

Poladın anası tək deyil inan.
Poladı  ağlayır bu Azərbaycan.
Hamıya tanışdı indi həmin ad.
İlk şəhid general olubdu Polad.
General verməyib  əmri arxadan .
Səngərdə əsgərlə olub anbaan.
Onlarla birlikdə çörək yeyibdi.

Əsgərin hamsına balam deyibdi.
Həmişə evinə gəldiyi zaman,
Öz halal puluyla həmin bu oğlan,
Dükana , bazara çıxıb gedərdi.
Nə qədər bazarlıq , yardım edərdi.
Ana xatırlayır belə bir anı.
Deyir ki , əsgərə bağlıydı canı.
Boş olmur heç zaman onun əlləri.
Dolu bir çantaynan girir içəri.
Ana bu çantanı əlinə alır.
Boylanıb içinə bir nəzər salır.
Görür diş fırçası , diş məcunudur.
Təccübdən hər şeyi ana unudur.
Ay oğul , özünü işə salmısan.
Bu qədər bunları niyə almısan?
Söyləyir: ev üçün almadım ana.
Cavabdeh oluram mən hər insana.
Bilmirəm nə deyim , ay ana sənə?
Əmanət ediblər əsgəri mənə.
Onlara almışam , yusun dişini.
Bilməzsən heç zaman sən hərb işini.
Onların hamısı göz bəbəyimdir!
Sinəmdə döyünən bu ürəyimdir!
Deyirəm, ay ana mən dönə-dönə,
Onlar çox doğmadır , əzizdir mənə.
Günlərin birində bu Polad yenə,
Əlində bağlama gəlir evinə.
Ana bağlamanı alır əlinə.

Bu nədir kəlməsi gəlir dilinə.
Polad gülümsəyib deyir , ay ana,
Əsgərlər olduqca yaxındır cana.
Gələn tək dərziyə mən çıxıb getdim.
Onlara yaxalıq sifariş etdim.
İndi də almışam sifarişləri.
Dedim ki , qoy asan olsun işləri.
Çox zaman vaxtları olmur yumağa.
Ancaq ehtiyac var dümmağ ağlara.
Dərin fikirlərə dalmışdı ana.
Xəyalı gedirdi onun hər yana.
Gözünü zilləyib ana baxırdı.
Gözündən sel kimi yaşlar axırdı.
Oğluna varıydı çox ehtiyacı.
Bu xəbər zəhərdən olmuşdu acı.
Elə şəkillərlə o , danışırdı.
Əzabdan yanırdı , lap alışırdı.
Heç yerdən gəlmirdi Poladın səsi.
Ananın batırdı sanki nəfəsi.
Bir yana çatmırdı ananın əli.
Az qala olurdu fikirdən dəli.
Zülümlə keçirdi gecə bir təhər.
Bir də görürdün ki , açılır səhər.
Heç yuxu gəlmirdi onun gözünə.
Xəyal tək gəlirdi bu iş özünə.
Deyirdi : kaş elə olaydı yalan.
Poladım gələydi yanıma bu an.
Beş aydır görmürdü ana üzünü.

Yollardan çəkmirdi heç vaxt gözünü.
Ağlına gəlməzdi Poladı ölər.
Bu xəbər ananın ömrünü bölər.
Ancaq heç gəlmirdi oğlu yanına .
Təlatüm düşürdü onun canına.

*****

Xəyallar uzağa apardı onu.
Qurtarmaq bilmirdi xəyalın sonu.
Canlandı gözündə həmin o gecə.
Polad sevindirdi ananı necə?
Gecənin birində ana yatmışdı.
Yuxunun içində tərə batmışdı.
Gördü ki , qapının zəngi çalındı.
Hər yerə tamamən səs-küy salındı.
Təlaşla yuxudan ana oyandı.
Saatın önündə gəlib dayandı.
Baxdı ki , üç artıq indi tamamdır.
Dedi ki , bu gələn yəqin balamdır.
Ananın üzündə sanki nur saçdı.
Tələsik yeriyib qapını açdı.
Açanda gördü ki , görünmür oğlan.
Qapının dalında kostyum var o an.
Kostyum asılıb bu asılqandan.
Arxada dayanıb bizim komutan.
Bu nədir, ay oğlum, almısan yenə?
Gətirib göstərdin bu gecə mənə.
Bilirsən , ay ana,  sevirəm səni.
Bu dəfə almışam sən istiyəni.

Nədir ki , ay oğlum , bu mən istəyən?
Yadımdan çıxıbdır , qocaldım deyən.
General rütbəsi verilib mənə.
Onun formasını gətirdim sənə.
Poladın sevinci başdan aşırdı.
Onun üz-gözündən nurlar daşırdı.
Poladı bağrına basdı anası.
General olmuşdu çünki balası.
Yoxuydu sevincin həddi-hüdudu.
Zəhmətlə alınmış rütbə bax budu!
Ananın ən gözəl hədiyyəsiydi.
Polad anasının gül nəfəsiydi.
Ananın o anlar düşdü yadına.
Heç bir şey gəlmədi indi dadına.
Çünki yox olmuşdu onun Poladı.
Anaya qalmışdı şəkli və adı.
Şəklini basmışdı o, sinəsinə.
Polad səs vermirdi onun səsinə.
Yoxuydu Poladın bu anda özü.
Şəkildə qalmışdı ananın gözü.
Ananın gözündən süzülürdü yaş.
Tökülürdü şəklin üstünə bir baş.
Lal-dinməz şəkildən Polad baxırdı.
Ananı yandırıb, vallah yaxırdı.
Şəkili heç yerə qoymurdu ana.
Gəzirdi otaqda o yan , bu yana.
Ananı boğurdu eləcə qəhər.
Bir də görürdü ki , açılıb səhər.

Xəyallar yumaq tək çözələnirdi.
Ana öz-özünə özələnirdi...

*****

İlqar da Poladla şəhid olmuşdu.
Onların həyatı birgə solmuşdu.
Palkovnik rütbəsi almışdı İlqar.
Şəhidlər içində palkovnik də var.
Birlikdə vuruşmuş onlar sərhəddə.
Artıq gəlib çatmış işlər bu həddə.
Birlikdə uyuyur onlar bu anda.
Şəhərdə olan bir böyük məkanda.
Qoca bir qadındır onun anası.
Şəhid olub indi İlqar balası.
Sənsiz bəs neynərəm, ay oğul balam?
Mümkünmü sənsiz mən dünyada qalam?
Yenə də əsgərin önündə dayan.
Kamandir yatarmı, ay oğlum oyan?
Ananın naləsi göyə qalxırdı.
Gözündən sel kimi leysan axırdı.
İlqarın varıydı iki övladı.
Atanın başqaydı onlarcün dadı.
Bu dadı doyunca dadammadılar.
Ataynan birlikdə qalammadılar.
Onsuz da üzünü az görürdülər.
Hər dərdi anayla bir bölürdülər.
Səngərdə olurdu ata hər zaman.
Ölümü çox qəfil olmuşdu yaman.
Hər yanda bayraqlar dalğalanırdı.

Palkovnik İlqara hamı yanırdı.
Tərpənmək olmurdu adam əlindən.
Şüarlar düşmürdü insan dilindən.
Fəxri Xiyabana onlar getdilər.
Rütbəli adamlar çıxış etdilər.
Nə qədər xoş sözlər dedilər o an.
İndi dəfn olurdu gözəl bir insan.
İlqarın oğluna söz verən zaman,
Güc ilə sözünü deyirdi oğlan.
Çünki yaş boğurdu, əsirdi səsi.
Titrəyirdi onun zərif nəfəsi.
Deyirdi fəxrimdir, mənim bu atam.
Yolunnan gedəcəm, söz verirəm tam.
Mən onun yolunu davam edəcəm.
Atamın yolunnan özüm gedəcəm.

*****

Tovuz rayonunun Ağdam bölgəsi.
Aləmi bürüdü atışma səsi.
Varıydı nə qədər şəhidlərimiz.
Əzimlə döyüşdü əsgərlərimiz.
Olsaydı bizlərdə belə bir imkan,
Təqvimi silərdik elə həmin an.
Tarixdən siləydik həmin gecəni..
Yenidən yazardıq hər şeyi yəni.
Vətənin yolunda töküldü qanlar.
Alovda, atəşdə yandı cavanlar.
Kimisi evliydi, kimisi subay.
Onlar canlarını vermişdilər pay.

Elçinin toyuna lap az qalmışdı.
Kənddə bir gözələ meyil salmışdı.
Yığılıb qohumlar elci getdilər.
Elçinə  gözəl bir nişan etdilər.
Aradan keçmişdi qısa bir zaman.
Təmir eyləyirdi evini oğlan.
Çünki az qalmışdı toyun vaxtına.
Elçin qalxacaqdı bəylik taxtına.
İndi otağına bəzək vururdu.
Gözləri önündə nələr dururdu.
O, hərbi hissəyə yola düşürdü.
Ürəyi əsirdi, sanki üşürdü.
Oğlan Məleykənin gəldi yanına.
Gizilti düşmüşdü sanki çanına.
Gördü ki, bu qızın qanı qaradır.
Bilmir ki, dünyada hara haradır.
Söruşdu: nə olub, sənə Məleykə?
De görüm xətrinə dəyiblər bəlkə?
Bir kəlmə çıxmadı qızın özündən.
Yaşlar süzülürdü ancaq gözündən.
Elçin təlaşlandı, nə olub sənə?
Bu saat düzünü söylə sən mənə.
Məleykə quruyub yerində qaldı.
Güc ilə özünü o, ələ aldı.
Bu gecə yuxuma gəlib dolmusan.
Yuxumda görmüşəm şəhid olmusan.
Elçin söylədi ki, qorxma Məleykə.
Narahat yatıbsan deyirəm bəlkə.

Düzünü söyləyim onda mən sənə.
Doğurdan bax bir şey olarsa mənə,
Qulaq as indidən mənim sözümə.
Yeni bir həyat qur onda özünə.
İndi çın çıxmışdı qızın yuxusu.
Onunçün yanırdı, bu qız çoxusu.
Bütün kənd qalxmışdı bu gün ayağa.
Elçini verirdi onlar torpağa.
Ananın naləsi göylərə qalxdı.
Adamlar tabutun dalınnan axdı.
Havada bayraqlar dalğalanırdı.
Bütün şəhidlərə hamı yanırdı...

******

Hərənin özünün var öz silahı.
Gör necə yaradıb gözəl Allahı?
Şairin qələmdir əldə silahı.
Qələmlə vuruşur axşam, sabahı.
Əsgərin topu var, həm tüfəngi var.
Dillənir cürbəcür bütün silahlar.
Müasir texnika baş alıb gedir.
Düşmənə hər cürə zərbələr edir.
Silahsız döyüşüb cəbhədə İlqar.
Döyüşdə zəhməti, çox əməyi var.
Yaralı düşsə də çox aralıya.
O, xidmət eyləyib hər yaralıya.
Həmişə güllənin altında gedib.
Hipokrat andına o, əməl edib.
Hamıya uzadıb yardım əlini.

Həkim tək qoruyub İlqar elını.
İlqarın varıydı iyirmi beş yaşı.
Gör nələr çəkmişdi igidin başı.
Şikayət etmədi heç vaxt cəbhədən.
Evə zəng eyləyib danışdı hərdən.
Həmişə hər şeydən razılıq etdi.
Namərd gülləsinə güdaza getdi.
İlqarın üzündən nurlar yağırdı.
Şəhidin yoxluğu bizə ağırdı.
Tovuzu bürüdü döyüş səsləri.
Heç kimin yoxuydu ondan xəbəri.
Atası oğlundan qaldı nigaran.
Şiddətli döyüşlər gedirdi o an.
Axşamdan bazarlıq etmişdi kişi.
Maşını yükləmək oldu ilk işi.
Oğlunu çağırıb dedi bir başa,
Apar bazarlığı İlqar qardaşa.
Oğlan tez oturdu orda maşına.
Hər şeyi apardı öz qardaşına.
Aradan keçmişdi yəqin ki, bir az.
Telefon səsindən diksindi Ayaz.
Artıq yarım saat güclə olardı.
Baxdı ki, zəng edən ona İlqardı.
Təşəkkür eylədi Ayaza İlqar.
Dedi ki, payını artıq aldılar.
Çatdırdıq onları lazımı yerə.
Dağıtdıq hamsını biz əsgərlərə.
Atanın rahatlıq çökdü canına.

Yağ kimi yayıldı hamsı qanına.
Getdikcə artırdı atışma səsi.
Vahimə basırdı artıq hər kəsi.
Ayazın ürəyi üşürgələndi.
Üzündən hər yerə kədər ələndi.
Ağdamdan Tovuza yayılan bu səs,
Ayazı qorxutdu olduqca bu kəs.
Qardaşı zəng edib deyirdi,İqar,
Qorxuram bax sənə nə isə olar.
Öpürəm mən sənin o, üz- gözündən.
Müğayət olgunan indi özündən.
İlqar qardaşını salırdı rahat.
Deyirdi get evdə sən arxayın yat.
Heç yerdə görəmməz bu düşmən məni.
Nə gəzir mən olan yerdə erməni?
Ana sığmayırdı evə-eşiyə.
Həmişə deyirdi, evdə kişiyə.
Qəhrəman oğuldu bu İlqarımız.
Gözdəyirik onu evdə hamımız.
Mənim bu davadan su içmir gözüm.
Onların yanına gedəydim özüm.
Narahat olmuşdu hamı bu gecə.
Dayanmaq bilmirdi atışma necə?
Ata aldadırdı özü-özünü.
Bir damcı yummadı gecə gözünü.
Artıq gecə saat  dördü vururdu.
Gördü ki , həyətdə kimsə dururdu.
Elə bil vahimə gəldi kişiyə.

Tələsik özünü atdı eşiyə.
Oğlu bu maşını işə salmışdı.
Elə bil nədənsə dərdə qalmışdı.
Atanı görəndə duruxdu bir az.
Təccüblə baxırdı oğluna Ayaz.
Ay bala, bu vədə hara gedirsən?
Gecənin bu vaxtı sən nə edirsən?
Ay ata, bilmirəm nə deyim sənə?
İlqarın dostları zəng vurdu mənə.
Dedilər qardaşın yaralanıbdı.
Bir necə yerindən yara alıbdı.
Ayaz tez sıçrayıb mindi maşına.
Mən özüm qoy dəyim bir qardaşına.
Ay ata, kaş İlqar bircə sağ olsun.
Mənim arzularım yerinə dolsun.
İlqar qoruyurdu bizim torpağı.
Razıyam olmasın iki ayağı.
Boynuma mindirib saxlaram onu.
Təki sağlıq olsun bu işin sonu.
Onun arzuları heç çin olmadı.
Artıq bu həyatda İlqar qalmadı.
Təcili yardımla gəlmişdi nəşi.
Onu yola saldı minlərlə kişi.
Buna tab gələrmi ana ürəyi?
Odlanıb yanırdı onun kürəyi.
Qalxmışdı göylərə ana naləsi.
Kədərə bürüdü orda hər kəsi...

******

Şəhidlər ölməyir, onlar yaşıyır.
Şəhidlik adını şəhid daşıyır.
Vətəni yolunda veribdilər can.
Onlarla fəxr edir bu Azərbaycan!
Şəhidlər dadırlar şəhid dadını.
Qanıyla tarixə yazır adını.
On dördü iyulda şəhidimiz var.
Onlardan biridir Babayev Yaşar.
Yaşarın varıydı otuz üç yaşı.
Hərbidə çox şeylər çəkmişdi başı.
İcazə almışdı, evdəydi Yaşar.
Hərbiyə dönməyə vaxta hələ var.
Ananın bir axşam gəldi yanına.
Bir həvəs gəlmişdi sanki canına.
Söylədi: ay ana, heç nə demə sən.
Qərarı vermişəm , yol üstəyəm mən.
Həmişə qoy qüvvət gəlsin qoluna.
Bir şeylər hazırla , ana yoluma.
Ananın titrədi incə ürəyi.
Alovlandı onun yenə kürəyi.
Sən nə tez dönürsən, ay oğlum,Yaşar?
Sənin ki, vaxtına bir neçə gün var.
Bilirsən yatacaq indi yoldaşın.
Uşaqsız gör nələr çəkibdi başın.
Səkkiz il gözlədin uşaq yolunu.
Bu işdən cəkmə gəl indi qolunu.
Tək qoyma bu zaman burda Nərgizi.
Tez dönüb gəl məyus eyləmə bizi.

Ay ana, dayanıb,  gözləyir maşın.
Sən allah, dalımca tökmə göz yaşın.
Ananın üzünə boylandı Yaşar.
Söylədi : Nərgizin bir qurbanı var.
İndidən deyirəm həmin o zaman,
Kəsərsən ay ana, Nərgizə qurban.
Ananın sevincdən yaşardı gözü.
Kəsərəm, qurbanı söylədi özü.
Yaşar tez hoppanıb maşına mindi.
Sonra da maşından o, yerə endi.
Yadımdan çıxmışdı, söyləyəm sənə.
Bir yardım əlini uzat sən mənə.
Çoxlu şar alarsan, tök otağına.
Bəzək vur Nərgizin sən yatağına.
Uşağın adını Narin qoyarsan!
Hər şeyin gözünü ona alarsan.
Aradan keçmişdi bir xeyli zaman.
Anaya zəng etdi yenidən oğlan.
Bir neçə beçəni qızardarsan sən.
Axşama dönəndə apararam mən.
Sən elə bişir ki ,hamıya çatsın.
Əsgərlər ağzına bir tikə atsın.
Ana tez-tələsik beçələr yoldu.
Yaşarın dediyi o vədə doldu.
Yollarda qalmışdı ananın gözü.
Heç gəlib çlxmadı Yaşarın özü.
Oğlunun yanında qalmışdı canı.
Qazana baxdıqca qaraldı qanı.

O gecə Yaşardan heç çıxmadı səs.
Nə xəbər vermədi oğlundan heç kəs.
Narahat olurdu ana ürəyi.
Alışıb, yanırdı sanki kürəyi.
Gecəni keçirdi ana bir təhər.
Artıq gecə keçib açıldı səhər.
Vahimə içində ana gəzirdi.
Bu işə güc ilə, zorla dözürdü.
Gözləri yoldaydı, özü nigaran.
Qışqırtı səsləri eşitdi bu an.
O, zaman o, durub qapını açdı.
Ana ayaqyalın küçəyə qaçdı.
Maşınla, adamla küçə daşırdı.
Bu səslər aləmi sankı aşırdı.
Bayraqlar yellənir, şüar səslənir.
Qorxudan ananın başı hərlənir.
Qonşusu söyləyir qorxma , Firəngiz.
Bayaqdan hər şeyi izləyirik biz.
Qonşumuz düşübdü indi qəzaya.
Çığırtı qalxıbdı vallah, səmaya.
Ananın əsirdi ana ürəyi.
Daha da yanırdı onun kürəyi.
Bilirdi yüz faiz burda nəsə var.
Qışqırıb deyirdi : Yaşar, ay Yaşar!
Əmoğlu dillənib dedi : ay bacı,
Oğlun yaralanıb, bax odu acı.
Ananı elə bil ildırım vurdu.
Saçını yolaraq yerində durdu.

Heç zaman Yaşarım yaralanmaz.
O, uşaq gözləyir, belə də olmaz.
Səkkiz il gözləyib onun yolunu.
İtirsin razıyam o, bir qolunu.
Bircə sağ -salamat dönsün evinə.
Nə deyim, söyləyim indi gəlinə?
Sən demə anaya olan olubmuş.
Evində zəlzələ, tufan qopubmuş.
Xəbəri eşitdi ata da daha.
Yalvarıb deyirdi o, da allaha,
Razıyam kəsilsin qoy bir ağağı.
Yaşar gözləyirdi axı uşağı.
Gözündən sel kimi yaş ələnirdi.
Hər tərəf bu yaşa tez bələnirdi.
Allahım, yalvarıb deyirəm sənə.
Oğul yox, o, qardaş olmuşdu mənə.
Qıyma sən balamın cavan canına.
Qoy gəlsin yenə də ata yanına.
Papiros çəkməzdi heç vaxt yanımda.
Təlatüm var mənim indi canımda.
Anası Yaşarsız heç yaşayammaz.
Bu yükü heç zaman o, daşıyammaz.
Küçədə izdiham, adam çoxuydu.
Əfsuslar olsun ki ,Yaşar yoxuydu..

*****

Namiq Əhmədovdu şəhidin biri.
Cənnətdir mayorun o andan yeri.
Gözünü Salahlı kəndində açıb.

Həmişə oxumaq dalınca qaçıb.
Hərbiçi olmağı seçibdi özü.
Həmişə düzüydü söhbəti- sözü.
Vətəni tuturdu canından əziz.
Hər işi olurdu dəqiq və təmiz!
Komandir doğuldum dedi anadan.
Komandir kimi də ölərəm inan.
Həmişə o, kəndə gəldiyi zaman.
Şəhid anasına dəyirdi hər an.
Deyirdi hazır ol, ay ana sən də.
Bir gün gördün elə şəhidəm mən də.
Qorudu vətəni Namiq canıyla.
Suladı torpağı qızıl qanıyla.
O, şəhid olmuşdu vətən yolunda.
Adını tarixə yazdı sonunda.
Acıdan acıdır , vallah bu xəbər.
Xəbəri verdilər evə bir təhər.
Anaya söyləyə bilmirdi kimsə,
Nə olar bu sözü ana eşitsə?
Əmiyə dedilər öncə xəbəri.
Bu xəbər dolandı bütün yerləri.
Ananın qan oldu bağrının başı.
Qurumaq bilmədi gözünün yaşı.
Olduqca zərifdi ana ürəyi.
Artıq o, duyurdu itib əməyi.
Göylərə qalxmışdı onun naləsi.
Kiriməк bilmirdi göynəyən səsi.
Ancaq hay vermirdi oğlu səsinə.

Sanki dağ basmışdı düz sinəsinə.
Namiqin varıydı iki övladı.
Yaxşı ki, dadmışdı o, övlad dadı.
Onlar soruşurlar atam hardadır?
Hamı söyləyir ki , uzaqlardadır.
Bir gün olacaqdır gələcək yenə.
Deyəcək, uşaqlar sarılın mənə.
Hər gündə gözləyir onlar yolunu.
Necə söyləsinlər işin sonunu?...

*****

Şəhidlər içində bir mayor da var.
Onlardan biridir Novruzov Anar.
Masallıdan olan həmin bu oğlan,
Vətənin yolunda olmuşdu qurban.
Anar uşaqların onuncusuydu.
O evin həm də ki, sonuncusuydu.
Özünün varıydı düz qırx beş yaşı.
Zülümlər çəkmişdi orduda başı.
Kəşfiyyat işiylə məşğul olurdu.
İllərdi orduda yaşa dolurdu.
Varıydı onun da iki övladı.
Nihat qoyulmuşdu onun da adı.
Şəhidlik xəbəri baş alıb getdi.
Bu xəbər hamını çox məyus etdi.
Nihatı bürüdü tamam qəm, kədər.
Onlara yazıldı belə bir qədər.
Dəfində söz alıb, söylədi Nihat.
Söz verdim hamıya elə bu saat.

Oxuyub mən hərbi həkim olacam.
Atam tək hərbidə yaşa dolacam.
Anardan razılıq edirdi hamı.
O, darda qoymurdu bircə adamı.
Döyüş bölgəsinə hər an gedirdi.
Yaralı əsgəri xilas edirdi.
Həmin gün döyüşə gedirdi Anar.
Söylədi: bu gecə şəhid olmaq var.
Yəqin ki, mən indi şəhid olacam.
Tarixdə şəhid tək yadda qalacam.
Sanki ürəyinə dammışdı onun.
Kimsə deyirdi ki, gəlibdi sonun.
Doğurdan dediyi kimi də oldu.
Bütün arzuları o gecə soldu...

*****

Unuda bilmirdi heç kim Poladı.
Yoxluğu yandırdı dostu , həm yadı.
Matəmə batmışdı bütün insanlar.
Xoşuydu hamıya Poladlı anlar.
İstəmirdi kimsə onu itirə.
Varıydı hərədə xoş bir xatirə.
Həyat yoldaşıydı Ofelya xanım.
Poladla fəxr edir, deyirdi canım.
Görmədim Polad tək adam həyatda.
Ömürlük qalacaq general yadda.
Belə adamları xəyal edirdim.
Çoxlu nağıllara sanki gedirdim.
İnana bilməzdim özüm heç zaman.

Dünyada yaşayar belə bir insan.
Onu tanıdıqca mat qaldım özüm.
Hər şeyin şahidi oldu bu gözüm.
Xalq  üçün yaşadı Polad hər zaman.
Evdə olmayırdı istədiyin an.
Aylarla gəlmirdi general evə.
İşini görürdü o, sevə-sevə.
Hər şeyi işinə qurban edirdi.
İşinin dalınnan özü gedirdi.
O, zaman toyunu saxladı özü.
Sevdiyi qıza da bu oldu sözü.
İşdən göndərirlər xaricə məni.
Mən məyus edəsi olacam səni.
Elə ki, oxuyub gələrəm yenə.
O zaman şad xəbər verərəm sənə.

*****

Cibinin puluyla nələr edirdi.
Əsgərə yardıma özü gedirdi.
Kazarma tikdirdi o, əsgərlərə.
Aldı televizor ucqar yerlərə.
Odun doğrayardı onlara özü.
Əsgərin üstündə olurdu gözü.
Bir gün yoxlamaya gəldiyi zaman.
Gözünə bir əsgər sataşır o an.
Görür ki, yırtılıb onun çəkməsi.
O, heyran eyləyir orda hər kəsi.
Soyunub çəkməni verir əsgərə.
Gözünü zilləyir əsgər tez yerə.

General çəkməsi geyəmmərəm mən.
Axı ayağından çıxardıbsan sən.
Polad ayaqqabı geyindi özü.
Bu oldu əsgərə o anda sözü,
Sərhəddə dayanan bütün əsgərlər,
Tamam generala bərabərdilər.
Halal xoşun olsun, geyin onu sən.
Bunu əminliklə söyləyirəm mən.

*****

Hec nədən qorxmazdı Polad heç zaman.
Düşmənin önünə gedərdi hər an.
Bir gün maşın ilə gəzir sərhəddə.
Sürücü saxlayır sonuncu həddə.
Söyləyir: biz gedə bilmərik daha.
Yaşama vaxtımız qalıb Allaha.
Gülləynən vurarlar düşmənlər bizi.
Vəzifəm budur ki, qoruyam sizi.
General boylandı o yan , bu yana.
Gülümsəyib baxdı həmin oğlana.
Tutdu pəncərəyə tez kürəyini.
Söylədi: eylədim mən gərəyini.
Dəyəmməz düşmənin gülləsi sənə.
Bu gələn güllələr qoy dəysin mənə.

*****

Əsgərlə birlikdə çörək kəsərdi.
Onların üstündə hər an əsərdi.
Günlərin birində yemək zamanı,
Diqqəti cəlb edir  tez bir oğlanı.

Görür ki, içməyir kompotu oğlan.
Niyə içməyirsən ? Soruşur o an.
Bilmək istəsəniz düzünü əgər,
Xoşuma gəlməyir söyləyir əsgər.
Polad tərk eyləyir həmin məkanı.
Qayıdıb deyir ki, al istəkanı.
Gətirdim kompotu icəsən özün.
Hamıya olacaq deyəsi sözün.
Ürəklə deyərsən hər yerdə yenə,
Kompotu general süzübdü mənə.

******

Getdikcə artırdı şəhidin sayı.
Nazimin varıydı zirvədə payı.
Şəhidlik zirvəsi nəsibi oldu.
Ayın on altısı həyatı soldu.
Hücuma keçmişdi gecədən düşmən.
Hər yeri bürüdü yenə duman , çən.
Hünərlə döyüşdü Nazim bu zaman.
Düşmənə vermədi bir an da aman.
Sonunda bir topun qurbanı oldu.
Qəlpələr Nazimin canına doldu.
Həmin gecə ana yatdığı zaman,
Oğlunu yuxuda gördü həmən an.
Gördü ki, gəlibdi Nazim yanına.
Bir məlhəm yayıldı onun canına.
Oğlunu bağrına basmışdı ana.
Oğlu bir yanaydı, hamı bir yana.
Söylədi: meylimi saldım vətənə.

Ay ana, bir kəlmə söyləmə mənə.
Mənimçün birinci vətəndir, vətən!
İkinci yerdə də dayanırsan sən.
Mən təzə bir paltar aldım özümə.
Çox yaxşı göründü paltar gözümə.
O saat yuxudan ayıldı ana.
Bir qorxu gəlmişdi bu zaman cana.
Əsirdi ananın tir-tir ürəyi.
Çim suya batmışdı onun kürəyi.
Hönkürə-hönkürə ağladı ana.
Üzünü tutdu o, tezcə Əfqana.
Söylədi: evimiz yıxıldı bizim.
Şəhid olacaqdı bu gecə Nazim.
Kişi inanmadı onun sözünə.
Nəsə gələmmədi ancaq özünə.
Söylədi: bu nədir danışırsan sən?
Uşağın başında nə vardır görən?
Gecəni verdilər yola bir təhər.
Gördülər açılıb zülümlü səhər.
Aradan keçmişdi azca bir zaman,
Dedilər şəhiddir sizin bu oğlan.
Sevdanı elə bil ildırım vurdu.
Olduğu yerdəcə quruyub durdu.
Nazimin istəyi yerinə yetdı.
O, şəhid olaraq dünyadan getdi.
Həmişə deyərdi şəhid olacam.
Ömürlük tarixdə, yadda qalacam.
Ananın göylərə qalxdı naləsi.
Dəhşətə gətirdi bu da hər kəsi.

Bütün kənd oyandı, qalxdı ayağa.
Nazimi tapşırdı onlar torpağa...

*****

Vətən inildəyir, vətən dardadır!
Bizim nər igidlər indi hardadır?
Şəhidlər köç edib, getdi dünyadan.
İgid doğuldular onlar anadan.
Vətəni qorudu onlar canıyla.
Torpağı suvardı qızıl qanıyla.
Kimisi evliydi, kimisi subay.
Onlar eylədilər canlarını pay.
Əl çəkmir erməni heç vətənimdən.
Səfərbərlik oldu dünən  qəfildən.
Kiçikdən böyüyə ayağa qalxdı.
Millətim sel kimi sərhədə axdı.
Qalammaz Poladın heç qanı yerdə.
Erməni batammaz bizlərə bir də.
Hörmətlə yad edir Poladı hamı .
Ölümü yandırdı bütün adamı.
Az qalıb, az qalıb bu qələbəyə.
Təlimlər keçilir hər tələbəyə.
Səsimiz gələcək düz Qarabağdan.
Heç zaman pay olmaz qara torpaqdan.
Ruhunuz önündə baş əyirik biz.
Qoy rahat uyusun şəhidlərimiz!
Tovuzda Can Polad deyirlər ona.
Əzablı bu günlər yetəcək sona.

## QIRX DÖRD GÜNÜN SƏDASI!

Hər tərəf büründü yamyaşıl dona.
Yetişdi qarlı qış tamamən sona.
Gəlirdi hər yandan yazın xoş ətri.
Yaşıllıq istərdi insanın xətri.
Quşlar cəh-cəh vurub bərk oxuyurdu.
Qızlar da çələngi çox toxuyurdu.
Çələngi başına onlar taxırdı.
Həvəslə güzgüdə sonra baxırdı.
Evin həyətində güllər açırdı.
Onlardan hər yana ətir sacırdı.
Kəndin ortasından keçirdi bir çay.
Salırdı aləmə o bir hay-haray.
Zümzümə çalaraq bu cay axırdı.
Uşaqlar maraqla ona baxırdı.
Bunun da varıydı özgə ləzzəti.
Sona yetişirdi yazın həsrəti.
Getdikcə ağaclar çiçək acırdı.
Xoruzlar həyətdə gəzib, qaçırdı.
Dəstəynən toyuqlar qaqqıldaşırdı.
Pişiklər ağaca tez dırmaşırdı.
Elə ki, gün gedib düşürdü toran,
Sükutu pozurdu qurbağa o an.
Günəş öz yerini verirdi  aya.
Yuxardan baxırdı o axan caya.
Ulduzlar göylərə səpələnirdi.

Nur olub yerlərə tez ələnirdi.
Uzaqdan gəlirdi itlərin səsi.
Qoynuna alırdı gecə hər kəsi.
Çox gözəl olurdu bu kənd həyatı.
Deyərdi nənələr gözəl bayatı.

*****

Arxın kənarında bir ev varıydı.
Ev özü böyükdü, yolu darıydı.
Bir maşın güc ilə keçirdi yoldan.
Güclə qorunurdu ağacdan, koldan.
Bir ev də varıydı azca aralı.
Həmişə olardı qonaq, qaralı.
Bacı qardaşıydı ev sahibləri.
Birlikdə verərdi yola illəri.
Bir yerdə olurdu onlar çox zaman.
Su da keçməyirdı aralarından.
Səlminin varıydı iki övladı.
Reyhan qoyulmuşdu qızının adı.
Oğluna vermişdi Sultan adını.
Onlar dadmışdılar övlad dadını.
Səlminin yoldaşı Qurban kişiydi.
Dükanda işləmək onun işiydi.
Zəhmətlə böyütdü onları Qurban.
Üstündə olurdu gözləri hər an.
Onlar nə istəsə hazır olurdu.
Masanın üstünə hər şey dolurdu.
Günlər bir-birini qovub gedirdi.
Həyat öz yoluna davam edirdi.

Uşaqlar yetginlik yaşına çatdı.
Onlar körpəliyin daşını atdı.
Qızlar bulağından su icdi Reyhan.
Sanki dəyişirdi bu qız anbaan.
Səlminin qonsusu öz qardaşıydı.
Qardaşla ən yaxın o, sirdaşıydı.
Rüstəmin var-yoxu bir oğlu vardı.
Reyhandan bir azca böyük olardı.
Bir yerdə böyüdü uşaqlar hər an.
Yeməyi bir qabdan yedilər inan.

*****

Reyhanla dost idi dayoğlu Adil.
Dəyişdi bu dostluq sanki elə bil.
Artıq göstərirdi işini zaman.
Dalınca gəzirdi Adil anbaan.
Gözündən qoymurdu bir an Reyhanı.
Onunla qalırdı elə bil canı.
İstəmirdi bunu bilsin bir adam.
Dəli eyləmişdi bu onu tamam.
Kədərli olurdu Adilin üzü.
Söyləyə bilmirdi Reyhana düzü.
Bilmirdi qızcığaz ona nə deyər.
Qorxurdu bu işi kim isə əyər.
Reyhan hiss edirdi olub- keçəni.
Ürəkdən isdəmir deyirdi məni.
Nə üçün fikrini söyləmir Adil?
Lal olub bu yazıq sanki elə bil.
Həmişə danışıb, gülən bir oğlan.

Adillik qalmayıb, dəyişib bu an.
Görəsən Adili nədir qorxudan?
Tilsimə düşübdür elə bil inan.
Bu işə yanırdı qızın da canı.
Qaralırdı onun hər zaman qanı.
Adilin anası Firəngiz xala,
Reyhanı bilirdi özünə bala.
Çox xoş görünürdü Reyhan gözünə.
Onu gəlin seçdi  ana özünə.
Adilin fikrini düşmüşdü başa.
Bilirdi o, çatıb yetginlik yaşa.
Rüstəmə dedi ki, bir gün Firəngiz,
Ay kişi, Adili evləndirək biz.
Bilirəm çox sevir oğlun Reyhanı.
Olduqca bağlıdır bu qıza canı.
Reyhan böyüyübdü öz əlimizdə.
Xeyir-dua verək onlara biz də.
Gəlin tək çox yatır qız ürəyimə.
Yağ kimi yayılır lap kürəyimə.
Adil də bax özgə kimi alacaq?
Ən gözəl namizəd Reyhan olacaq.
Həm oğlum istəyir, həm də ki, özüm!
Doğrusu ondadır mənim də gözüm.
Mən dedim, ay Rüstəm sözün düzünü.
Qız var ki, az qalır cıra üzünü.
Gərək gəlin gedə bizimlə yola.
Ayrı qız neynirəm, bu ola-ola?
Rüstəmi elə bil fikir götürdü.

Dərindən ah çəkib, o, köks ötürdü.
Lap yaxşı fikirdi dedi, Firəngiz.
Qorxuram axırda çox pis olaq biz.
Qız almaq, qız vermək çətindir, çətin.
Bu işdə nə qədər olsan da mətin,
Sonunda bizlərə xələl gələcək.
Uşaqlar özünü doğru biləcək.
Pozular aramız mənim bacımla.
Mən gəzə bilmərəm bax bu acımla.
Uşağın üstündə olarıq üz-göz.
Sonra da bu işə indi də gəl döz.
De görüm, başına qızmı qəhətdi?
Qohumdan qız almaq çox pis cəhətdi.
Axtar tap yadlardan bir gəlin alaq.
Bacımla həmişə mehriban qalaq.
Bir qədər fikirə getdi Firəngiz.
Davalıq nə var ki, neyləyirik biz?
Bir gün gedəcəkdir Reyhan da ərə.
İstəyir nə desin bilmirəm hərə.
Alarıq Adilə onu özümüz.
Bax , nədən kor olub axı gözümüz?
Dava etməmək də əlimizdədir.
Bu qızın qisməti , vallah bizdədir.
Səlminin ağzını arayacam mən.
Hər şeyi kənardan izləyərsən sən.
Vallah, verəcəklər Reyhanı bizə.
O, gəlin gələcək öz evimizə.
Fikir dəryasına Rüstəm qərq oldu.

Gözləri sevincdən yaşardı, doldu.
Nə deyim, anasan, fikirləş özün.
Əslində pis deyil, doğrudur sözün.
Allahım qoy versin işin xeyrini.
Bəxş etsin bizlərə gəlin seyrini.

*****

Gecədən başladı atışma səsi.
Yatmağa qoymadı kənddə heç kəsi.
Bütün kənd gecəynən ayağa qalxdı.
Hamı silahını belinə taxdı.
Tovuzun özünə gəlirdi bu səs.
Sərhədə üz tutdu rayonda hər kəs.
Bir maşın karvanı düzəldi yola.
Güllələr yağırdı sağa, gah sola.
Erməni atmaqdan sanki doymurdu.
Heç kimsə gülləyə məhəl qoymurdu.
Birbaşa sərhədə gedirdi hamı.
Saymaq da olmurdu orda adamı.
İllərdi atışma davam edirdi.
Günahsız insanlar ölüb gedirdi.
Sərhədi pozurdu hər an erməni.
Lənətə gəlsin bu mənfur düşməni.
Onlar sinəmizə çəkdilər dağı.
Zəbt edib aldılar bax Qarabağı.
Elimin, obamın dilbər güşəsi!
Qarabağ yandırdı bütün hər kəsi.
Otuz il düşmənin oldu tapdağı.
Səbirlə gözlədik onu almağı.

Onlar taladılar torpağımızı.
Yerlərə atdılar bayrağımızı.
Qızıl yatağını çapıb, taladı.
Cıdırda at sürüb, tonqal qaladı.
Paşinyan Suşada yallı gedirdi.
Kəlbəcər, Laçında keflər edirdi.
İstisu olmuşdu onun oylağı.
Şuşaydı ən gözəl əsas yaylağı.

******

Qalxırdı göylərə atışma səsi.
Qorxuya salırdı eşidən kəsi.
Adili bürüdü tamam qəm, kədər.
Bilirdi yazılıb ona bu qədər.
Söyləyə  bilmədi qıza sözünü.
Günahkar bilirdi indi özünü.
Mən nədən qəlbimi açmadım ona?
Desəydim çatardım mutlu bir sona.
Artıq yeri deyil, vətən dardadır.
Erməni gör gəlib indi hardadır?
Heç kimə demədi bir kəlmə sözü.
Cəbhəyə yollandı birbaşa özü.
Bombalar yağırdı lap hər tərəfə.
Güllələr dəyirdi tamam hədəfə.
Getdikcə artırdı həm həyacanı.
Sanki odlanırdı həmi də canı.
Əsəbdən yanağı yaman allandı.
Sərhəddə onlara silah paylandı.
Şiddətlə vururdu igid ürəyi.

Qəlbində varıydı arzu, diləyi.
Nifrəti artırdı onun düşmənə.
Xidmət eyləyirdi indi vətənə.
Hərbi formasını geyindi Adil.
Rahatlıq yarandı bir az elə bil.

****

Heç bir şey düşmürdü onun yadına.
Silahlar gəlirdi ancaq dadına.
Sərhəddə çox qızğın döyüş gedirdi.
Erməni hər yandan hücum edirdi.
Göz-gözü görmürdü həmin o zaman.
Leysan tək yağırdı mərmilər inan.
Ağır texnikadan onlar atırdı.
Topların səsindən qulaq batırdı.
Bir nəfər evini tərk etməmişdi.
Kəndindən heç kimsə heç getməmişdi.
Elə ki, düşürdü axşam qaranlıq,
Əsgərlər baxırdı kəndə bir anlıq.
Sanki bu lampalar lap gur yanırdı.
Əsgərlər özünü xoşbəxt sanırdı.
Çünki bu işıqdan ilham alırdı.
Çilçiraq hər yana işıq salırdı.
Ürəkli olurdu igidlərimiz.
Bilirdi boş deyil bax kəndlərimiz.
Onların dalında xalq dayanırdı.
Əsgərlər xalqına çox inanırdı.
Adilin gözləri nələr görürdü?
Hər gündə nə qədər adam ölürdü.

Mərmilər düşürdü evə-eşiyə.
O zərər verirdı hər bir kişiyə.
Günahsız insanın axırdı qanı.
Məhv olub gedirdi bir anda canı.
Mərmilər düşürdü Dondar Quşçuya.
Hüseyin qalmışdı evdə uyuya.
Heç nədən olmadı onun xəbəri.
Mərmilər bürüdü bütün yerləri.
Bombalar düşmüşdü evin başına.
Qəlpələr sancıldı hər bir daşına.
Hüseyin yatarkən şəhid olmuşdu.
Alovlar hər yandan evə dolmuşdu.
Yoxuydu Adilin gecə-gündüzü.
Bunları gözüylə görürdü düzü.
Çətinlik çəkirdi onlar özləri.
Dəhşətlər görürdü hər an gözləri.
Kimi itirirdi əl-əyağını.
Kimi görməyirdi heç qabağını.
Tikəsi heç ələ gəlməyənlər var.
Adilə gəlirdi onda dünya dar.
Erməni hər yandan atəş açırdı.
Güllələr ulduz tək işıq sacırdı.
Şücaət göstərdi bizim igidlər.
Döyüşə qərq oldu bütün hər yerlər.
Düşmən hər tərəfdən həmlə edirdi.
Qarabağ uğrunda döyüş gedirdi.

*****

Bir qarış torpaqçün tökülürdü qan.
Nə qədər igidlər verirdilər can.
Şəhidin yoxuydu hesabı, sayı.
Düşmənlər alırdı layiqli payı.
Mərmilər yerlərə lap ələnmişdi.
Erməni leşləri səpələnmişdi.
Qorxudan geriyə çəkilirdilər.
Fürsət də düşdükcə əkilirdilər.
Nə qədər texnika qoyub qaçdılar.
Onlar ağ bayrağı yerə sancdılar.
Qaçmışdı hər şeyi dağıdıb düzə.
Hərbi sursatları qalmışdı bizə.
Ordumuz onlardan qisas alırdı.
Düşməni lap pərən-pərən salırdı.
Döyüşün birində tamam qəfildən,
Erməni hücuma keçmişdi birdən.
Bu mənfur düşmənlər pusqu qurmuşdu.
Bizim əsgərləri tamam vurmuşdu.
Adilin yanında bomba partladı.
Səsindən elə bil dünya çatladı.
Hər tərəf dumana , toza büründü.
Yıxılan yıxıldı , yerdə süründü.
Ancaq itirmədi Adil özünü.
Tozdan bərk yummuşdu o an gözünü.
Fırlanırdı dünya sanki başına.
Əlini uzatdı o, yoldaşına.
İstəyirdi tutsun onun qolundan.
Güllələr keçirdi sağ və solundan.

Dostuna çatmadı Adilin əli.
Az qala qorxudan olmuşdu dəli.
Çünki bir nəfər də qalmamışdı sağ.
Qanları axırdı su tək cağhacağ.
Büdrəyib yıxıldı Adilin özü.
Tozdan görməyirdi heç yanı gözü.
Tələsik özünü aldı o, ələ.
Bildi ki, qurulub onlara tələ.
Əliylə dostunu axtardı yerdə.
Dönüb hər tərəfi yoxladı bir də.
Tez-tez danlayırdı sanki özünü.
Artıq o, açmışdı indi gözünü.
Gözləri sataşdı dostuna birdən.
Elə bil cərəyan vurdu qəfildən.
Çoxdan tapşırmışdı dostu canını.
Adil itirmədi bircə anını.
Yerindən sıçrayıb ayağa durdu.
Tələsik əlini dostuna vurdu.
Oğlanı qaldırıb dalına aldı.
Özü də bu işə lap mətəl qaldı.
Elə bil Allahdan güc gəldi ona.
Dostumla gedəcəm, söylədi sona.
Qoymaram düşmənə qalsın cəsədi.
Artıq kəsilibdi onun əhədi.
Tüfəngi sıxmışdı öz sinəsinə.
Fikir verməyirdi güllə səsinə.
Neytral zonaya o, üz tutmuşdu.
Elə bil bu igid bir qızıl quşdu.

Birdən topuğunda ağrı hiss etdi.
Yenə də neytral zonaya getdi.
Güllələr başından yerə yağırdı.
Onsuz da Adilin yükü ağırdı.
Artıq ayağında artırdı ağrı.
Vaxtı olmadı ki, vura bir sarğı.
Nəhayət çatdılar mənzil başına.
O, sadiq qalmışdı öz yoldaşına.
Dediyi sözünə əməl etmişdi.
Dostuyla birlikdə sona getmişdi.
Əsgərlər yığıldı onun başına.
Hamı əl uzatdı tez yoldaşına.
Çiynindən aldılar tezcə oğlanı.
Boşa vermədilər heç bircə anı.
Heç nəyin yoxuydu ona əlacı.
Gördülər Adili öldürür acı.
Su kimi axırdı yerlərə qanı.
Ağrıdan yanırdı igidin canı.
Adil ayağından yaralanmışdı.
Güllələr cərgəylə sıralanmışdı.
İgidin nə qədər axsa da qanı,
Ağrıdan alışıb yansa da canı,
Yorulub kəsildi bütün əhədi.
Düşmənə vermədi Adil cəsədi.
İgidə əsgərlər heyran qaldılar.
Neytral zonadan onu aldılar.

****

Döyüşlər hər gündə davam edirdi.
Ordumuz anbaan önə gedirdi.
Getdikcə artırdı ölənin sayı.
Erməni alırdı lazımı payı.
Günlərin birində döyüş zamanı.
Düşmənin kəsildi yenə amanı.
Erməni hər şeyi qoyub qaçırdı.
Güllələr ulduz tək işıq saçırdı.
Qarışmışdı orda tozlar dumana.
Rast gəlmək olmurdu bircə insana.
Əsgərlər gəzirdi evi-eşiyi.
Yoxlayırdı bütün dəlmə- deşiyi.
Hər şeyə nəzarət edirdi Adil.
Nəsə ürəyinə damdı elə bil.
Arada gəlirdi qulağına səs.
Artıq eşidirdi bunu da hər kəs.
Adilin dəstəsi saxladı ayaq.
Dinşədi səs gələn yerləri bayaq.
Yaxında bir evdən gəlirdi bu səs.
Əsgərlər mat qaldı, çəkmədi nəfəs.
O evin yanında gəlib durdular.
Qapıya zərbəylə təpik vurdular.
Taybatay acıldı qapı bu zaman.
Əsgərlər quruyub qaldılar inan.
Bu evdə bir körpə təkcə qalmışdı.
Ağlayıb hər yana səs -küy salmışdı.
Erməni uşağı qoyub getmişdi.

Bəs nədən bu işi belə etmişdi?
Heç kimsə bilmirdi burda olanı.
Unuda bilməzdi görən bu anı.
Kim bilir nə vaxtdan o, ağlayırdı.
Gözündən sel kimi yaş çağlayırdı.
Uşağa dikildi hamının gözü.
Maraqla baxırdı Adilin özü.
Uşağı götürdü tez qucağına.
Baxdılar bu evin künc- bucağına.
Heç kimsə yoxuydu bu evdə o an.
Mat qaldı buna da əsgərlər inan.
Körpənin üzünə baxırdı Adil.
Sanki sevinirdi körpə elə bil.
Gözünü dikmişdi onun gözünə.
Yemək istəyirdi sanki özünə.
Artıq söz yoxuydu indi deməyə.
Heç nə qalmamışdı evdə yeməyə.
Əsgərlər axtardı hər yeri birdən,
Bir quru peçenye tapdılar evdən.
Peçenyeni suda tez islatdılar.
Uşağın ağzına ondan atdılar.
Yeməyi tələsik uşaq sorurdu.
Körpənin ürəyi tez-tez vururdu.
Uşağa lazımı yardım etdilər.
Onu da götürüb ordan getdilər.
Körpəni bağrına basmışdı Adil.
Sanki doğmasıdır onun elə bil.
Dilləndi əsgərin biri qəfildən,

Erməni uşağı neynəyirəm mən?
Bizim uşaqları şişə taxırlar.
Kənardan ləzzətlə ona baxırlar.
Divan tuturdular qıza, gəlinə.
Qandal taxırdılar tezcə əlinə.
Hamilə qadına dağ basırdılar.
Onları ağacdan gah asırdılar.
Düşmən hamilənin qarnını yardı.
Uşağı öldürüb ordan qopardı.
Bıçaqla qarnını bir az oydular.
Körpənin yerinə küçük qoydular.
Qarnını tikdilər onun yenidən.
Gəlin dünyasını dəyişdi birdən.
Bu zülmə dözmədi onun kürəyi.
Param-parça oldu orda ürəyi.
Bəs nədən onları əzizləyirik?
De görüm ,axı biz nə gözləyirik?
Onlardan alaq də qisasımızı.
Onlar sağ qoymazlar heç hansımızı.
Komandir, yerə qoy uşağı sən də.
İşinə  baxaram bu saat mən də.
Adil addımladı yolu düzünə.
Əsəblə əsgərin baxdı üzünə.
De görüm, nə hesab eylədin məni?
Burda heç bir kimsə deyil erməni.
Vəhşi tək tanıyır onları cahan.
Bizə də deyirlər can Azərbaycan!
Bizdə düzgünlük var, həm də ədalət.

Düşməndə mövcuddur hər cür rəzalət.
Onların getdiyi yol ilə getsək,
Düşmənin gördüyü işlərdən etsək,
O zaman olarıq biz də erməni.
Onlara tay etmə indi də məni...

*****

Ordumuz gedirdi hər an irəli.
Azad eyləyirdi bütün yerləri.
Əsgərlər evləri bir-bir gəzirdi.
Düşmənin başını hər an əzirdi.
Evlərin birində bir qadın vardı.
Qadının yaşı da xeyli olardı.
Elə ki, o, gördü bu əsgərləri,
Əliylə göstərdi bütün yerləri.
Söylədi: xoş gəldiz öz evinizə.
Qurbandır bu yerlər hamısı sizə.
Diqqətlə dinlədi qadını Adil.
Adını soruşdu, dedi: eşit , bil.
Yalandan etimad göstərmə bizə.
Onsuz da gəlmişik öz evimizə.
Tək-tənha sən burda niyə qalmısan?
Bizim bu yerlərdə lövbər salmısan.
Bəs niyə buranı tərk etməmisən?
Məqsədin nədir ki, sən getməmisən?
Qadın qorxusundan tir-tir əsirdi.
Sanki şaxta, ayaz onu kəsirdi.
Çiyninə salmışdı nazik bir yorğan.
Elə bil təlaşdan öləcək bu an.

Satıcı işlədim mən bu dükanda.
Atışma getdiyi həmin o anda,
Bir mərmi düşmüşdü düz yanımıza.
Bələndik hamımız öz qanımıza.
O zaman qəlpədən yara almışam.
Huşumu itirib yerdə qalmışam.
Nə vaxtsa ayıldım, gəldim özümə.
Fırlandı bu dünya onda gözümə.
Gördüm ki, hər tərəf tamam dağılıb.
Nəfəsim daralıb, rəngim boğulub.
Heç kimsə qalmayıb mənim yanımda.
Dəhşətli qorxu var yaman canımda.
Gizləndim , heç yana çıxa bilmədim.
Yaxşı ki, qorxudan onda ölmədim.
Bizə dedilər ki, siz qəddarsınız.
Nə qədər burada sizlər varsınız,
Bizləri məhv edib, qıracaqsınız.
Hər yeri yandırıb alacaqsınız.
Bu qadın ötürdü elə bil dil-dil.
Ehmalca başını buladı Adil.
Erməni qadını ordan aldılar.
Gətirib Bakıya yola saldılar.
Abramyan soyadı daşıyan qadın.
Olduğu yerlərin söylədi adın.
Uşaqlıq illəri Bakıda kecib.
Yeməklər içində qutabı seçib.
Dadıbdı Azəri paxlavasından.
Həzz alıb Bakının xoş havasından.

Bakıda hörmətlə saxlandı qadın.
Yenə də çıxartdı Bakının dadın.
Sən bir bax erməni qadında üzə.
Sonradan sirləri töküldü düzə.
Bu qadın orduda xidmət edirmiş.
Cıdırda qol-boyun yallı gedirmiş.
Çiynində avtomat o, döyüşübdü.
Nədənsə dəstədən ayrı düşübdü....

*****

Elə ki, bunları eşitdi Adil,
Dəhşətə gəlmişdi sanki elə bil.
O, donub yerində qalmışdı inan.
Yalanlar söyləmiş ona Abramyan.
Düşünürdü Adil özü-özünə.
Nələr görünürdü orda gözünə.
Şiddətli döyüşlər davam edirdi.
Ordumuz günbəgün önə gedirdi.
Cəbhədən cürbəcür xəbər gəlirdi.
Ölüm xəbərləri ürək dəlirdi.
Ölüb itənlərin çoxuydu sayı.
Erməni alırdı lazımı payı.
Bizim əsgərlərə tab gətirmirdi.
Layiqlə yerinə iş yetirmirdi.
Hərbi sursatları qoyub qaçırdı.
Bizdə bu mənzərə ürək açırdı.
Bir dəfə şiddətli döyüş gedirdi.
Ordumuz hər yandan hücum edirdi.
Qorxuya düşmüşdü mənfur erməni.

Əsgərlər məhv etdi orda düşməni.
Onları it kimi ordan qovdular.
Hamsının burnunu sanki ovdular.
İgidlər düşməni dövrəyə aldı.
Hərbi texnikalar bizlərə qaldı.
Əsgərlər qapını açdığı zaman.
Gördüyü səhnəyə mat qaldı inan.
Sükanın dalında əsgər durmuşdu.
Özləri zəncirə onu vurmuşdu.
Zəncirlə bağlıydı əsgər sükana.
İmkanı yoxuydu qaça bir yana.
Bunları görənlər mat qaldı özü.
Deməyə qalmadı bir kəlmə sözü.
Onlar boşaldırdı kəndi, şəhəri.
Müjdəylə açırdı hamı səhərı.
Bir-bir torpaqları geri aldılar.
Düşməni lap pərən-pərən saldılar.
Bıçaq dirənmişdi boğaza indi.
Xalqımız olduqca hədsiz sevindi.
On gün vaxt istədi erməni bizdən.
Söylədi: çıxarıq biz evimizdən.
Hər gündə Laçından köç edirdilər.
Bir yolluq rədd olub lap gedirdilər.
On gündə sökdülər divarı, daşı.
Minalar basdırdı hər addımbaşı.
Bütün ağacları onlar kəsdilər.
Hər şeyin üstündə yel tək əsdilər.
Maşına doldurdu ördəyi, qazı.

Dibindən sökdülər həm unitazı.
Vəhşi tək girdilər qəbirsanlığa.
Gor eşən oldular bax bir anlığa.
Hərə öz qəbrinin yanına qaçdı.
Gecəynən məzarın üstünü acdı.
Onlar sür-sümüyü toplayıb aldı.
Erməni məzarı meyidsiz qaldı.
Hər şeyi yükləyib onlar maşına.
Yanacaq tökürdü evin daşına.
Hamısı kədərlə bir az dururdu.
Sonunda evlərə odu vururdu.
Qayıdaq otuz il bundan qabağa.
Erməni dolmuşdu bizim torpağa.
Düşmənlər buladı əlini qana.
Nə qədər qıydılar qiymətli cana.
Onlar divan tutdu qıza, qadına.
Qatil damğasını vurdu adına.
On saat vaxt verdi bizə o zaman.
Boşaldın şəhəri dedilər aman.
O qarlı, şaxtalı havada o an,
Paltar geyinməyə olmadı inkan.
Canını götürüb çıxmışdı hamı.
İtirdik nə qədər onda adamı.
Erməni hər yeri tutub almışdı.
Uşaqlar, körpələr yetim qalmışdı.
Onlar zəbt etmişdi bizim torpağı.
Viranə qoymuşdu bağçanı, bağı.
Otuz il keçmişdi indi aradan.

Qərtməklər qopmuşdu tamam yaradan.
Sağalmaq bilmədi heç zaman yara.
Vətənim düşmüşdü o vaxtdan dara.
Hazırın naziri olan erməni!
Tərk elə deyirdik bizim vətəni.

*****

Ordumuz hər yeri azad edirdi.
İnamla irəli onlar  gedirdi.
Qələbə sədası gəlirdi hər an.
Sevincdən evlərdə durmurdu insan.
Hamının sevinci aşıb-daşırdı.
Küçələr insanla dolub-aşırdı.
Sırayla gedirdi maşın karvanı.
Xəbərlər gəzirdi bütün cahanı.
Hər yandan bayraqlar dalğalanırdı.
İnsanlar özünü xoşbəxt sanırdı.
Evlərdən gəlirdi fişəngin səsi.
Meydanda görərdin bütün hər kəsi.
Bütün şəhər sanki lap çağlayırdı.
Sevincdən insanlar gah ağlayırdı.
Bir damcı yatmırdı Bakı şəhəri.
Beləcə açırdı hamı səhəri.
Xoş xəbər gəlirdi xəbər dalınca.
Ordumuz yeni kənd, şəhər alınca,
Bayram calanırdı bayrama inan.
Canlı yaşayırdıq sevinci hər an.
Şuşa şəhərinə girdilər gecə.
Döyüşlər gedirdi orda gör necə?

Əsgərlər gəldilər düz üzbəüzə.
Gəlirdi hamısı tamam göz-gözə.
Onlar vuruşurdu tam əlbəyaxa.
Düşmən çəkilirdi lap baxa-baxa.
Şuşanın uğrunda döyüş gedirdi.
Ordumuz hər yandan hücüm edirdi.
Şuşasız qalmışdıq biz düz otuz il.
Burda döyüşürdü indi də Adil.
Yarası hələ heç sağalmamışdı.
Həkimdən izin də o, almamışdı.
Adil gözləmədi qurtara yara.
Deyirdi: düşübdü vətənim dara.
Mənə nə yaraşır yıxılıb yatam?
lazımdır düşməni mən qırıb qatam.
Otuz il yedilər sərvətimizi.
Qarabağa həsrət qoydular bizi.
Artıq gəlib indi qovmaq zamanı.
Düşmənin qalmayıb daha amanı.
Heç kimin yoxuydu gecə-gündüzü.
Torpaq qayıtdıqca gülürdü üzü.
Şuşanı aldılar bircə gecədə.
Hamı sevinirdi , Allah necə də!
Erməni hər şeyi qoyub qaçmışdı.
Hər kəsin üzündə çiçək açmışdı.
Şuşanı igidlər artıq almışdı.
Bütün ev-eşiklər tam boş qalmışdı.
Yoxuydu evlərdə bircə erməni.
Ora valeh etdi onu görəni.

Azərbaycan üzük, Şuşa qaşıdı.
Bütün şəhərlərin Şuşa başıdı.
Açmışdı bizlərə o qucağını.
Əsgərlər gəzirdi künc, bucağını.
İgidlər hərləndi Cıdır düzünü.
Gördülər düşmənin bütün üzünü.
İsa bulağında sudan içdilər.
Şərəfli bir ömür yolu keçdilər.

*****

Firəngiz olmuşdu yaralı çiban.
Xəbər gözləyirdi Adildən hər an.
Nigaran qalırdı oğlundan ana.
Oğlu bir yanaydı, dünya bir yana.
Təsəlli verirdi özü-özünə.
Adil görünürdü hər an gözünə.
Üzülüb yanında qalırdı canı.
Ananın keçmirdi heç həyacanı.
Adildən yoxuydu bir xəbər-ətər.
Firəngiz olmuşdu ölüdən betər.
Gözləri qalmışdı heyy telefonda.
Narahat bir hislər varıydı onda.
Elə heyy yalvardı ana Allaha.
Dözümüm qalmayıb deyirdi daha.
Allahım rəhm etsin bu Firəngizə.
Bir xəbər göndərsin komandir bizə.
Qorxuya düşmüşdü atası Rüstəm.
Adildən bir xəbər gəlmişdi bu dəm.
Dedilər : sağ olsun sizin başınız.

Şəhid olub bizim bu qardaşımız.
Vətənin yolunda gedibdi qurban.
Tabutu gələcək onun bir azdan.
Rüstəmin qulağı sanki kar oldu.
Bütün ümüdləri bir anda soldu.
Yapışıb yerinə ordaca qaldı.
Dünyada ən pis bir xəbəri aldı.
Sifəti ağappaq bir rəng almışdı.
Özünü evinə ölü salmışdı.
Əsirdi kişinin dili, dodağı.
Sanki görməyirdi indi otağı.
Kişini görəndə ana mat qaldı.
Bildi ki, bu kişi bir xəbər aldı.
Topladı ana da indi özünü.
Nəhayət kişiyə dedi sözünü.
Ay kişi, de görüm, nə oldu sənə?
İndi bir düzünü sən söylə mənə.
Rüstəm yazıq-yazıq ona baxırdı.
Gözündən kişinin leysan axırdı.
Ananı elə bil İldırım vurdu.
Gözünün önündə Adili durdu.
Əl atdı saçına qadın bir başa.
Özünü vururdu divara, daşa.
Səs-küyü götürdü bütün hər yanı.
Od tutub yanırdı ananın canı.
Bu səsə gəlirdi eşidən-bilən.
Hamı anlayırdı , var burda ölən.
Rüstəmin evinə şəhid gəlirdi.

Bu xəbər ox olub, ürək dəlirdi.
Eşidib bilənlər qan ağlayırdı.
Gözlərdən sel kimi yaş çağlayırdı.
Ev-eşik tutmurdu gələn adamı.
Kədərə qərq oldu orada hamı.
Səlmi üz-gözündə tutar qoymadı.
Ah-nalə çəkməkdən sanki doymadı.
Parçalandı onun ürəyi hər an.
Ayağa qalxmışdı bu Azərbaycan.
Reyhanın gözündən yaş süzülürdü.
Muncuq tək yanağa tez düzülürdü.
Səs-küy bürümüşdü bütün cahanı.
Yoxuydu, ölmüşdü Reyhanın canı.
Küçədə göründü maşın karvanı.
Adamlar tutmuşdu bütün hər yanı.
Getdikcə artırdı siqnalın səsi.
Ağladırdı bu hal bütün hər kəsi.
Maşınlar həyətə daxil oldular.
Qohum-əqrabalar ora doldular.
Maşından tabutu əsgərlər aldı.
Həyətə ağlaşma, bir şüvən saldı.
Toplaşdı tabutun hamı başına.
Yanaqlar büründü lap göz yaşına.
Tabutu bağrına basmışdı ana.
Ağlayırdı yazıq lap yana-yana.
Bir hərbi qulluqçu başladı sözə,
Rüstəmlə bu anda gəldi göz-gözə.
Söylədi: sağ olsun xalqımın başı.

İtirdik Adil tək igid qardaşı.
Erməni töksə də onun qanını.
Vətənin yolunda qoydu canını.
Xoş sözlər dedilər ona nə qədər.
Hamını bürüdü dərin bir kədər.
Nəhayət gəlmişdi vida zamanı.
Ovuda bilmirdi heç kim ananı.
Oğlumu verməræm dedi Firəngiz.
Adilsiz yaşaya bilmərik ki, biz.
Deyirəm sizlərə sözün düzünü.
Mən görəm balamın gərək üzünü.
Sizlərdən ən böyük budur diləyim.
Yoxsa ki, partlayar mənim ürəyim.
Bu saat siz açın indi tabutu.
Göstərin oğlumu, görüm sübutu.
Ortalıq qarışdı elə bu zaman.
Dedilər icazə vermirlər inan.
Güç ilə tabutu ordan aldılar.
Onu məzarlığa yola saldılar.
İzdiham üz tutdu qəbirsanlığa.
Yox olub getdilər bircə anlığa...

*****

Ananın getmirdi yuxu gözünə.
Ürəyi baxmırdı yenə sözünə.
Bir gün o, Rüstəmin gəldi yanına.
And verdi Adilin əziz canına.
Söylədi Rüstəmə yalvarıram mən.
İndi də gəl yardım eylə mənə sən.

Bu gecə açdıraq biz o qəbiri.
Qalmayıb ananın daha səbiri.
Görməsəm Adilin əgər üzünü,
Sən niyə öldürdün demə özünü?
Qalmayıb bir damcı daha illacım.
Məni məhv edəcək onsuz da acım.
Dərddən bükülmüşdü Rüstəmin beli.
Titrəyirdi onun ayağı, əli.
Nə qədər bu kişi xəyala daldı.
Sonunda bax belə bir qərar aldı.
Firəngiz, bu fikir batdı başıma.
Qıymıram gözündən gələn yaşına.
Bu gecə qəbiri açacam özüm.
Doğurdan oğlumu qoy görsün gözüm.
Bürüyüb bizləri artıq qəm, kədər.
Neynəyək, yazılıb bizə bu qədər.
Ürəyim gəlməyir çıxam sözündən.
Ağlamaqdan oldun sən də gözündən.
Səbirlə gözlədi onlar axşamı.
Artıq evlərinə çəkildi hamı.
Ətrafa boylandı tam bir anlığa,
Üz tutdu hamısı qəbirsanlığa.
Gəlmişdi köməyə qohum, qardaşlar.
Gözdən tökülürdü sel kimi yaşlar.
Nəhayət o gecə açdılar qəbri.
Artıq tükənmişdi hamının səbri.
Ananın yanırdı  sanki kürəyi.
Quş kimi əsirdi zəif ürəyi.

Kəfəni cıranda mat qaldı hamı.
Şok etdi mənzərə bütün adamı.
Kəfəndə varıydı ikicə ayaq.
Qorxuyla baxırdı Firəngiz bayaq.
Hər iki ayaq da sağ ayaqıydı.
Ananın yeri lap düz qabağıydı.
Qışqırdı, ayaqlar oğlumun deyil.
Hiss etdim Adilim sağdı elə bil.
Ananın ürəyi getdi bu zaman.
Yer də ağlayırdı, göy də bax inan.
Rüstəm tez-tələsik ayağa durdu.
Ananın üzünə bir az su vurdu.
Elə ki, su dəydi onun üzünə.
Yavaş-yavaş gəldi ana özünə.
Hönkürə-hönkürə o, ağlayırdı.
Sel kimi gözündən yaş çağlayırdı.
Ana üz-gözündə qoymadı tutar.
Allahım, sən bizi bəladan qurtar.
Düşmənin qurusun görüm tamahı.
Gör nədir bunların axı günahı?
Ay Allah, yox olsun görüm düşməni.
Gör necə yandırdı, yandırdı məni.
Nə olsun ordakı Adilim deyil?
Onlar da balamdır sanki elə bil.
Hamısı mənimdir, mənim balamdır!
Onların yarası mənim yaramdır.
İki sağ ayaqdı, bax bir qəbirdə.
Tikələnib onlar, ay Allah bir də.

Bilinmir kimdir ki, ata, anası?
Xəbəri yoxdur ki, ölüb balası.
Lənətə gəlsin bu yağı düşməni.
Qan ilə bələdi bizim vətəni.
Erməni dağıtdı sərvətimizi.
Həmişə günahkar bildilər bizi.
Hardadır görəsən mənim Adilim?
Allahım, yanıbdı ağzımda dilim.
Bəlkə Adilim də tikələnibdi.
Tikəsi düzlərə səpələnibdi.
Bir qorxu düşübdü mənim canıma.
Zəhər yayılıbdı sanki qanıma.
Allahım, sən qoru bu əsgərləri.
Düşməndən azad et bizim yerləri.
Adilə qıyma gəl, gözəl yaradan.
Bizləri sən qoru belə bəladan.
Oğlumu bəxş elə , Allah özümə.
Nur eylə balamı mənim gözümə.
Gözümün həm ağı, həm qarasıdır.
Adil ürəyimin tən ortasıdır.
Balamsız dar gələr bu həyat mənə.
Yalvarıb deyirəm, Allahım sənə,
Göstərmə, yazığam bala dağını.
İçirtmə gəl mənə sən bu ağını.

*****

Xəbərlər  yayıldı bütün hər yana.
Adildən bir xəbər gəzirdi ana.
Bu işə mat qaldı eşidən, bilən.

Yoxuydu Adili heç gördüm deyən.
Dəstəynən adamlar gəlib-gedirdi.
Hər zaman Adilə dua edirdi.
Yumruq tək birləşib xalq bir olmuşdu.
Bütün insanların səbri dolmuşdu.
Ordunun dalında xalq dayanmışdı.
Qələbə çalmağa çox inanmışdı.
Hər bir kəs orduya yardım edirdi.
Yeməklə, içməklə ora gedirdi.
Beçələr bişirdi, dəmlənirdi aş.
Qazanlar cəbhəyə gedirdi bir baş.
Nənələr təndirə çörək yapırdı.
Lazımlı hər şeyi yığıb, tapırdı.
Onlara siqaret, corab alırdı.
Cəbhəyə gedənlə yola salırdı.
Qadınlar bir yerə yığılırdılar.
Onlara yorğanlar sırıyırdılar.
Gecələr hər tərəf olurdu şaxta.
Əsgər döyüşürdü belə bir vaxtda.
Elə ki, örtürdü onlar yorğanı.
Rahatlıq tapırdı hamının canı.
Yardımlar hər gündə davam edirdi.
Cəbhəyə yardıma hamı gedirdi.

*****

Hər gündə alırdıq şəhid xəbəri.
Matəm bürümüşdü bütün evləri.
Bir də görürdün ki, tamam qəfildən,
İki şəhid gəlirdi bir evə birdən.

Şəhidi dəfn edib qayıdan zaman,
İkinci şəhid də gəlirdi inan.
Bir evin var-yoxu iki övladı,
Bir gündə alırdı şəhidlik adı.
Onları nə günlə böyüdən ana,
Ömürlük qalırdı lap yana-yana.
Çox zaman dözmürdü ana ürəyi.
Yanıb kül olurdu onun kürəyi.
Kəsmirdi onların gözünün yaşı.
Qar kimi olurdu ağappaq başı.
Körpələr bilmirdi olub-keçəni.
Atama aparın deyirdi məni.
Onların heç nədən yoxdu xəbəri.
Atanı gəzirdi hər an gözləri.
Dul qaldı on günün gözəl gəlini.
Sevdiyi adamdan üzdü əlini.
Çoxusu tabutu çiyninə aldı.
Onu son mənzilə o, yola saldı.
Üzüyü xonçada qalanlar vardı.
Onları gözləyən nakam bir yardı.
Çatmadı heç biri  öz muradına.
Şəhidlik yazıldı onun adına.
Hamilə qadınlar yol gözləyirdi.
Hər biri yarını çox özləyirdi.
Qırx dörd gün səs saldı bütün cahana.
Oğulsuz qalmışdı nə qədər ana.
Qələbə sədası gəlirdi hər an.
Toy-bayram olurdu həmin o zaman.

Hər yanda şiddətli döyüş gedirdi.
Ordumuz düşmənə hücum edirdi.
İrəli gedirdi əsgərlər  hər an.
Geri cəkilirdi düşmən anbaan.
Erməni hər şeyi qoyub qaçırdı.
Əsgərlər qapını özü açırdı.
Yeməyə nə desən evlərdə vardı.
Hər tərəf ağappaq şaxtalı qardı.
Yatmağa varıydı döşək və yorğan.
Heç yerə sığmırdı sevinclər o an.
İsti otaqlarda onlar yatırdı.
Yuxusuz olmağın daşın atırdı.
Özləri təndirə çörək yapırdı.
Yeməyə ləzzətli ərzaq tapırdı.
Hər yandan gəlirdi kabab qoxysu.
Biş-düşü bilirdi onun çoxusu.
Samavar qaynayır, çay dəmlənirdi.
İgidlər olduqca çox şənlənirdi.
Əsgərlər oxuyur, gah da çalırdı.
Bu işdən hamısı ləzzət alırdı.
Kimisi qol-qola yallı gedirdi.
Kimi Paşinyana rişxənd edirdi.

*****

Aradan keçmişdi xeyli bir zaman.
Xəbər gözləyirdi Firəngiz hər an.
Ananın qalmışdı qulağı səsdə.
Bir ümüd yoxuydu ancaq heç kəsdə.
Hər kimsə ananı gördüyü andan,

Ümüd verirdilər ona yalandan.
Adildən əlini hamı üzmüşdü.
Qurbanlıq qoyunu ana düzmüşdü.
Gözləri qalmışdı ananın yolda.
Əgər quş tərpənsə bir dənə kolda,
Məhəl qoymayırdı o, bir kişiyə.
Özünü atırdı tezcə eşiyə.
Deyirdi bilirəm, ölməyib Adil.
Sanki gələcəkdi bu an elə bil.
Qurumaq bilmədi Rüstəmin yaşı.
Düz bircə gecədə ağardı başı.
Hər gündə nə qədər şəhid gəlirdi.
Xəbərlər ox olub ürək dəlirdi.
Ağlaşma səsləri göyə qalxırdı.
Gözlərdən sel kimi yaşlar axırdı.
Bir yandan torpaqlar azad olurdu.
Qələbə sevinci qəlbə dolurdu.
İti qovan kimi düşmən qovuldu.
Kor olmuş gözləri tamam ovuldu.
Ovdular düşmənin kor gözlərini.
Qonşuya soxmasın heç özlərini.
Ordumuz dünyaya gözəl səs saldı.
Düşməndən torpağı geriyə aldı.
İgidlər qanıyla tarix yazdılar.
Düşmənə ömürlük qəbir qazdılar.
Qırx dörd gün bəs etdi qovmağa onu.
Artıq döyüşlərin gəlmişdi sonu.
O gecə yummadı kimsə gözünü.

Çox xoşbəxt bilirdi hamı özünü.
Qələbə bizimdir, bizim də oldu!
O gecə meydanlar adamla doldu.
Yoxuydu sevincin həddi-hüdudu.
Tarixə yazılan qələbə budu!

*****

Ordunun dalında xalq dayanmışdı.
Ölkə başçısına çox inanmışdı.
Prezident xalqının önündə durdu.
Tatixə özünün möhrünü vurdu.
İti qovan kimi düşməni qovdu.
Onları ovcunda un kimi ovdu.
Xaricdən hər cürə silah almışdı.
Düşmənin kürkünə birə salmışdı.
Bütün torpaqları geriyə aldı.
Bununla özünü tarixə saldı.
İlhamdan alırdı xalqı ilhamı.
Ona güvənirdi milləti, hamı.
Düşməni susdurdu cəsarətiylə.
Aldı torpaqları fəsarətiylə.
Ordumuz alanda kəndi, şəhəri.
Xalqıyla açırdı birgə səhəri.
Döyüşlər başlayan həmin o andan,
Müjdələr verirdi xalqa ekrandan.
Ekranın önünə gəlirdi hamı.
Onlar gözləyirdi cənab İlhamı.
Prezident ekranda görünən andan,
Ayrıla bilmirdi kimsə ekrandan.

Sanki almayirdı bir adam nəfəs.
Uşaqdan böyüyə dinlərdi hər kəs.
Prezident hamıya qonaq olurdu.
Sevinci ekrandan evə dolurdu.
Xalqıyla ağlayıb, xalqla gülürdü.
Kədəri, sevinci birgə bölürdü.
Yoxuydu heç onun gecə, gündüzü.
Yuxu da görmürdü bəlkə də gözü.
Verdiyi sözlərə əməl etmişdi.
Hər zaman ağlıyla önə getmişdi.
Var onun çox gözəl, düz siyasəti.
Fikrindən dönməyir heç zaman qəti.

*****

Xoş xəbər yayıldı bütün cahana.
Qırx dörd gün bəs etdi Azərbaycana.
Erməni bizlərdən dərsini aldı.
Qələbə gününü tarixə saldı.
Bu günü yaşadıq biz canlı-canlı.
Dəfn etdik şəhidi şöhrətli, şanlı.
Bu hissi biləcək ancaq yaşayan.
Xoşbəxtdir qəlbində bunu daşıyan.
Paşinyan girmişdi sanki deşiyə.
Çıxmırdı utancdan bir an eşiyə.
Ayağa qalxmışdı bütün Yerevan.
Dedilər istefa versin Paşinyan.
Dünyamız dönmüşdü sanki dənizə.
Həsəd aparırdı insanlar bizə.
Dəniz tək bu dünya çalxalanırdı.

Erməni ruslara arxalanırdı.
Ruslar bu işlərdən çəkdi əlini.
Mənfur erməninin qırdı belini.
Erməni qalmışdı arxasız, düzdə.
Yoxuydu bir qram ar-ayıb üzdə.
Hər yana səs salıb bağırırdılar.
Dünyanı köməyə çağırırdılar.
Hamıya üz tutub dedi yalandan.
Qarabağ bizimdi dədə-babadan.
Yalan ayaq tutar, ancaq yeriməz.
Düşmənin dilini heç kimsə bilməz.
Çoxuydu yaralı əsgərlərimiz.
Onlarla hər zaman fəxr edirik biz.

*****

Firəngiz dönmüşdü sanki yumağa.
Başlayırdı hər an o, ağlamağa.
Hər yerdən kəsildi onun əlacı.
Onu öldürürdü aldığı acı.
Hər an o, oğlunu mütləq anırdı.
Odların içində sanki yanırdı.
Hərbi komisarlıq oldu su yolu.
Rüstəmin yanına düşdü əl-qolu.
Sinəsi dərdlərə olmuşdu sipər.
Oğlundan yoxuydu  cünki bir xəbər.
Firəngiz bələndi qəmə, kədərə.
Cəhdləri çıxırdı gündə hədərə.
Bir axşam oturdu yenə divanda.
Xəbərlər gedirdi o an ekranda.

Dərin xəyallara dalmışdı ana.
Ağlayırdı yenə lap yana -yana.
Ekranda gözünə göründü Adil.
Şoka düşdü ana birdən elə bil.
Ekrana zillənib qalmışdı gözü.
O anda qışqırıb, ağladı özü.
Hamı tez yığıldı ekran başına.
Tələsik o, dedi öz yoldaşına.
Bacara bilmirəm özüm-özümlə.
Adili mən gödüm indi  gözümlə.
Ay Allah, ağzımda yanacaq dilim.
Heç kimi tanımır dedi Adilim.
İtiribdi balam hafizəsini.
Çıxartmır bir damcı deyir səsini.
Şükürlər olsun qoy, Allahım sənə.
Oğlumu qaytardın yenə də mənə.
Eybi yox , balama  baxaram özüm.
Anayam ,var məndə hər dərdə dözüm.
Aləm qarışmışdı biri-birinə.
Bir sevinc gəlmişdi indi evinə.
Ana gah gülürdü, gah ağlayırdı.
Sanki ürəyinə daş bağlayırdı.
Rüstəmi elə bil şaxta vurmuşdu.
Olduğu yerdəcə donub durmuşdu.
Key kimi baxırdı ordan hər yana.
Onu silkələdi qəfildən ana.
Ay Rüstəm, indi gəl bir az özünə.
Qulaq as bu saat mənim sözümə.

Key kimi dayanıb gəl baxma mənə.
Maşını işə sal deyirəm sənə.
Sən çatdır bu saat Adilə məni.
Topal olsun görüm, Allah erməni.
Elə bil yatmışdı, ayıldı kişi.
İndi dərk edirdi sanki bu işi.
Firəngiz, düzünü deyəcəm sənə.
İnana bilmirəm olub keçənə.
Bəlkə səhv görübdü , ay arvad gözün.
Bir yaxşı fikirləş əvvəlcə özün.
Deyirəm, bilməzsən pozular başın.
Aləmə dağılıb tökülən yaşın.
Bəlkə sən yalandan xəyal edirsən?
Dəqiq şey yoxdu ki, hara gedirsən?
Səs-küyə  tökülüb gəlirdi hamı.
Saymaq olmayırdı evdə adamı.
İnsanlar üz tutdu xəstəxanaya.
Heç çata bilmirdi heç kəs anaya.
Ana başlamışdı sanki qaçmağa.
Qanadı yoxuydu onun uçmağa.
Günlərdir komada qalıbmış Adil.
Danışa bilmirmiş, sanki yoxdu dil.
Oğlunu görməyə o, tələsirdi.
Nanə tək ürəyi tez-tez əsirdi.
Ananı saxlaya bilmirdi heç kəs.
Çatmırdı elə bil anada nəfəs.
Elə ki, o, çatdı həmin otağa.
Bir anda özünü atdı yatağa.

Eləcə Adilin köksü atırdı.
Dünyadan xəbərsiz Adil yatırdı.
Oğlunu bağrına basmışdı ana.
Ağlayırdı indi o, yana-yana.
Oğlunun əlindən tutmuşdu  Rüstəm.
Möcüzə baş verdi elə bil bu dəm.
Qəfildən bu igid açdı gözünü.
Firəngiz çox xoşbəxt bildi özünü.
Adilin gözündən tökülürdü yaş.
Özünə gəlirdi o, yavaş -yavaş.
Aləm qarışmışdı otaqda indi.
Eşidən -bilənlər bol-bol sevindi.
Sevincdən gözyaşı tökürdü Reyhan.
Nə göyə, nə yerə sığırdı bu an...

*****

Adil şam olmuşdu, ana pərvanə.
Oğluyçün olurdu dəli-divanə.
Adilin yanında dururdu hər an.
Onu tək qoymurdu həmi də Reyhan.
Özünə gəlirdi günbəgün Adil.
Nağıl tək olmuşdu hər şey elə bil.
Adilin gözləri nələr görmüşdü.
Yanında dostların çoxu ölmüşdü.
Bəzisi itirdi görən gözünü.
Deyə bilməyirdi kimi sözünü.
Çünki tutulurdu onların dili.
Kimi qorxusundan olurdu dəli.
Baxırdı kiminin yoxuydu əli.

Ayaqsız igidlər varıydı, bəli.
Kiminin tikəsi gəlmirdi ələ.
Adil görməmişdi heç kimi belə.
Hər yana dəhşətlə, qəmlə baxırdı.
Orda su yerinə qanlar axırdı.
Bu dünya yerindən sanki qopurdu.
Su kimi axan qan yerə hopurdu.
Artıq müharibə çatmışdı başa.
Nə qədər igidlər dönmüşdü daşa.
Qələbə bizimdir, biz qazanmışıq!
İlham Əliyevə çox inanmışıq.
Qırx dörd gün həkk oldu tam yaddaşlara.
Dərs oldu erməni o, külbaşlara.
Düşməndən aldıq biz bax Qarabağı.
Azad eyləmişik tamam torpağı.
Hər şeyi qohumlar düz anladılar.
Reyhanla Adili nişanladılar.
Kəsmişdi düşmənin tamam davası.
Hər yerdən gəlirdi bayram havası.
Şəhərə çıxmışdı Adillə Reyhan.
Fişəng partlayırdı hər yanda bu an.
Onlar məhəbbətlə boylanırdılar.
Gözəl gələcəyə inanırdılar....

# Şeirlər

## ALİ BAŞ KOMANDAN DEYİR!

Ali baş komandan deyir irəli!
Biz azad eyləyək bütün yerləri.
Var bizim ordumuz, əsgərlərimiz.
Onlarla fəxr edir bütün cümləmiz.

Erməni düşübdü indi zillətə.
Çox əzab verdilər bizim millətə.
Qarabağ bizimdir! Söyləyir nida!
Düşmən Qarabağa desin  əlvida.

Qanıyla tarixi yazan əsgərlər.
Göstərdi nə qədər şücaət, hünər!
Vətənin yolunda onlar verdi can.
Onlarla fəxr edir nə qədər insan!

Erməni düşübdü indi zillətə.
Hay çəkib söyləyir bütün millətə,
Mənim torpağımda davalar gedir.
Bu İlham Əliyev təcavüz edir.

Ölmək istəmirsə əgər erməni,
Təcili tərk etsin bizim vətəni.
Onların yerində yoxdur gözümüz.
Biz düşmən qovuruq ancaq özümüz!

## ARƏSTƏ!

Hərbi tibb işçisi, gözəl Arəstə!
Səndə olan hünər yoxdu heç kəsdə.
Azəri yurdunun qızı, gəlini.
Kişi tək qoruyur indi elini.

O, fəda eylədi orda canını.
Yaralı uğrunda tökdü qanını.
Kişi tək qorudu o, vətənini.
Bayraqdan biçdirdi öz kəfənini.

Elimin, obamın gözəl qadını!
Tarixə şəhid tək yazdı adını.
Ağ xalat yerinə geyindi kəfən.
Heç zaman unutmaz onu bu vətən!

Torpağı uğrunda canından keçən,
Şərəfli bu döyüş yolunu seçən,
Azəri yurdunun məğrur qadını,
Qəlblərə yazdırdı gözəl adını.

Bu dünya durduqca yaşayacaqsan!
Şəhidlik adını daşıyacaqsan!
Qələbə bizimdir gözəl Arəstə!
İnam var bu işə bizdə hər kəsdə.

## ATAN ÖLMƏYİBDI, ŞƏHİD OLUBDU

Bir körpə görmüşəm məzar başında.
Dil töküb ağlayır o, bu yaşında.
Elə bil dəniz tək birdən çağlayır.
Birdən də coşaraq bərkdən ağlayır.

Anası dayanıb seyr edir onu.
Geyinib əyninə qapqara donu.
Ürəyi çırpınıb eyləyir üsyan.
Hönkürüb körpəyə qoşulur bu an.

O, sənin yolunda qoydu canını.
Yerlərlə bir etdi düşmən qanını.
O, səni tək qoyub getməzdi inan.
Bilir ki, yanında var sənin anan.

Mən sənə anayam, həm də ki, ata.
Qoymaram əlinə bir tikan bata.
Atan ölməyibdir, şəhid olubdur.
O, bütün qəlblərə sanki dolubdur.

Sən küsüb, incimə heç vaxt atandan.
Səninlə birgədir ürəyi bu an!
Fəxr elə atanla, qoruyub bizi.
Qoruyub həmi də vətənimizi!

## ATANDANMI QALIB SƏNƏ?

Dözməyir ürəyim, eyləyir fəryad.
Erməni əlindən çəkir necə dad?
Salmışıq  dünyaya indi hay-haray.
Erməni bizlərdən yenə umur pay.

İllərdir soxulur bizim torpağa.
Düşmənim dolubdu düz Qarabağa.
Dişində torpaqdan şirə qalıbdı.
Dünyaya yalandan haray salıbdı.

Təcavüz etdiyi getməyir hələ,
Hamıya deyir ki, bir kömək elə.
Özünə sən çaldır bayağı hava.
Sonra da yalandan gəl eylə dava.

Var sənin başında bir qan çanağı.
Bu qanla sulama bizim torpağı.
Bir daha soxulma bizim vətənə.
Atandan torpaqmı qalıbdı sənə?

## AY ATA, QAYIT GERİYƏ!

*(şəhidin qızının dilindən)*

Ay ata, sən nədən tez döndün daşa?
Qıymazdın gözümdən tökülən yaşa.
Gözlərim dönübdü indi bulağa.
Anamı tək qoyub getdin uzağa.

Anamla verərik indi baş-başa.
Səni istəyəndə baxarıq daşa.
Mən daşı neynirəm, lazımsan özün!
Fikrimdən çıxmayır söhbətin, sözün.

Ürəyim istəyir o, gözlərini.
Eşidə biləydim kaş sözlərini.
Nə olar, şəhidim, qayıt geriyə.
Yoxluğun bir anda kaş ki, əriyə.

Hey səni axtarır anam, qardaşım.
Bax onda sel olur mənim göz yaşım.
Sənsizlik çox üzür, şəhidim məni.
Ürəyim su kimi istəyir səni.

## AZ QALIB LAÇINA

Çatmışıq Laçına lap az qalıbdı.
Erməni dünyaya haray salıbdı.
Əzimlə irəli gedir əsgərlər.
Bombaya bələnib bütün hər yerlər.

Düşmənlər hər yerdə pusqular  qurur.
Onların başında Paşinyan durur.
Olduqca murdardır vəhşi erməni.
İşğal eyləyibdi bizim vətəni.

Qələbə bizimdir, buna az qalıb.
Ordumuz hər yerə səs-səda salıb.
Az qalıb duyulur qələbə səsi.
Sevincə bürüyür bu səs hər kəsi.

Qələbə bizimdir, bizim olacaq!
Bu sevinc bizlərdə evə dolacaq.
Rədd olsun yurdumdan , mənfur erməni!
Tərk etsin bir yolluq bizim vətəni.

## AZ QALIBDI!

Qırx dolanıb gəldi başa.
İgidlərim döndü daşa.
Hava bulud, yağış yağır.
İstəyirsən çığır, bağır.

Səs vermirlər səsimizə.
Daşdan baxır onlar bizə.
Gözlərində vardır kədər.
Yazılıbdır belə qədər.

Yer də, göy də qan ağlayır.
Göz yaşları lap çağlayır.
Rahat yatın şəhidlərim!
Qoy kor olsun düşmənlərim.

Yerdə qalmaz heç qanınız!
Rahat olun siz hamınız!
Az qalıbdı o günlərə.
Müjdə olar şəhidlərə.

## AZƏRBAYCAN!

Aləmə yayılıb şöhrəti-şanı.
Bu dünya tanıyır Azərbaycanı.
Dünyaya səs salıb buz bulaqları.
Məhşurdur hər yanda göy yaylaqları.

Üç rəngli bayrağı zirvələrdədir.
Şöhrəti yayılıb hər yerlərdədir.
Yetirib nə qədər igid, qəhrəman.
Onlarla fəxr edir bu Azərbaycan!

Dillərdə dastandı Azərbaycanım.
Qurbandır vətənə öz şirin canım.
Dağ çəkir düşmənə, verməyir aman.
Zəfərlə tanınır can Azərbaycan.

Qələbə bizimdir, zəfər bizimdir!
Məni dik saxlayan polad dizimdir.
Ürəyim su içir bu qələbədən.
Duyuram hər şeyi mən əvvəlcədən.

Dillərdə olacaq yenə də dastan!
Addımla irəli , ey Azərbaycan!
Fəxrlə deyir ki, prezident hər an,
Qarabağ özüdür bu Azərbaycan!

## BAĞIŞLA ŞƏHİDİM!

Bağışla qardaşım, bağışla məni.
Günlərdir görmürəm axı mən səni.
Həmişə yumanda bir an gözümü.
Təsəvvür etmirəm sənsiz özümü.

Gözlərim önünə gəlirsən yenə.
Bilsəydin nə qədər sözüm var sənə?
Günahkar bilirəm özümü qardaş.
Kaş sənin yerinə mən olaydım daş.

Bağışla şəhidim, bağışla məni.
O soyuq məzarda tək qoydum səni.
Biz söhbət edərdik çox şirin-şirin.
Yediyim olubdu indi qan- irin.

Möhtacam mən sənin bircə sözünə.
Həsrətəm şəhidim, təkcə özünə.
Bivəfa dünyada bağışla məni.
Qaranlıq məzarda tək qoydum səni.

## BAŞIN SAĞ OLSUN, VƏTƏN!

Ey şəhid anası, şəhid bacısı!
Ağırdır bu gün ki, dərdin acısı.
Qoy başın sağ olsun, ey ana vətən!
İgidlər yol verməz, basılasan sən.

Başını dik tut sən, gözəl vətənim!
Lənətə gəlsin o, yağı düşmənim.
Şəhidlik adını alan igidlər!
Ömürlük tarixdə qalan igidlər!

Heç zaman unutmaz sizi bu vətən.
Bu vətən yolunda qan tökmüsən sən.
Allahım, sən qoru bu igidləri!
Kor olsun düşmənin görən gözləri.

Ey igid oğullar, möhkəm dayanın!
Sizinlə fəxr edir dünya inanın.
İgid Tovuz elim , halaldı sizə!
Qürur hislərini yaşatdız bizə.

Silahsız üz tutdu hamı sərhədə.
Erməni gətirdi sizi bu həddə.
Yumruq tək birləşib Tovuzda hamı.
İlhama gətirir bu da adamı.

Şəhidlər vermişik, ağlayırıq qan.
Ayağa qalxıbdı bu Azərbaycan.
Siz məğrur dayanın, ey əsgərlərim!
Başınız üstədir qurani-kərim.

Allahim qorusun hər an sizləri.
Sınağa çəkməsin sizlə bizləri.
Sizinlə bir olsun sizi yaradan!
Qorusun sizləri xəta-baladan.

## BAYRAQ!

Elimdir, obamdır bu Azərbaycan!
Vermişik həmişə yolunda qurban.
Var bizim üç rəngli bir bayrağımız.
Yüksəkdə saxlayaq onu hamımız.

Bayraq şərəfimiz, qürurumuzdur.
Zəfər çaldığımız, uğurumuzdur.
Bayrağa fədadır bizim canımız.
Bayrağa çilənir qızıl qanımız.

Uğrunda tökülür şəhidin qanı.
Öləndə bayrağa bükülür canı.
Bayraq xalğımızın öz mənliyidir.
Hamının sevinci, həm şənliyidir.

Bayraq xalqımızın hakimliyidir.
Bir- bir hamımızın o kimliyidir.
Mavi səmalarda hey dalğalansın.
Həmişə bayraqdan xalq ilham alsın.

## BƏHRAM!

Ey Tovuz elinin gözəl həkimi!
Naümüd qoymadın heç vaxt heç kimi!
İşinlə göstərdin xalqa özünü.
Bütün millətinə dedin sözünü.

Ağlını dəryadan götürən Bəhram!
Sən bu tibb elminı eyləmisən ram.
Qoşuldun həkim tək gözəl dəstəyə.
Sən ömür bəxş etdin hər bir xəstəyə.

Bizim vətən bu gün yaman dardadır.
Yaralı hardasa Bəhram ordadır!
Cərrah bıçağıyla döyüşür həkim.
Önündə durammaz Bəhramın heç kim.

Ürəyi tər-təmiz sanki aynadır.
Cərrah bıçağını göydə oynadır.
Həmin o ürək ki, sevir hər kəsi.
Həmişə sinəndə qoy gəlsin səsi!

Nə qədər mehriban, isti qanlısan!
Ağıllı, kamallı, qohum canlısan.
Xoş günlər bəxş etsin Allahım sənə!
Həmişə xoş sədan yetişsin mənə!

## BƏRDƏ!

Elimin, obamın dilbər güşəsi.
Göylərə qalxırdı kefi, nəşəsi.
O dilbər güşəsi olan bu Bərdə,
İndi məruz qalıb yaralı dərdə.

Yüksəlir göylərə ağlaşma səsi.
Kədərə bürüyür bütün hər kəsi.
Yağışın yerinə bombalar yağır.
Bu yağış olduqca ağırdan ağır.

Göylərdə uçuşur körpə tikəsi.
Yandırır -yandırır bu da hər kəsi.
Ata sinəsinə basır cəsədi.
Ananın kəsilir bütün əhədi.

Nə qədər ağırdır həmin mənzərə.
İnsanlar gəldilər sanki nəzərə.
Cəncə bir yandadır, Bərdə bir yanda.
Sabaha qalmayıb ümüd insanda.

Mərmilər uçuşur, məhv olur insan.
Ev- eşik olubdu, yer ilə yeksan.
Hər gündə çoxalır yetimin sayı.
Yetimlik olubdu körpənin payı.

Susmasın insanlar, qalxsın ayağa.
Söykənsin xalq kimi möhkəm dayağa.
Şəhidsiz vətən də olmayır vətən!
Rədd olsun yerinə bu yağı düşmən!

## BOŞALDIN KƏLBƏCƏRİ!

Mən bilmirəm, erməni,
Tanımırmı vətəni?
Aç sən bir xəritəni.
Bezdirmə gəl yetəni.

Çək qonşudan əlini.
Qarnına qoy dilini.
Görmürsənmi, erməni?
Məhv eləmişik səni!

Ay allahın bəndəsi!
Yordun bütün hər kəsi.
Yığ gözünü özünə.
Önəm ver bir sözünə.

Uzatma heç bu vaxtı.
Burax sən bizim taxtı.
Ay erməni, bunu bil.
Qarabağ sənın deyil!

Yığ yükünü belinə.
Cəhənnəm ol elinə.
Dünyanın eybəcəri!
Boşaldın Kəlbəcəri.

## BULUDLAR AĞLAYIRDI

İgiddi yurdumun hər bir övladı.
Onlardan birinin Sübhandı adı.
Bu igid durnanı gözündən vurdu.
Gözəl bir xanımla ailə qurdu.

Aradan keçmişdi azca bir zaman.
Düşmən hücum etdi bizə hər yandan.
Dözmədi Subhanın gözəl ürəyi.
Vətənə lazımdı onun köməyi.

Üz tutdu cəbhəyə , yollandı Sübhan.
Hamilə qalmışdı gəlin o zaman.
İgid ordumuzda xidmət edirdi.
Düşmənlə dəhşətli döyüş gedirdi.

Vətənə o, qurban etdi canını.
Su kimi axıtdı yerə qanını.
Hər yerə yayıldı şəhid xəbəri.
Bu xəbər dolandı bütün yerləri.

Yıxıldı gəlinin bütün dünyası.
Qapqara geyindi eli-obası.
Nəhayət yetişdi doğum zamanı.
Ovuda bilmirdi heç nə ananı.

Bir qızı gəlmişdi onun dünyaya.
Bənzəyirdi uşaq eynən anaya.
Sübhanın yoxluğu üzdü ananı.
Artıq tərk edirdi xəstəxananı.

Gözündən leysan tək tökülürdü yaş.
Uşağı bağrına basdı o, bir baş.
Başını göylərə qaldırdı birdən.
Cənnətə səsləndi sanki qəfildən.

Bizi duyursansa əgər, Sübhanım!
Ağlat buludları mən də inanım.
Onda bilərəm ki, görürsən bizi.
Ordan qoruyursan ailəmizi.

Uşağı götürüb o, çıxdı çölə.
Təccübdən az qaldı ordaca ölə.
Göydən leysan kimi yağış yağırdı.
Mənzərə olduqca orda ağırdı.
Bulud da onunla bir ağlayırdı.
Hamının gözündən yaş çağlayırdı...

## BÜTÜN ƏSGƏRLƏRİN ANASIYAM MƏN!

Qoy rahat uyusun mənim Poladım.
General anası qalıbdı adım.
Əsgərə balamdır deyirdi mənim!.
Düşməndən qoy azad olsun vətənim.

Tək Polad anası deyiləm ki, mən.
Rədd olsun yurdumdan bu yağı düşmən.
Eşitsin bu dunya, qoy bilsin vətən!
Bütün əsgərlərin anasıyam mən!

Mənim xeyir duam sizlədir hər an.
Sizinlə fəxr edir bu Azərbaycan.
General balamın mərd əsgərləri!
Üstünüzdə olsun tanrı əlləri.

Var olsun qoy bizim Ali Komandan.
Onun ətrafında birləşin hər an.
Ordunun önündə baş əyirəm mən!
Şəhidlər ölməzdir, bölünməz vətən.

Qələbə müjdəsi söyləyin bizə.
Minnətdar olarıq ömürlük sizə!
Poladın arzusu onda o zaman,
Yerinə yetəcək bilirəm inan!

## CAVİD HÜSEYNOV

Odlar diyarıdır Azərbaycanım!
Tovuzda doğulub bu qəhrəmanım.
Alakol kəndində açıb gözünü.
Hüseynov Cavid tək deyib sözünü.

Dadmayıb bir dənə bala dadını.
Qanıyla tarixə yazıb adını.
Vətənə bağlıydı Cavidin canı.
Azadlıq uğrunda coşurdu qanı.

Snayperçi düşməni vurdu gözündən.
Vətəni çox sevdi hər an özündən.
Zəfər tarixini yazan qəhrəman.
Döyüşdə düşmənə uddururdu qan.

Kəlbəcər uğrunda döyüş zamanı.
Bir anda kəsildi onun amanı.
Həmin bu döyüşdə o, şəhid oldu.
Nə qədər qəlpələr canına doldu.

Düşmənin gülləsi Cavidi aldı.
Adını ömürlük tarixə saldı.
Sən nurlar içində yat, ey qəhrəman.
Medallar verməyə, yazıldı fərman.

Olmadı heç zaman bundan xəbərin.
Əbədi yumuldu çünki, gözlərin.
Şəhidlər ölməzdir, vətən bölünməz!
Heç zaman yaddaşdan onlar silinməz!

## CƏBRAYIL!

Dünyaya gəlmişdi igid bir oğlan.
Düşmənə döyüşdə uddururdu qan.
On doqquz yaşında olan Cəbrayıl!
Olmuşdu düşmənə özü əzrayıl.

Döyüşdə düşmənlə gəldi üz-üzə.
Düşmənin qanını dağıtdı düzə.
Yapışdı düşmənin düz boğazından.
Gözlədi, son nəfəs çıxsın ağzından.

Onlar döyüşürdü tam əlbəyaxa.
Düşməni boğurdu o, baxa-baxa.
Çıxdı erməninin düz sinəsinə.
Xırıltı salmışdı onun səsinə.

Nəhayət məhv etdi o, generalı.
Palkovnik varıydı bir az aralı.
Sonuncu gülləni sıxdı düşmənə.
Düşmənin üstünə atıldı yenə.

Əsgər dostlarına söylədi oğlan,
Geriyə dönün siz igidlər bu an.
Evdə gözləyirlər sizi körpələr.
Qıymaram, onlara yetim deyərlər.

Susdurram onları inanın özüm!
"Geriyə dönündür"sizlərə sözüm.
Sonadək vuruşdu bizim qəhrəman.
Düşməni eylədi yer ilə yeksan.

Sonunda  güllələr dəydi canına.
Cəbrayıl bələndi qızıl qanına.
Nəhayət şəhidlik adını aldı.
Milli qəhrəman tək tarixdə qaldı.

Poladla birlikdə uyuyur bu an!.
Məkanı olubdu Fəxri Xiyaban.
Müjdələr gətirdi o, Poladına.
Layiqli əsgərdir onun adına.

## DAŞQINLA FATİMƏ!

Allahım, biz susaq, foto danışsın.
Dünya dərdimizdən yansın, alışsın.
Nəyəsə lazımmı burda izzahat?
Fotoda görünür hər şey çox rahat.

Bir ilin gəlini, bir ilin bəyi!
Onlar bir-birinin oldu ürəyi.
Şəhid Naxcıvanlı Daşqın özüdü.
Gözəl Fatimənin görən gözüdü.

Onun ürəyini qopardı  Daşqın.
Özüylə cənnətə apardı Daşqın.
Tabutu çiyninə qaldırdı gəlin.
Hamını yandırdı, yandırdı gəlin.

Ürəyi köksündə vurmurdu onun.
Əlləri yanında durmurdu onun.
Tabutdan yapışıb tutdu ürəyi.
Çiynində aparmaq oldu gərəyi.

Rahat yer çiynini bilirdi gəlin.
İstəyərdi tutsun Daşqının əlin.
Yaradan yazmışdı ancaq qədəri.
Erməni vermişdi ona kədəri.

## QANLI YANVAR!

Getsin qoy gəlməsin iyirmi yanvar.
Şəhərə dolmuşdu sanki canavar.
Qaranlıq bir gecə uyuyur şəhər.
Az qalıb bir azdan açılar səhər.

Gurultu səsləri doldu hər yana.
Vahimə düşmüşdü gecə lap cana.
Rusların ordusu girdi şəhərə.
İnsanlar boğuldu tamam qəhərə.

Şəhərə tanklardan atəş açıldı.
Güllələr hər yana uçub saçıldı.
Heç kim gözləmirdi belə bir anı.
Güllədən yanırdı hamının canı.

Bakının əcəli gəldi o gecə.
Silahsız insanlar ölürdü necə?
Hər yerdən gəlirdi qışqırıq səsi.
Tapa bilməyirdi heç kim heç kəsi.

Ordu insanları qırıb keçirdi.
Hamının qanını sanki içirdi.
Elə bil axırdı su yerinə qan.
Nə qədər günahsız orda verdi can.

Atəş bürümüşdü bütün şəhəri.
Heç kim gözləmirdi belə səhəri.
Qaranlıq çəkildi, açıldı səhər.
Hər yeri bürüdü qəmli bir kədər.

Maşınlar əzilmiş, evlər yanmışdı.
Bakını bu günə ruslar salmışdı.
Göylərə qalxırdı insan fəryadı.
Qanlı yanvar oldu o günün adı.

## ƏLİ VƏ İSLAM!

Varıydı bir evdə bir gözəl ana!
Sığmırdı qüruru onun cahana.
Gətirdi dünyaya o, bir cüt oğlan.
Nəfəsi onlarla alırdı hər an.

Ana tək böyütdü iki oğlanı.
Onlara bağlıydı ananın canı.
Atası getmişdi çoxdan rəhmətə.
Ana qatlanmışdı hər əziyyətə.

Birisi Əliydi, biri də İslam!
Varıydı onlarda sabaha inam.
Vətənin səsinə onlar verdi səs.
Rəşadət göstərdi döyüşdə hər kəs.

Qardaşlar çiçək tək birdən soldular.
İkisi bir gündə şəhid oldular.
Qarabağ  yolunda getdilər qurban.
Üçünə qalmadı bu ana inan.

Dözmədi bu dərdə ana ürəyi.
Çatladı, dağıldı onun kürəyi.
Bütün göz yaşları dönmüşdü selə.
Bir evin qapısı bağlandı belə.

## ELİMİN İGİD VÜQARI!

Vətənin yolunda can qoydu Vüqar.
Yaxşı ki, dünyada belə igid var.
Eyy gözəl elimin igid Vüqarı!
Evin tək övladı, dövləti, varı!

Düşmənə tuş gəldi onun ürəyi.
Məhv oldu ananın bütün əməyi.
Hamıya gətirdi gizir qəm, kədər.
Yaradan vermişdi ömrü bu qədər.

Varıydı ömründə otuz üç bahar.
Şəhidlik zirvəsi almışdı Vüqar.
Otuz üç baharı qışa dönmüşdü.
Gizirin həyatı artıq sönmüşdü.

İndi üç uşağı atasız qaldı.
Vüqarı torpağı qoynuna aldı.
Dünyaya gəlişin budur qaydası,
Tək ana calardı ana laylası.

İndi köç etmişdi, o, vermişdi can.
Laylanı çalırdı bu Azərbaycan.
Unutmaz şəhidi bizim dünyamız.
Ruhunun önündə baş əyirik biz!

## ELİMİN, OBAMIN İGİD ƏSGƏRİ!

Hərəsi bir igid, bir qəhrəmandı.
Vətəni qoruyan igid oğlandı.
Onlar azad edir bütün yerləri.
Elimin, obamın igid əsgəri!

Vətəni uğrunda keçirlər candan.
Tarixi yazırlar qızıl tək qandan.
Gedirlər qoxmadan hər an irəli.
Elimin, obamın igid əsgəri!

Düşmənə vermirlər bir an da aman.
Fəxr edir onlarla bütün hər insan.
Əzimlə qoruyur hər bir səngəri.
Elimin, obamın igid əsgəri!

Yumruq tək birləşib bizim xalqımız.
Qoruyur vətəni qızıl ordumuz.
Dayanıb tətikdə hər an əlləri,
Elimin, obamın  igid əsgəri!

## ƏLLİ GÜN!

Mən fikir edirəm özüm-özümə.
Sanki bəy otağın dəydi gözümə.
Sən mənsiz evlənib bir ev qurmusan.
Şəklini divara, başa vurmusan.

Güllərlə bəzənib sənin məkanın.
Torpağın altında qalıbdı canın.
Nigaran qalmışam, ay oğul səndən.
Yoxsa incimisən, küsmüsən məndən?

Düz əlli gündür ki, aralanmısan.
Özünə güllü bir məkan almısan.
Gələydin ay oğul, sən evimizə.
Xoşbəxtlik verərdin hər birimizə.

Evdə bəzəyərdim öz otağını.
Atlasdan salardım tez yatağını.
Toy edib, qapıda mağar qurardım.
Mağarın önündə özüm durardım.

Alardım oğluma gözəl bir canan.
Qolunu qaldırıb süzərdi anan.
Sən nədən girmisən qara torpağa?
Uzandın buz kimi soyuq yatağa.

O güllər, çiçəklər aldatdı səni.
Nə qədər yandırdı, ağlatdı məni.
Məzarla dəyişdin sən otağını.
Güllərdən düzəltdin öz yatağını.

## ELŞADDI İGİDİN ADI!

Ey Tovuz yurdunun igid övladı!
Vuruşda sən aldın şəhidlik adı.
Ücaldın ən yüksək bir zirvəyə sən.
Unutmaz heç zaman səni bu vətən.

Ağdamda doğuldu, Ağdam övladı.
Məmmədov Elşaddı igidin adı.
Evin tək övladı, bircə dirəyi.
Gülləyə tuş gəldi onun ürəyi.

Bu torpaq Elşadı qoynuna aldı.
İgiddən bir oğlu yadigar qaldı.
Ananın təpədə gözüydü Elşad.
Bu gün şəhid olan özüydü Elşad.

Adını tarıxə yazdı qanıyla.
Torpağı qorudu şirin canıyla.
Ölməyib, yaşayır igid qəhrəman!
Fəxr edir onunla bu Azərbaycan!

**ƏMRAH!**

Hamının ürəyi, ciyərparası!
Gözünün işığı,  ağı, qarası!
Yoxluğun məhv etdi, bizləri üzdü.
Şəhid sırasına səni də düzdü.

Hadrut döyüşünə Əmrah da getdi.
Düşmənə nə qədər həmlələr etdi.
Düşmən arxasına gizlicə keçdi.
Çox gözəl hədəfi ordaca seçdi.

Onların yerləri olundu təsbit.
Atışma başladı verildi şəhid.
Əmrahın dostları şəhid olmuşdu.
Hər tərəf meyidlə tamam dolmuşdu.

Yaralı bu əsgər döyüş etmişdi.
Axırda gülləsi sona yetmişdi.
Əlində varıydı bir qumbarası.
Düşmənlə azıydı onun arası.

Bir qüvvə Əmrahı  elə bil kəsir.
İstəmir düşmənə o düşsün əsir.
Gözləyir düşmənin gəldiyi anı.
Partladır əlində o, qumbaranı.

Məhv edir, öldürür erməniləri.
Ölüylə doldurur bütün yerləri.
Əfsuslar olsun ki, məhv olur özü.
"Qarabağ bizimdir" olur son sözü.

## ƏN CAVAN GENERAL!

Baxıram hər yana qəmlə, kədərlə.
Barışa bilmirəm belə qədərlə.
Yazını sən yazdın, ey yaradanım.
Odlandı kül oldu, mənim də canım.

İtirdik Polad tək bir generalı.
General xalqından düşdü aralı.
Ən cavan general, igid qəhrəman.
Sənsiz qan ağlayır dünyamız bu an.

Döyüşün önündə məğrur dayandın.
Hamıdan gec yatıb, sən tez oyandın.
Məqsədin olubdu, biz yaraq , gedək.
Bütün Qarabağı tez azad edək.

Dəyməsin torpağa düşmən ayağı.
Dik tutaq hər zaman qızıl bayrağı.
Yüksəkdə yellənsin qoy bayrağımız.
Düşməndən alınsın öz torpağımız.

## EVİNƏ GƏLƏRDİN YENƏ!

Nifrət eyləyirəm mən bu cahana.
Gör nələr yaşadır bütün insana.
Ürəyim ağrıyır, yaram qan verir.
Dünən hökum verən bu gün çan verir.

İndi də apardın gözəl insanı.
Kədərə bürüdün tamam hər yanı.
Qayın yox, itirdim mən bir qardaşı.
İzləri görünür hər addım başı.

Ev-eşik gəlirdi sanki üstümə.
Kor oldum təpəmdən çıxan tüstümə.
Baxırdım insanın mən çoxluğuna.
İnana bilmədim heç yoxluğuna.

Yalvarıb söylədim indi Allaha,
Dünyaya gələydin kaş ki, bir daha.
Dünyaya gönsəydin deyirəm sənə,
Evinə gələrdin qardaşım yenə.

## EYVAZOV SAMİR!

Bir xəbər yayıldı, indi hər yana.
Düşmənin gülləsi tuş gəlib cana.
Ey igid Tovuzum, gözəl vətənim!
Bir şəhid gələcək elimə mənim.

Yerlər də, göylər də indi ağlayır.
Tovuzum başına qara bağlayır.
Vurulan yaralar heç sağalmayıb.
Həyatdan Samirim bir kam almayıb.

Yolunu gözləyir evdə körpəsi.
Qəhərə boğdu bu bilən hər kəsi.
Yarımçıq ömürlü, Tovuz məkanlı!
Sonuncu geyimi əynində qanlı.

leytenant Samirdi qoy bilsin hamı.
Yandırır ölümü bütün adamı.
Qanıyla tarixi yazdı qəhrəman.
Unuda bilmərik onu heç zaman.

Başını sən dik tut Tovuzum mənim.
Olubdu igidin düşmənə qənim.
Vətənin yolunda çiçək tək soldu.
Şəhidlik zirvəsi məkanı oldu.

## ƏZİMLİ OL!

Ey allahın xoş bəndəsi.
Sevindirin siz hər kəsi.
Ruhdan düşmən heç zaman,
Sizi sevir bütün cahan.

Gülüşünüz qoy yayılsın.
Bütün dünya lap ayılsın.
Ermənini yox etsinlər.
Bu düşməni bitirsinlər.

Millətimiz oyanıbdı.
İş başında dayanıbdı.
Çalxalanır yer kürəsi.
Dərdə salıb hər bir kəsi.

Əzimli ol, ey millətim.
Ömrü azdı bu zillətin.
Ermənilər quyu qazdı.
Yaman günün ömrü azdı.

## FANIDİR DÜNYAMIZ!

İstər şah olasan, istərsə nökər,
Nə qədər göstərsən şücaət, hünər.
Qapını əzrayil döyəcək bir gün.
Səni bu dünyadan edəcək sürgün.

Heç nəyin əcələ çatmayır gücü.
İstəyir fil olsun, ya da ki, cücü,.
Hamısı borcludur, bir şirin cana.
Əzrayıl susayır yenə də qana.

Doymayır heç onun kor olmuş gözü.
Əzrayıl ölməyir bəs nədən özü?
Nədəndir görəsən əzrayıl canı?
Məhv edir, öldürür bütün insanı.

Bizim bu dünyamız yaman fanidi.
Əzrayıl quldurdu, vallah canidi.
Bu həyat beləcə davam edəcək.
Dünyaya gələnlər bir-bir gedəcək.

Hərə bir ad alır, bir ad qazanır.
Yalançı dünyaya yaman inanır.
Sanki o, tutacaq bütün dünyanı.
Əzrayıl ovcunda saxlayır canı.

Elə ki, verilir Allahdan fərman.
Əzrayıl ovcunu sıxır həmin an.
Onunla məhv olur canlının canı.
Tərk edir bununla hamı cahanı.

## FESTİVALDI ŞUŞADA!

Qarabağı almışıq.
Aləmə səs salmışıq.
Qaçqın adını atdıq.
Murazımıza çatdıq.

Xalq qisasını aldı.
Artıq zəfər də çaldı.
Torpaq qalmadı yada.
Festivaldı Susada.

Dil açdı xarı bülbül.
Hər yan açdı çiçək, gül.
Qarabağ şikəstəsi.
Kövrəltdi hər bir kəsi.

Otuz illik bir həsrət.
Son verməliydi mütləq.
Bu gün həmin o gündü!
Şuşada toy-düyündü.

Şuşa alırdı nəfəs.
Bunu duyurdu hər kəs.
Festival şən gedirdi.
Vətən bayram edirdi.

## GENERAL ANASI!

General anası dik tut başını!
Ürəklə qucaqla onun daşını.
Bu daşdan olarmı, ay ana Polad?
İstəmə o daşdan bir daha imdad.

Heç zaman mərmərdən Polad olammaz.
O daşın qolları sənə dolanmaz.
Ölməyib Poladın yaşıyır, ana!
İnsanlar qəlbində daşıyır, ana!

Bütün doğmaların, həmi də yadın,
Qəlbinə köçübdü sənin Poladın.
Tək Polad deyil ki, ay ana balan.
Bütün vətənimiz sənlədir inan.

İgidlər hamısı sənin balandır.
Birlikdə dərdinə sənlə yanandır.
Başını sən dik tut şəhid anası.
Poladı heç kimsə deyil danası.

Qanıyla bir tarix yazdı Poladın.
General anası qalıbdır adın.
Qoy gözəl tanrımız, ulu yaradan,
Səbirlər bəxş etsin sənə də hər an.

## GENERAL!

General dünyaya igid tək gəldi.
Varlığı düşmənin bağrını dəldi.
Xofundan yatmadı bir an erməni.
Guya ki, məhv etdi, öldürdü səni.

Ölüm yox, o, sənə verdi bir həyat.
Şəhidlik taxtında indi rahat yat.
Ölməyir şəhidlər heç vaxt, heç zaman.
Əbədi yaşayır dünyada hər an!

Erməni tanıtdı səni cahana.
Səninlə fəxr etsin qoy doğan ana!
O, xalqa bəxş edib belə general.
Alnına yazılıb düşməndən öc al.

Elimin, obamın mərd generalı!
Ordudan qalmadın bir gün aralı.
Əsgərin hamsını övladın bildin.
Onlarla dərdləşdin, onlarla güldün.

Tikəni səngərdə əsgərlə böldün.
Öləndə qəhrəman igid tək öldün.
Ruhunun qarşında baş əyirik biz.
Ey bizim general, mərd şəhidimiz!

## GERİ DÖN, POLKOVNİK!

Hamının üzündən yağır qəm, kədər.
Nə qədər igidlər getdilər hədər.
General, polkovnik ön xəttdə durdu.
Qəfildən erməni hamsını vurdu.

Polkovnik İlqarın itdi əməyi.
Yaradan olmadı onun köməyi.
Gecə də, gündüz də sərhəddə  durdu.
Namərdlər İlqarı arxadan vurdu.

Aylarla görmürdü onu övladı.
Doyunca dadmadı heç övlad dadı.
Yolunu gözlərdi qızı hər zaman.
Deyə bilməyirdi evə gəl hər an.

Ürəyim istəyir,  ay ata səni!
Qoydun intizarda həmişə məni.
İndi həsrət ilə yumur gözünü.
İstəyir yuxuda görsün özünü.

Yuxuda gözləyir yolunu yenə.
Deyir ki, dönəcək o, bir gün mənə.
Geri dön polkovnik, sən dön evinə.
Bəlkə yuxudasa qızın sevinə.

Heç zaman olmadın sən etibarsız.
Bəs necə yaşasın bu qız atasız?
Deyir ki, ata yox, dünyaydı mənə.
Ağlayır, geri dön, söyləyir sənə.

Əlimdən aldılar mənim dünyamı.
Qorxuram alsınlar indi röyamı.
Bilirəm, yuxuma gələcək atam.
Mənimlə dərdini böləcək atam.

Kaş dönə biləydin polkovnik, evə.
Qarşılardı səni el sevə- sevə.
Lənətlər olsun o, yağı düşmənə.
Gör necə qıydılar şəhidim, sənə?

## HALALDI TOVUZUM!

Günlər keçəcəkdir, gələcək zaman.
Dağların başından itəcək duman.
Səhər açılacaq , günəş doğacaq.
Qaranlıq gecəni işıq qovacaq.

Bütün yer üzünə nur ələnəcək.
Tovuzum işığa gur bələnəcək.
Ağlaşma səsləri qeyb olacaqdır.
Yerinə səadət, nur dolacaqdır.

Hər yerə yayılar bülbülün səsi.
Düşmənin kəsilər tamam nəfəsi.
Çünki mən əminəm Tovuz elinə.
Silahı alanda onlar əlinə.

Düşməni silərlər tam yer üzündən.
Məhv edər onları dünya düzündən.
İgiddir Tovuzun hər bir insanı.
Vətənin uğrunda verdilər canı.

Halaldır Tovuzum, halaldır sizə!
İndi xoş müjdələr göndərin bizə.
Siz oyun düşmənin görən gözünü.
Bütün yer üzündən silin özünü!

## HARDASAN ÜLVÜ?

Sənsiz kövrəlmişəm, dolmuşam yaman.
Yenə öz-özümə edirəm güman.
Axı sən hardasan, ay oğlum harda?
Ülvü anasını qoyarmı darda?

Gözlərim yoldadır, qulağım səsdə.
Ülvüsüz qalmışam sanki qəfəsdə.
Könüllü getmişdi cəbhəyə özü.
Bu oldu həmişə ən əziz sözü,

Vətənin yolunda şəhid olacam.
Ömürlük qəlblərə özüm dolacam.
Mənimlə hər zaman fəxr edəcəksən!
Başını dik tutub sən gedəcəksən.

Adıma küçələr, park salınacaq.
Qarabağ bizimdir, o alınacaq.
Bəs indi hardasan gəlməyir səsin.
Mənə bəs edəcək quru nəfəsin.

Sən mənim ürəyim, son beşiyimsən.
İşıqlı dünyamsan, ev-eşiyimsən.
Sən ayrı qalmazdın, heç zaman mənsiz.
Geri dön, ay oğlum, neylərəm sənsiz?

## HƏKİM İLQAR!

Rusun kölgəsində hürən erməni.
Yaradan məhv etsin, öldürsun səni.
Sən necə qıydın o, həkim İlqara?
Axıtdın qanını daşa, divara.

Qırılsın İlqara atəş açanlar.
Qorxudan postunu qoyub qaçanlar.
Ömrünün bu gözəl cavan çağında.
Yer aldı şəhidim cənnət bağında.

Ölməyib, yaşayır bu həkim oğlan.
Unutmur şəhidi heç kim, heç zaman.
Hamını sağaldıb, verərdi dərman.
Özünü qurtara bilmədi o an.

Yerdə qalmayacaq heç zaman qanı.
Vətənin yolunda məhv oldu canı.
Cənnətdir İlqarın indi məkanı.
Döndü xatirəyə bütün hər anı.

Cəsur yaratmışdı onu yaradan.
İgid doğulmuşdu özü anadan.
Tarixə yazıldı İlqarın adı.
Nəsib oldu ona şəhidlik dadı.

## İKİ DÖVLƏT, BİR MİLLƏTİK!

İki dövlət, bir millətdir.
Dostluğumuz lap cənnətdir.
Bir-birinə arxa, dayaq.
Qoşa durur iki bayraq.

İki dostdur, iki sirdaş!
Bir-birinə oldu qardaş.
Dayandılar onlar qoşa.
Birgə gəldi hər an cuşa.

Torpaqları geri aldı.
Bu cahana səda saldı.
Onlar çəkdi düşmənə dağ.
Azad oldu bax Qarabağ.

Cıdırda bir məclis qurdu.
Paşinyana təpik vurdu.
Bələnmişdi nura üzü.
Rəqs eylədi indi özü.

Otuz illik həsrət bitdi.
Düşmən ölüb, tamam itdi.
Biz qalibik , zəfər çaldıq!
Qarabağı geri aldıq!

## İLQAR HƏKİM!
## Uroloq

Həkim tək doğuldu İlqar anadan.
Bir alim yaratmış onu yaradan.
Minlərlə insana o, veribdi can.
Onunla fəxr edir bu Azərbaycan!

Elimin, obamın alim həkimi!
Naümüd qoymayıb heç vaxt, heç kimi.
O, sevir işini, öz sənətini.
Qurub könüllərdə səltənətini.

Hər yerdə nə qədər vardır əməyi.
Yaradan olubdu onun köməyi.
"Əməkdar həkim" tək bir adı alıb.
Bununla hər yana səs-səda salıb.

Tərəqqi medalı verib dövlətim.
Fəxr edir həkimlə gözəl millətim.
Hipokrat andına sadiqdir İlqar!
Yaxşı ki, dünyada belə həkim var!

Belə çətin gündə vətən dardadır.
Yaralı hardasa həkim ordadır.
Əsgərlə birlikdə səngərlərdədir!
Bütün qan tökülən o yerlərdədir!

## İRƏLİ ƏSGƏRİM!

Allahım, sən qoru bu cavanları!
Yerdən yığılmayıb onların canı.
Gəl peşman eyləmə sən anaları.
Övladsız sağalmaz heç yaraları.

Oğluyla birgədir ana ürəyi.
Əsgərlər vətənin, elin dirəyi.
Elimim, obamın mərd igidləri!
Yaradan qorusun hər bir əsgəri.

Bu günkü oğuldur, sabahkı ata.
Allahım, izin ver məqsədə cata.
Qıyma gəl onların cavan canına.
Göz tikmə yerlərə axan qanına.

Düşmənə heç zaman sən vermə imkan.
Özləri qoy olsun yer ilə yeksan.
Gəl qoru yurdumun igidlərini.
Kör eylə düşmənin sən gözlərini.

Ey əsgər anası, əsgər bacısı!
Heç yerə sığmayır vətən acısı.
Ordunun dalında möhkəm dayanaq.
Hər zaman dövlətə, haqqa inanaq!

İrəli əsgərim, ey igidlərim!
Nurların içində yat, şəhidlərim!
Sizinlə birgədir bu el, obamız.
Hamıya balasız, əziz balamız!

## İT DƏ YAXŞIDI!

Necə də gözəldi, bax bu mənzərə!
Sədası yayıldı bütün yerlərə.
Siz ey it sürüsü, it yığınağı!
Təcili tərk edin bizim torpağı!

Bu itlər inciyib, küsəcək bizdən.
İtlər də yaxşıdır, erməni, sizdən!
İllərdi sizinlə kəsmişdik çörək.
İtdəki çörəyə hörməti görək.

Həmişə itlərdə olur etibar.
Sizlərsə olursuz hədsiz riyakar.
Bir də ki, tanıyır it də yerini.
Yerini bilməyən göstər birini.

Siz nə yer bilirsiz, nə də duz çörək!
Sizə həddinizi göstərmək gərək.
Vallah, it yaxşıdı , erməni sizdən.
Verin Qarabağı , əl çəkin bizdən!

İtlərlə bir oxşar cəhətiniz var!
Onlar tutduğunu çətin buraxar.
Siz burda oxşadız itə doğurdan.
Yapışman it kimi bu Qarabağdan

## İYİRMİ YANVAR

Qan ilə yazıldı tarixə adı.
Yaddaşa həkk oldu zəhər tək dadı.
Üstündən keçsə də bir xeyli zaman.
Yaddaşdan silinməz heç bir vaxt inan.

Cəlladlar qəssab tək canları aldı.
Bu günü əbədi tarixə saldı.
Üstündən keçsə də nə qədər illər,
Düzələ bilməyir heç vaxt könüllər.

Düşmənlər bizlərə nələr etdilər.
Günahsız insanlar bada getdilər.
İyirmi yanvarı matəm edirik.
Onları anmağa o gün gedirik.

O gecə düşmənlər tələ qurdular.
BİzIərə nə qədər zərbə vurdular.
Yendik biz düşməni birliyimizlə.
İşləri olammaz bir daha bizlə!

## İYULUN ON DÖRDÜ!

Vətənim dardadı, salır hay-haray.
Ömründən igidlər hamsı verdi pay.
Bulud tək düşmənlər çökdü səngərə.
Leysan tək gülləni tökdü yerlərə.

İyulun on dördü qarışdı cahan.
Düzlərə dağıldı al -qırmızı qan.
Böyükdən kiçiyə qan ağlayirdı.
Gözlərdən sel kimi yaş çağlayırdı.

Varıydı nə qədər şəhidlərimiz.
Evlərdə ağılar söyləyirdik biz.
Hamının üzündə vardı qəm, kədər.
Bizlərə yazıldı belə bir qədər.

O gecə tarixə saldı özünu.
İgidlər vətənçün yumdu gözünü.
Bu tarix ömürlük qalacaq yadda.
Qalmasın bir nəfər erməni adda.

Kökləri kəsilsin bu yer üzündən.
Silinsin hamısı dünya düzündən.
Ey əli qanlara batan erməni!
Bir yolluq lənətə gələsən səni!

## KAMRANIN GÖZLƏRİ!

Nə qədər doğmadır, əzizdir vətən.
Çox oldu yolunda ölən və  itən.
Olmadı ordunun gündüz-gecəsi.
Yaralar almışdı onun neçəsi.

Qazilik adını onlar aldılar.
Adını tarixə qanla saldılar.
Qəhrəman igid tək dedi sözünü.
Bəzisi itirdi görən gözünü.

Hər iki gözünü itirdi Kamran.
Dünyası gözündə qaraldı o an.
Cəbrayıl uğrunda döyüş gedirdi.
Gurultu adamı dəli edirdi.

Aləmlə biriydi bombanın səsi.
Dəhşətə salırdı bütün bər kəsi.
Kamran dayanmadan atəş açırdı.
Güllələr havada ışıq sacırdı.

Qəfildən bir mərmi düşdü yanına.
Qəlpələr doluşdu onun canına.
Bilmədi nə oldu Kamran özünə.
Qəlpələr girmişdi ancaq gözünə.

Dünyası başına dar oldu o an.
Heç nəyi görmədi bir daha Kamran.
Ovcuna töküldü onun gözləri.
Vətənim sağ olsun oldu sözləri!

Ovcunda tutmuşdu Kamran gözünü.
Ağrıdan itirdi artıq özünü.
Bir anda dünyası oldu qaranlıq.
Özünü topladı igid bir anlıq.

Ağrıdan yanırdı Kamranın canı.
Həkimə gəlirdi ancaq gümanı.
Anlayırdı həkim olub-keçəni.
Düşündü, mən necə qurtarım səni ?

Söyləyə bilmirdi bunu Kamrana.
Həkim də qalmışdı lap yana-yana.
Əlacsız baxırdı onun üzünə.
Bilmirdi nə desin indi düzünə.

Kamranı çıxartdı həkim dəhlizə.
Resepti yazaram söylədi sizə.
Kamranla gəlmişdi ora qardaşı.
İmdad istəyirdi hər kəlmə başı.

Özünü toplayıb söylədi həkim,
Bu işi boynuna götürməz heç kim.
Çətindir söyləmək mənə sözləri.
Tamamən dağılıb onun gözləri.

Bu xəbər olduqca acıdır, acı.
Kamranın heç cürə yoxdu əlacı.
Hönkürə-hönkürə ağladı oğlan.
Çöldə gözləyirdi Kamran da bu an....

## KƏLBƏCƏRİ ALMIŞIQ

Qalıb olduq özümüz.!
Aydın olsun gözümüz!
Aləmə səs salmışıq.
Kəlbəcəri almışıq.

Eşq olsun əsgərlərə.
Girdilər hər yerlərə.
Ermənini qovdular.
Burnunadək ovdular.

Prezident verdi əmri.
Mum etdilər dəmiri.
Şükür olsun Allaha.
Qalib olmuşuq daha.

Vaxt istədin sən on gün.
Nəyi eylədin düzgün?
Guya kimi qandırdın?
Evlərətən yandırdın.

Hər yeri minaladın.
Bundan da ləzzət aldın.
Yığdın ördəyi, qazı.
Apardın unutazı.

Sən beləmi qudurdun?
Meşələrə od vurdun.
Bax bununla nə etdin?
Cəhənnəm olub getdin.

## KİMDİR ERMƏNİ?

Yalanlar söyləyir qurumuş dilin.
Nə vaxtdan olubdu Qarabağ elin?
Allahdan istərəm yox etsin səni.
Lənətə gələsən, görüm, erməni.

Nə qədər zalımsan, nə qədər murdar?
Kökünüz kəsilsin sizin harda var.
Möhtacsan sən köhnə bir unitaza.
Səninçün sanki o bir billur vaza.

Köksünə basıbsan bu unitazı.
Onunla çıxartdın bəlkə də yazı.
Ən böyük sərvətin bu unitazdır.
Nə pis söz desələr sənə çox azdır.

Məktəbi dağıdıb, evi yandıran.
Eşşək tək qanmayan, bəzən anqıran.
Belə bir insandır, bilin erməni.
Tanısın qoy dünya mənfur düşməni.

Diri insan soyan, təcrübə edən,
Qonşu torpaqlara xaincə gedən.
Vəhşi bir heyvansan qəddar erməni!
Bu dünya tanıdı hər yerdə səni.

## KÖKÜ SİLİNSİN!

Ey göyü yaradan, yeri yaradan!
Düşməni yox eylə, qaldır aradan.
Qıyma gəl sən bizim bu cavanlara.
Rəhm etmə zəhərli o ilanlara.

Hansı ki, soxulub bizim torpağa.
Sürünüb giriblər düz Qarabağa.
Zəhərli ilandır bu ermənilər!
Torpağı, mətbəxi hey dilənirlər.

Vətənsiz erməni, yurdsuz erməni!
Lənətə gələsən həmişə səni!
Nə qədər oğlanlar getdilər qurban.
Düşmən gülləsinə tuş gəldi hər an.

Nə qədər körpələr yetim qaldılar.
Şəhidin balası adı aldılar.
Ağlayır analar, sızlayır vətən!
Silaha sarılıb indi hər yetən.

Layiqli payını erməni alır.
Aləmə yalandan hay-yaray salır.
Bütün yer üzündən kökü silinsin!
İşğalçı olduğu artıq bilinsin!

## KÜS YOLDAŞINDAN!

Ey qara paltarlı, gözəl mələyim!
Allahdan səbirdir sənə diləyim.
Səni gördüm yenə məzar başında.
Yuyursan məzarı öz göz yaşında.

Sən küs o məzardan getmə yanına.
Can verə bilməzsən onun canına.
Artıq o, olubdu mərmərdən bir daş.
Bir daha olammaz bil sənə yoldaş.

Onunla gedibdi ağzının dadı.
Ağlatdı hamını qohumu, yadı.
Nə qədər yalvarsan sən yenə daşa,
Əliboş dönərsən evə bir başa.

Özünü qoyma gəl, bacı bilməzə.
Axı o, gedibdir gedər -gəlməzə.
Həyatın qanunu yazılıb belə.
Mənim gözəl, bacım sən də səbr elə.

Qoy ruhu şad olsun, cənnət məkanı.
Bilirsən heç cürə yoxdur imkanı.
İncimə, ay bacı məzar daşından.
Bir yolluq eləcə küs yoldaşından.

## MƏRD TOVUZLULAR!

Haydı igidlərim, qalxın ayağa!
Söykənin xalq kimi möhkəm dayağa.
Zəhərli ilan tək düşmən oyanıb.
Arxada xalqımız dağ tək dayanıb.

Tovuza düşübdü indi də gözü.
Erməni it kimi öləcək özü.
Qarabağ şirəsi dişində qalıb.
Bu dəfə yolunu Tovuza salıb.

Ay yazıq erməni, indi bunu bil.
Bu ordu əvvəlki ordu ha deyil?
Erməni dığası, ac bir gözünü.
Nə hesab edirsən, axı özünü?

Qarşında dayanıb mərd Tovuzlular.
Əlini bulasa sizə pis bular.
Elə ki, erməni ağzını açıb,
Bütün Tovuzlular sərhədə qaçıb.

Sizin tək sərhəddən qaçmayıb geri.
Tovuz xalqı verməz bir qarış yeri!
Rusun kölgəsində yatan erməni!
Hamı lənətləyir sənin hürməni.

## MƏZARDA TƏK DEYİL!

Dayanıb məzarla bir qız üz-üzə.
Sakitcə baxışır onlar göz-gözə.
Qızın gözlərindən yaşlar ələnir.
Sinəsi tamamən suya bələnir.

Oğlanın çıxmayır səsi, səmiri.
Kəsilib nəfəsi, gəlmir həniri.
Kor olsun düşmənin o görən gözü.
Düşmən gülləsinə tuş gəlib özü.

Vətənin yolunda verib canını.
Torpağa tökübdü qızıl qanını.
Düşmən sinəsini onun oyubdu.
Sevdiyi gözəli yolda qoyubdu.

Unuda bilməyir bu gözəl onu.
Əyninə geyibdi zil qara donu.
Heç nəyə çatmayır gözəlin əli.
Bu dərddən olubdu az qala dəli.

Könlünü onunla dəfn eləyibdir.
Məzarın üstünə gül çiləyibdir.
Məzarda tək deyil sevdiyi oğlan.
Bu qızın ürəyi ordadır hər an.

## MÖCÜZƏ YARAT!

Allahım, nə olar möcüzə yarat!
Hər şeyi, hər şeyi bir kənara at.
Orxanın gözünü qaytar özünə.
Yenidən şəfa ver, nur ver gözünə.

Qaranlıq dünyaya qərq etmə onu.
Dünyanın gəlməyib hələ ki, sonu.
Nə idi Orxanın axı günahı?
Düşməni qoy tutsun dünyanın ahı.

Vətəni çox sevdi Orxan özündən.
Sırf ona görə də keçdi gözündən.
Lənətə gəlsin bu yağı düşməni.
İşıqsız qoydular, ay Orxan səni.

Əlimdə olaydı kaş ki, bir əlac.
Gözünə olaydım mən özüm ilac.
Bütün Azərbaycan onun gözüdür!
Əsil vətən sevən Orxan özüdür!

## MÜBARƏK OLMADI

Mübarək olmadı, şəhidim, yaşın.
Qeyd edə bilmədi bacın, qardaşı.
Özünsüz yaşının heç yoxdu dadı.
Sənsiz bu günlərin nə olsun adı?

Kaş görə biləydin, şəhidim, özün!
Evlə bir olaydı söhbətin, sözün.
Yığaydın hamını yenə başına.
Hazırlıq edəydin sən öz yaşına.

Sənli günlərimi istəyirəm mən.
Tortunu kəsəydin bax bu gündə sən.
Baxıram gələnə, gah da gedənə,
Ay Allah, bunlardan axı mənə nə?

Çatlayır ağrıdan ağrıyan başım.
Yanımda olaydı şəhid qardaşım!
Birlikdə kəsəydik tortunu yenə.
Təbriklər deyərdik hamımız sənə.

## MÜBARƏK OLSUNMU?

Qurbanam şəhidim, sənsiz yaşına.
O, gülən gözünə , qara qaşına.
Bilmirəm ağlayım, ya da ki, gülüm?
Sənə nə söyləsin qurumuş dilim?

Mübarək olsunmu, ya olmasınmı?
Gözlərim yaşlarla bax, dolmasınmı?
Baxıram saata, yetişir zaman.
Özümü itirib donmuşam inan.

Axı heç çatmayır zənglərim sənə?
Nə deyim, şəhidim, cavab ver mənə.
Dilim lal olubdu, çıxmayır səsim.
Qəhərdən boğulur , vallah nəfəsim.

Gözümdən süzülür yanağıma yaş.
Təbriki mən necə eyləyim, qardaş?
Mübarək olsunmu, ya olmasınmı?
Bu bacın çiçək tək de , solmasınmı?

## NƏ VERİB, ALA BİLMİRSƏN?

Kədərə bürünüb ömür yollarım.
Quruyub, yanıma düşüb qollarım.
Titrəyir əlimdə yazdığım qələm.
Özümə mən gələ bilmirəm hələm.

Arxaya baxıram qəmlə, kədərlə.
Barışa bilmirəm belə qədərlə.
İyulun on dördü əsdi bir tufan.
Yandırır adamı, yandırır hər an.

Bu tufan qopartdı köklü ağacı.
Aləmə nə qədər verdi bir acı.
Bax nədən, nədəndir axı bu dava?
Zəhərə dönübdü udulan hava.

Doymayır düşmənin kor olmuş gözü.
Görəsən bilirmi bunları özü?
Heç qismət olmayır hamıya kəfən.
Yenə də dayanmır erməni düşmən.

Sən bizə nə verib ala bilmirsən?
Bunları oturub özün düşünsən.
Heç zaman olmayıb torpağın sənin.
Qarabağ nə vaxtdan olub dədənin?

Hər şeyi oğurluq olan bədbəxin,
Xəbərin yoxdurmu, yoxdu mətbəxin?
Yazdığın mahnılar, çaldığın hava,
Sənin ha deyil ki, edirsən dava?

Rusun havasına oynayırsan sən.
Mətbəxi, torpağı olmayan düşmən.
Hər şeyi oğurluq olan erməni!
Lənətə gələsən ömürlük səni.

## NƏDƏN KÜSDÜN?

Aç qapını, pəncərəni.
İçəriyə burax məni.
Qoy uzanım mən yanına.
Qurban ollam o canına.

Darıxıram axı sənsiz.
Necə qaldın orda mənsiz?
Hər gün məni yad edərdin.
Xəbər tutub sən gedərdin.

Gözləyirəm yolunu mən.
Harda qaldın  şəhidim, sən?
Yoxdu qapın, nə pəncərən.
Hardan görüm səni görən?

Tək mən deyil, hamı yanır.
Səni hər an onlar anır.
İstəyirəm küsəm səndən.
İncimə gəl, qardaş məndən.

Ağlayıram, bağırıram.
Hər an səni çağırıram.
Bircə dəfə hay ver mənə.
Qurban olsun bacın sənə.

Məndən küsüb danışmırsan.
Nədən küsdün barışmırsan?
Sənsiz dünya dardı mənə.
Evimizə qayit yenə.

## NEYNİRƏM, BU MƏRMƏR DAŞI?

Qonaq gəldim, bu gün sənə.
Çox könlümə düşdün yenə.
Vardır yeni bir məkanın.
Ancaq yoxdu heç imkanın.

Ucalıbdı burda daşlar.
Qoşa yatır, cüt qardaşlar.
Şəhidlərim burda yatır.
Ah-naləmiz ərşə çatır.

Yoxdu qapı, nə pəncərə.
Boylanıram bütün yerə.
Kaş o daşa mən dönəydim.
Qardaşlarla bir öləydim.

Yox-yox bunlar mənim deyil.
Son görüşdən keçib bir il.
Nə tez dönüb oldular daş?
Olarmı heç daşdan qardaş?

Neynirəm bu mərmər daşı?
Mən gəzirəm cüt qardaşı.
Gözlərindən gülümsəyən,
Bacıların çox istəyən.

Şəhid olan qardaşlarım!
Qardaş əvəzi daşlarım.
Heç nə sizi əvəz etmir.
Daşlar durub bizə getmir.

Nə baxırsız daşdan mənə?
Yalvarıram sizə yenə.
Daşdan baxman elə bizə!
Durun gedək evimizə.

## NƏZAKƏT ANA!

Var olsun yurdumun hər bir insanı!
Vətənin yolunda qoydular canı.
İstər qadın olsun, istərsə kişi,
Vətənə xidmətdir hamsının işi.

Torpağı qoruyur əsgərlərimiz.
Hücuma məruzdur hər yerlərimiz.
Ordunun dalında xalqdır dayanan.
Onlarla birlikdə yatıb, oyanan.

Tərtərdə yaşayır Nəzakət ana.
Dünya bir yanadır, o da bir yana.
Əsgərə evində bişirir yemək.
Onların anası olubdu demək.

Hər gündə onların gedir yanına.
O zaman nuş olur onun canına.
Qapıda saxlayır o, toyuq, cücə.
Onları bişirir ləzzətlə, necə!

Hər gündə yeməyi aparıb gedir.
Gördüyü işiylə ana fəxr edir.
Tərtərdə tanıyır hamı qadını.
Unutmaq olarmı onun adını?

## NİŞANLI FƏQAN!

Necə də mətindir igidlərimiz!
Onlarla fəxr edir bizim cümləmiz.
Ovcunda saxladı onları ana.
Əsgər böyütdülər Azərbaycana.

Hərəsi bir igid, bir pəhləvandı.
Hamısı canlara dəyən oğlandı.
Belə bir oğlan da zabit Fəqandı.
Saxur millətindən olan insandı.

Günlərin birində döyüş zamanı,
Düşmənin olmayır heç bir imkanı.
Ağ bayraq qaldırır düşmən sonunda .
Fəqangil çox önə gedir o anda.

Sən demə düşmənlər tələ qurubdu.
Əlində qumbara orda durubdu.
Onlar qumbaranı atdığı zaman,
Düşmənin üstünə atılır Fəqan.

O anda ordaca o, şəhid olur.
Əsgərlərə xırda qəlpələr dolur.
Məhv edir əsgərlər həmin düşməni.
De kimlər unudar igidim, səni?

Nişanlı Fəqanım yumdu gözünü.
Vətənə o, qurban etdi özünü.
Dünyaya səs saldı onun hünəri.
Dolandı sədası bütün yerləri.

## ÖLMƏYİB ELVİNİN!

Sən daddın gözəlim, şəhid dadını.
Elvinin tarixə yazdı adını.
Eyy şəhid yoldaşı, yetim anası,
Heç kimsə bunları deyil danası.

Tanıdı Elvini bu Azərbaycan.
Onunla fəxr edir bütün hər insan!
O, vətən yolunda qoydu canını.
Şəhid olmaq üçün tökdü qanını.

Vətənə əmanət qoydu üç övlad.
Qazandı əbədi şəhid tək bir ad.
Bütün xalq tanıyır öz şəhidini.
Az qalıb, erməni görər həddini.

Heç zaman ölməyir şəhidlərimiz!
Onların önündə baş əyirik biz.
Başını sən dik tut şəhid yoldaşı!
Elvinin sənlədir hər addım başı!

Ölməyib Elvinin, deyirəm yenə.
Səbirlər bəxş etsin allahım sənə.
Şəhidlər ölməzdir, vətən bölünməz!
Bunları de görüm, axı kim bilməz?

## ÖLMƏYİB GENERALIMIZ!

Qurbanam ordumun igidlərinə.
Qurbanam can qoyan şəhidlərinə.
Anadan doğulub onlar qəhrəman.
Vətəni uğrunda veribdilər can.

General dayandı ordu başında.
O, şəhid olubdu qırx beş yaşında.
Ömrün çiçəklənən gözəl vaxtında,
General oturdu şəhid taxtında.

Əsgərin önündə Polad yer aldı.
İgid tək tarixə adını saldı.
Adı da Poladdı, özü də Polad.
Halaldı Polada verilən bu ad.

Vətəni uğrunda qoydu canını.
Yerlərə çilədi qızıl qanını.
Yerdə qalmayacaq bir damla qanı.
Canıyla qorudu Azərbaycanı.

Ölməyib yaşayır generalımız.
Fəxr edir onunla bütün xalqımız.
Cənnət məkanıdır igidimizin.
Fəxridir həmişə hər birimizin.

## OTUZ İL SONRA !

Sən bir bax dünyanın indi işinə.
Dönək Cəbrayılın lap keçmişinə.
Erməni hər yerə hücum çəkmişdi
Evləri dağıdıb, şumlar əkmişdi.

Didərgin eylədi hər bir kişiyi.
İnsanlar tərk etdi evi-eşiyi.
Qaçqınlar içində vardı bir oğlan.
Olmuşdu düz yeddi yaşı həmən an.

Otuz il keçmişdi indi aradan.
Möcüzə yaratdı artıq yaradan.
Cəbrayıl düşməndən edildi azad.
Oğlana verildi gözəl bir murad.

İndi o,böyüyüb mayor olmuşdu.
Vətəni qoruyan yaşa dolmuşdu.
Sevincək olaraq bu mayor oğlan,
Birinci evinə qaçdı həmən an.

Həvəslə boylandı evə-eşiyə.
Xoşbəxtlik üz verdi igid kişiyə.
Onu gözləyirdi barlı ağaclar.
Üstündə meyvəsi, narlı ağaclar.

Əlini uzadıb dərdi o nardan.
İstədi həvəslə dadsın nübardan.
İnana bilmirdi mayor gözünə.
Baxırdı bir nara, bir də özünə.

O, qisas almışdı bu ermənidən.
Dönmüşdü evinə igid yenidən.
Nə qədər keçsə də indi aradan,
Çox böyük xoşbəxtlik verdi yaradan.

## PARÇALADI ÜRƏYİMI!

Hər loxmam olubdu elə bil zəhər.
Uduram tikəni güclə, bir təhər.
Gözümün içində halqalanır yaş.
Kədər ürəyimə yeriyib bir baş.

Boylanıb baxıram o yan, bu yana.
Bir alov düşübdü sirin bir cana.
Gizlicə əriyir canımın yağı.
Heç kimsə görməsin heç qardaş dağı.

Şam kimi əriyən gördüm mən dağı.
Yediyim çörəyim olubdu ağı.
Gözümdən axan yaş dönüb oldu qan.
Təhfil verdik bu gün torpağa bir can.

Qardaşım əlini əlimdən üzdü.
Axan göz yaşını sinəmə düzdü.
Parçaladı bu gün, o, ürəyimi.
Alova bürüdü bax kürəyimi.

## QALX AYAĞA!

İl dolanıb gəlir başa.
Yalvarıram yenə daşa.
Qalx şəhidim, qalx ayağa!
Mən gəlmişəm çıx qabağa.

Yağsa yağış, qopsa tufan,
Səninləyəm, qardaş hər an.
Sənsiz nələr çəkdi başım.
Sən hardasan, gəl qardaşım!

Nələr oldu, nələr mənə?
Sığınıram yenə sənə.
Xəyalınla danışiram.
Alovlanıb alışıram.

Öz-özümə küsürəm mən.
Xəyalda da məlhəmsən sən.
Ey təbibim, ey dərmanım!
Sənə qurban olsun canım.

Gül üzünü göstər mənə.
Axı yenə gəldim sənə!
Daşdan baxıb gülümsəyən,
Səninləyəm yenə deyən.

Qurban ollam o gözünə.
Nə sözün var de özümə.
Danışıram, danışıram.
Oda dönüb alışıram.

Səsin gəlmir qulağıma.
Mən gəlmişəm ayağına.
Dur şəhidim, qalx ayağa.
Mən gəlmişəm, çıx qabağa.

## QAN AĞLAYIR!

Əsir külək, qopub tufan.
Qan ağlayır Azərbaycan.
Çalxalanır yer kürəsi.
Silkələyir hər bir kəsi.

Şəhər ölü bir şəhərdir.
Abu- hava bir təhərdir.
Zülmət çöküb gündüzünə.
Mərmi töküb yer üzünə.

Məhv eləyir insanları.
Ayrı salıb dostu , yarı.
Gülüş səsi qeyb olubdu.
Sinələrə qəm dolubdu.

Gəzir əcəl aram-aram.
Yediyimiz oldu haram.
Bayquşluqla yoxdu aram.
Çox dərindir bax bu yaram.

Bilinməyir nədir  sonu?
Qara geyib hamı donu.
Düşmən bizi yırqalayır.
Bütün aləm qan ağlayır.

**QANLI YANVAR!**

Getsin qoy gəlməsin iyirmi yanvar.
Şəhərə dolmuşdu sanki canavar.
Qaranlıq bir gecə uyuyur şəhər.
Az qalıb bir azdan açılar səhər.

Gurultu səsləri doldu hər yana.
Vahimə düşmüşdü gecə lap cana.
Rusların ordusu girdi şəhərə.
İnsanlar boğuldu tamam qəhərə.

Şəhərə tanklardan atəş açıldı.
Güllələr hər yana uçub saçıldı.
Heç kim gözləmirdi belə bir anı.
Güllədən yanırdı hamının canı.

Bakının əcəli gəldi o gecə.
Silahsız insanlar ölürdü necə?
Hər yerdən gəlirdi qışqırıq səsi.
Tapa bilməyirdi heç kim, heç kəsi.

Ordu insanları qırıb keçirdi.
Hamının qanını sanki içirdi.
Elə bil axırdı su yerinə qan.
Nə qədər günahsız orda verdi can.

Atəş bürümüşdü bütün şəhəri.
Heç kim gözləmirdi belə səhəri..
Qaranlıq çəkildi, açıldı səhər.
Hər yeri bürüdü qəmli bir kədər..

Maşınlar əzilmiş, evlər yanmışdı.
Bakını bu günə ruslar salmışdı.
Göylərə qalxırdı insan fəryadı.
Qanlı yanvar oldu o günün adı.

## QARABAĞ AZƏRBAYCANDIR!

Yayıldı bu xəbər bütün cahana.
Erməni soxulub Azərbaycana.
Otura bilməyib dağılmışında.
O yurdu, yuvası boş qalmışında.

Aləmə səs salıb deyir erməni,
Azəri əsgəri öldürür məni.
Soruşan yoxdurmu axı  düşməndən,
Qarabağ nə vaxtdan qalıb dədəndən?

Papağın boş qalsın sənin, erməni.
Əcəlin gətirib buraya səni.
Cəhənnəm olmağın çatıbdı vaxtı.
Gəl boşalt tutduğun oğurluq taxtı.

Ayağın dəyməsin bizim torpağa.
Əlvida deginən sən Qarabağa!
Çünki bu Qarabağ  Azərbaycandır!
Bunu anlamayan bil ki, heyvandır!

## QARABAĞ BİZİMDİ!

Nə qədər gözəldir aldığım xəbər!
Eşitdim xəbəri oldum bəxtəfər.
Allahım, qüvvət ver sən əsgərlərə!
Yayıldı sədası bütün yerlərə.

Yardılar düşmənin sərhədlərini.
Göstərdi onlara öz hədlərini.
İt kimi qovdular erməniləri.
Azad eylədilər bizim yerləri.

Fizuli rayonu, həm Murov dağı.
Azad olmuşdular bu axşam çağı.
Aldılar kəndləri, yüksəklikləri!
Məhv oldu düşmənin murdar itləri.

Allahım, sən qoru bu igidləri!
Qoy azad etsinlər qalan yerləri.
Necə ki, aldılar bax Murov dağı,
Elə də alsınlar bu Qarabağı!

Eşitsin bu dünya, eşitsin cahan!
Qalmasın bu işi duymayan insan.
Qarabağ bizimdir, bizim olacaq!
Bizim xəritəmiz bütov qalacaq!

## QARDAŞ HƏSRƏTİ

Susub telefonum, sanki lal olub.
İçimə bir kədər, üzüntü dolub.
Mən zəng gözləyirəm öz qardaşımdan.
Daş olub telefon, səs gəlmir ondan.

Həsrətlə baxıram pəncərədən mən.
Qapımı qəfildən kaş döyəydin sən.
Nanə yarpağı tək ürəyim əsir.
Sənsizlik qılıncdır, ömrümü kəsir.

Günlər bir-bir gedir, ay gəlir başa.
Kədərlə baxıram, yatdığın daşa.
Daş axı doğurdan bax elə daşdı.
Mənim axtardığım şəhid qardaşdı.

Daş axı zəng etmir, axtarmır məni.
Şəhidim, mən necə vermişəm səni?
Gözlərim dikilir hey telefona.
Kədərlə baxıram həmişə ona.

Ürəyim nisgilli, gözlərim nəmli.
Mən səni gəzirəm hər yerdə qəmli.
Heç nəyin qalmayıb daha ləzzəti.
Qurtarmaz yaradı qardaş həsrəti.

## QARDAŞ!

Axı nədən sizə deyiblər qardaş?
Hamıya verirəm sualı bir baş.
Qarla daş birləşib yaradıb sözü.
Bunu gözəl bilir insanın özü.

Heç zaman qar kimi soyuq olmurlar.
Daş kimi sərt olub qəlbə dolmular.
Rahatdır, genişdi qardaş qucağı.
Hər yerdən  istidi onun oçağı.

Bacının dərdinin dərmanıdırlar.
Onları yaşadan qanlarıdırlar.
Həmişə qardaşa söykənir bacı.
Heç zaman görməsin qardaşlar acı.

Onlardır dünyanın nazı, neməti.
Qardaşdır hamının varı, dövləti.
Qardaşa gələnlər gəlsin bacıya.
Bacılar razıdır həmin acıya.

## QARDAŞIN AKİFDİ ADI!

Qardaşa canından can verən qardaş!
Həkimə yalvarıb söylədi bir baş.
Kömək et, qardaşı qaytar özümə.
Nur eylə yenidən onu gözümə.

O, vallah ürəyim, sanki canımdı.
Damarda axan qan mənim qanımdı.
Tək qardaş deyil o, həm sirdaşımdı.
Birlikdə gəzdiyim yol yoldaşımdı.

Razıyam əcələ balamı alsın.
Ancaq qoy qardaşım yanımda qalsın!
Bütün dövlətimi verərəm sənə.
Ancaq qardaşımı sən qaytar mənə.

Dediyi kimi də eylədi qardaş.
Hər şeyin önündə dururdu birbaş.
Əcəlin əlindən qardaşı aldı.
Əcəli o evdən didərgin saldı.

Həmin bu qardaşın Akifdi adı.
Heç zaman qaytarmaz əli boş yadı.
Yada da o, baxır qardaş gözünnən.
Bir dəfə çıxmayıb böyük sözünnən.

Uşaqla uşaqdır, böyükə böyük.
Həmişə çiynində gəzdirir bir yük.
Bu yük öz elinin dərdi, qəmidir.
Yükləri daşıyan o, bir gəmidir.

Hamıya olubdu hər an köməyi.
Heç zaman itməsin onun əməyi.
Bu gün vətən bizdən istəyir aman.
Düşmənin önündə dayanır hər an.

Həmişə dəstəkdir o, əsgərlərə.
Yardımlar eyləyir bütün yerlərə.
Həmişə yaşasın bu qardaşımız!
Minnətdar olarıq ona hamımız!

***Rəhilə Qarayevaya həsr olunub.***

**QƏHRƏMAN QADIN!.**

Ey Tovuz elinin məğrur qadını!
Tarıxə yazdırdın şəhid adını.
Qədirli kəndində açdın gözünü.
Qəhrəman əsgər tək dedin sözünü.

Sən döyüş yolunda coşub, cağladın.
Kişi tək belinə silah bağladın.
Səngərdə süründün sən addım-addım.
Nə qədər əsgərə eylədin yardım.

Atdığın güllələr dəydi hədəfə.
Heç boşa keçmədi güllən bir dəfə.
Həmişə əsgərə olmuşdun bacı.
Sonunda onlara sən verdin acı.

Qubadlı uğrunda yumdun gözünü.
Həyatdan sən məhrum etdin özünü.
Ey kişi qeyrətli, qəhrəman qadın!
Heç kimin dilindən düşməyir adın.

Dardadı yenə də indi bu vətən!
Ömürlük yaddaşa həkk olubsan sən.
Tanıdıq sənin tək igid adamı.
Ruhunun önündə baş əyir hamı.

## QƏHRƏMAN ŞAMİL!

Cənnətdir yurdumun hər bir bucağı.
İgidlər yetirir bütün ocağı.
Evlərdə böyüyür neçə qəhrəman.
Onlarla fəxr edir bu Azərbaycan.

Ey göyü yaradan, yeri yaradan!
Yaxşı ki, doğulur onlar anadan.
Bəhmənli kəndində doğuldu Şamil.
Böyüdü, hərbiyə yollandı bu il.

Orduda xüsusi təlim almışdı.
Düşməni qorxuya, dərdə salmışdı
Döyüşün birində o, yaralanır.
Bizim əsgərlərdən çox aralanır.

Dönməyir, deyirlər şəhid olubdu.
Yaşamaq müddəti yəqin dolubdu.
Qaranlıq bir gecə, görmür göz-gözü.
Yaralı olaraq qayıdır özü.

Yenidən döyüşə qatılır Şamıl.
Sanki heç yaralı deyil elə bil.
Burda da nə qədər yaralar alır.
Döyüş zonasında yenə də qalır.

Əsgərlər gəlirlər ona yardıma.
Heç yaxın buraxmır bircə addımma.
Siz gedin , söyləyir, gələcəm özüm.
Güclüyəm , var məndə nə qədər dözüm.

Qəfildən dik qalxır Şamil ayağa.
Atəş açа-açа gedir qabağa.
Üz tutur erməni olan tərəfə.
Düşmənin gülləsi dəyir hədəfə.

Snayper Şamili başından vurur.
Əsgərlər bu səsdən yerində durur.
Hadrut döyüşündə o, şəhid oldu.
Atılan hər güllə canına doldu.

## QƏLƏBƏ BİZİMDİR, BİZİM!

Yaxşıki yaradıb sizi yaradan.
Siz əsgər doğulduz elə anadan.
Vətənin ümüdü qalıbdır sizə.
Xoş xəbər göndərin igidlər bizə.

Gözümüz yoldadır, qulaqlar səsdə.
Heç səbir qalmayıb daha bir kəsdə.
Şuşa haray salır, Laçın ağlayır.
Düşmən hər tərəfdən yolu bağlayır.

Şəhidlər veririk gündə nə qədər.
Hamını bürüyür dərin bir kədər.
Əsgərlər baxmayır borana, qışa.
Şaxtalı havaya, yağan yağışa.

Əzimlə gedirlər  gündə irəli.
Azad eyləyirlər bizim yerləri.
Yaradan qorusun həmişə sizi.
Naümüd qoymayin heç zaman bizi.

Az qalıb, qələbə bizimdir, bizim!
Sevinsin tezliklə bütün əzizim!
Uğurlar igidlər, uğurlar sizə!
Müjdələr göndərin  tezliklə bizə!

## QƏLƏBƏ BUDU!

Canlanır Qarabağ, sevinir vətən.
Uğrunda nə qədər var ölən, itən,
Tarixi bir gündür zəfər çalmışıq.
Şuşanı düşməndən geri almışıq.

Şuşada çox gözəl şənlik quruldu.
Tarixə zəfərin möhrü vuruldu.
Yoxuydu sevincin həddi-hüdudu.
Prezident söylədi :qələbə budu!

Düşmənə dağ çəkdi həmin o şənlik.
Onlarda qalmadı qürur, nə mənlik.
Cıdırda o yallı gedən Paşinyan..
Festival günündə ölmüşdü inan.

Bütün şəhidlərin ruhu olsun şad.
Qarabağ olacaq yenə də abad.
Bu günü borcluyuq şəhidlərə biz.
Baş əyir önündə bütün cümləmiz!

## QƏLƏBƏ HİSSİ!

Qələbə hissini yaşadıq canlı.
Ordumuz döyüşdü şərəfli-şanlı.
Halaldır ordumun əsgərlərinə!
Heç zaval gəlməsin qoy əllərinə.

Rəşadət göstərib, zəfər çaldılar!
Bu günü tarixə onlar saldılar.
Qurbanam hamsının bir-bir canına.
Su kimi yerlərə axan qanına.

Nə gözəl hisdir ki, yaşadıq indi.
Qalmadı bir nəfər, hamı sevindi.
Çəkildi yurdumdan düşmən ayağı.
Xalq oldu ordunun əsas dayağı.

Olduqca xoşbəxtik biz bu zamanda.
Qələbə qazandıq, çünki bu anda.
Bütövləşdi bizim öz xəritəmiz.
Qələbə sevinci yaşayırıq biz.

## QƏLƏBƏ!

Qələbə, qələbə söyləyir hamı!
Xoş hislər bürüyür bütün adamı.
Qələbə qazandıq artıq özümüz.
Millət, aydın olsun bizim gözümüz!

Erməni yolunu getdikcə azdı.
Ali Baş komandan tarixi yazdı.
Bütün torpaqları geriyə aldıq.
Bu gün biz böyük bir qələbə caldıq!

Bayramı ürəklə qeyd edir hamı.
Cuşa gəlib bu gün xalqın ilhamı.
Yollara düzülüb çalıb-oxuyan.
Oturmayıb evdə bir nəfər insan.

Nə gözəl bir sözdür qələbə sözü!
Ruhları oxşayır bu sözün özü.
Qələbə calmışıq, zəfər çalmışıq.
Qan töküb , biz bunu qanla almışıq.

## REALLAŞAN XƏYAL!

Hadrutda döyüşən igid bir oğlan.
Dostlarla danışıb, güldüyü zaman,
Əvvəlcə onlara tutur  üzünü.
Sonra da söyləyir  sözün düzünü.

Mersedes olubdu mənim xəyalım.
Heç pulum olmayıb mən onu alım.
Dinləyir söhbəti bu zaman hamı.
Bunu da eşidir bir iş adamı.

Düşünür, bir qərar alır bu oğlan.
Xəyalı mən real edəcəm, inan.
Bizim yolumuzda o, qoyubdu can.
Mersedes qoy olsun əsgərə qurban.

Hərənin bir şeyə çatır imkanı.
Heç nəylə ölçülməz əsgərin canı.
Alır bu maşını, gəzir hər yeri.
Tapır  o, yaralı həmin əsgəri.

Nə qədər genişdir onun ürəyi!
Belədir onun da indi köməyi.
Fərid Novruzidir o, iş adamı!
Onu alqışlayır elliklə hamı

## RƏDD OLSUN ERMƏNİ!

Lənətə gələsən səni erməni!
Nə günə qoyubsan axı Gəncəni?
Günahsız körpənin nədir günahı?
Kaş tutsun sizləri onların ahı.

Tarixə gör necə yazdın adını?
Qılıncdan keçirdin qızı, qadını.
Erməni yurdumu eylədi talan.
Döyüşdə məhv oldu nə qədər oğlan.

Onlarda qalmayıb insanlıq,vicdan.
Hələ yer üzündə gəzir Balayan
Soydu bir uşağı Balayan özü.
Araqla seyr etdi kor olmuş gözü.

Soymuşdu bu qızı o, diri-diri.
Qızcığaz olmuşdu təcrübə yeri.
Demişdi həzz aldım bu mənzərədən.
Dünyada bu həzzi almamışdım mən.

Əlini batırdı körpə qanına.
Bəs necə qıyırdı onun canına?
Nifrət eyləyirəm onun özündən.
O zülüm gəlmədi axı gözündən?

Erməni zülm etdi hər bir insana.
Bu zülüm heç zaman sığmaz cahana.
Silinsin kökləri bu yer üzündən.
Rədd olsun erməni dünya düzündən!

## RƏŞADIN QADINI!

Başını sən dik tut, ey gözəl qadın!
Rəşadın yoldaşı çağrılır adın.
Qoy sənin həmişə dik olsun başın.
Çünki qəhrəmandı həyat yoldaşın!

Qanıyla tarixi yazıbdı Rəşad.
Qəhrəman igid tək alıbdı bir ad.
Kapitan məhv edib çoxlu düşməni.
O, təkcə öldürüb on üç erməni.

Dörd illik evlilik yolu keçmişən.
Həyatda Rəşadı özün seçmisən.
Həyatdan qorxma sən,  gözəl etmisən.
Yaxşı ki, Rəşada ərə getmisən.

Gəzsək də dünyanın biz bu düzündə.
Rəşaddan yoxdur ki, heç yer üzündə.
Qıymazdı heç zaman sən tək qalasan.
Çiynınə belə bir yükü alasan.

Bizlərin yolunda o, getdi qurban.
Ruhu səninlədir, evində hər an.
Belə bir igidin , gözəl qadını!
Yüksək tut Rəşadın hər an adını.

Səni də seçibdi Rəşadın özü.
Arxada qalammaz heç zaman gözü.
Çünki sən dözümlü, möhkəm qadınsan.
Həmişə Rəşadı öz yanında san!

## SAĞ OLSUN VƏTƏN!

Üz tutdum bir axşam mən bir anlığa.
Şəhidlər uyuyan qəbirsanlığa.
Məzarlar düzülüb orda yanbayan.
Matəmə batıbdı bu Azərbaycan.

İgidlər veribdi orda baş-başa.
Əfsuslar olsun ki, dönüblər daşa.
Daşlara baxanda od tutdu canım.
Damarda dayanıb qurudu qanım.

Gör burda nə qədər igidlər yatır?
Baxdıqca bədənim qan-tərə batır.
Bir məzar başında dayanıb ana.
Ağlayır balası bəlkə oyana.

O, minnət eyləyir öz balasına.
Dözəmmir oranın ab- havasına.
Səs vermir balası onun səsinə.
Dağ çəkir ananın düz sinəsinə.

Əvvəlcə əlinə o,  yaylıq aldı.
Hüzünlə oğluna bir layla caldı.
Sonunda  o, daşı bağrına basdı.
Qəlbinin səsinə tam qulaq asdı.

Boylandı o yana, bir də bu yana.
Belə bir kəlməni söylədi ana.
Nə deyim ay oğul,sağ olsun vətən!
Həmişə səninlə fəxr edirəm mən!

Bunların hamısı balamdır mənim!
Sizləri çox sevir bütün vətənim.
Hamısı olsa da artıq bu daşdan,
Heç zaman silinməz  onlar yaddaşdan.

## SALMANOV İSA

Salmanov İsadır əsgərin adı.
Ömrünə həkk oldu, döyüşün dadı.
On doqquz yaşında olan cəngavər.
Döyüşdə göstərdi nə qədər hünər.

Bir bomba partladı onun yanında.
Qəlpələr yer aldı igid canında.
Ağdərə uğrunda töküldü qanı.
Cəsədlə bir oldu İsanın yanı.

Güllələr dəymişdi onun özünə.
Bir qəlpə girmişdi düz sol gözünə.
Bu zaman dağıtdı qəlpə gözünü.
İtirmədi İsa ancaq özünü.

Yoxladı yanında hamını bir- bir.
Gördü şəhid olub Talıbov Tahir.
Tahiri aşırdı İsa boynuna.
Tüfəngi sıxmışdı möhkəm qoynuna.

O, odun, alovun içiylə getdi.
Üç min metrə yaxın yolu qət etdi.
Nəhayət qurtardı bu yolun sonu.
Neytral zonaya çıxartdı onu.

İsanın artırdı lap həyacanı.
Alovlar içində yanırdı canı.
Sanki hiss etmirdi İsa başını.
İtirdi tamamən öz yaddaşını.

Tanıya bilmirdi artıq heç kəsi.
Aləmlə biriydi hay-küyü , səsı.
Bədəni əsəbdən əsirdi tir-tir.
Gözünün önündən getmirdi Tahir.

Aylarla çəkmişdi müalicəsi.
Sonunda şok etdi İsa hər kəsi.
Yaddaşı qayıtdı onun özünə.
Dedilər gələcək nur da gözünə.

Əfsuslar olsun ki, bizim qəhrəman,
Döyüşdən əvvəli tanımır inan.
Öncə ki, həyatı çıxıb yadından.
Bizlər fəxr edirik onun adından!

## ŞƏHİD QARDAŞLARIM!

Səhid olan qardaşlarım.
Sizə qurban göz yaşlarım.
Gəldim yenə yanınıza.
Mən qurbanam canınıza.

Ağlayırdım yavaş-yavaş.
Az qalırdı dillənsin daş.
Qoşa yatan qardaşlarım!
Mərmər olan başdaşlarım!

Mən vurduqca öz dizimə,
Baxırdılar düz üzümə.
Fəryad etdi orda daşlar.
Selə döndü axan yaşlar.

Şəhid qardaş gəldi dilə.
Ağlama sən dedi: belə,
Sən ağlasan darıxırıq.
Sənə daşdan biz baxırıq.

Yoxdu bizim pəncərəmiz.
Çatmır sənə heç əlimiz.
Siləmmirik göz yaşını.
Daşa söykə gəl başını.

Rahatlaşsın qoy ürəyin.
Ağrımasın heç kürəyin.
Ürəyimə qoy başını.
Duyacaqsan qardaşını.

Dinlə daşdan gələn səsi,
Qırammırıq bu qəfəsi.
Məhkum olduq biz qəfəsə.
Bu məlumdur hər bir kəsə.

Məhkumluğu daşıyırıq.
Ürəyində yaşıyırıq.
Axmasın heç göz yaşların.
Səninlədir qardaşların!

## ŞƏHİDİN VAR, AZƏRBAYCAN!

Qalx ayağa, Azərbaycan!
İgidlərin veribdi can.
Hər şey olub yerlə yeksan.
Gölə dönüb süzülən qan.

Bu qan bizim qanımızdır.
O, igidlər canımızdır!
Şəhidin var Azərbaycan!
Qoyma yerdə qalsın o qan.

İdid əsgər möhkəm dayan.
Sizinlədir xalqın hər an.
Ey igidlər, ey ərənlər.
Burda mənəm, mən deyənlər.

Qığılcım tək qalx ayağa.
Sahib çıxın o torpağa.
Qoruyun siz bu vətənəni.
Məhv eləyin tez düşməni.

**SƏN YOXSAN!**

Gündüzlər günəşli, gecə qaranlıq.
Baxıram keçmişimə mən də bir anlıq.
Sən yoxsan həyatda şəhid, qardaşım.
Mənim dərd ortağım, gizli sirdaşım.

Bu fani dünyanı neyləyirəm mən?
Elə bir dünya ki, orda yoxsan sən.
İllərdir gəzirəm çölü, çəməni.
Heç yerdə mən tapa bilmirəm səni.

Sənsiz keçən illər gəlirlər başa.
Sən nədən döndün bu mərmər bir daşa?
O sənli günlərə qayıdaydım kaş.
Yanına gələrdim yenə də bir baş.

Ürəyim istəyir sənin özünü.
Kaş görə biləydim gözəl gözünü.
Şikayət edəcəm o daşdan sənə.
Eləcə dayanıb hey baxır mənə.

Səs vermir heç zaman mənim səsimə.
Bir kəlmə söyləmir bircə kəsimə.
Qulaq as, özümə şəhid qardaşım.
Gör nələr çəkibdi bəlalı başım?

Sənsiz keçən il də özü oldu daş.
Gözümdə qurudu, qalmadı da yaş.
Səndən xatirələr qalıbdı mənə.
Allah rəhmət etsin şəhidim, sənə!

## SƏNSİZ KEÇƏN AD GÜNÜN!

Bir zaman gələrdi  hər yerdən səsin.
Əzizi ölməsin heç vaxt heç kəsin.
Kaş geri dönəydi o sənli günlər.
Səninlə gözəldi sən olan illər.

Bu il ad gününü sənsiz keçirdik.
Gözəl bir insanı vaxtsız itirdik.
Masanın başında yerin boş qalıb.
Hamının canını kədər, qəm alıb.

Məzarın başına toplandı hamı.
Sənsizlik yandırır , vallah adamı.
Bir məzar daşından baxırdın bizə.
Xoş gəldin demədin heç birimizə.

Həmişə danışıb , gülən qardaşım.
Sükuta qərq olub indi baş daşın.
Yoxluğun bizlərə veribdi kədər.
Lənətə gəlsin bu yazılan qədər.

Birinci dəfədir tortu kəsmədin.
Bulaq tək qaynayıb, yel tək əsmədin.
Oxşardın həmişə coşan dənizə.
Lal-dinməz baxırdın şəkildən bizə.

Soyuq baxışların bizi üzürdü.
Kədərlə şamları, tortu süzürdü.
Hamının gözləri bax dola-dola,
Bu yaşı beləcə biz verdik yola.

## SƏNSİZLİK ÇƏTİNDİR!

Nə qədər düşürsən mənim yadıma?
Heç bir şey gəlməyir ancaq dadıma.
Süzülür gözümdən yaş gilə-gilə.
Səni axtarıram mən bilə- bilə.

Onsuz da dəymirsən mənim gözümə.
Ürəyim baxmayır ancaq sözümə.
Yoxluğun sinəmdə yara bağladı.
Bu dünya mənimlə səni ağladı.

Gizlicə yumuram bəzən gözümü.
Yanında görürəm sanki özümü.
Dünyanın xoşbəxti oluram onda.
Faydası yoxdur ki , sənsizəm sonda.

Bu yara dərinmiş, qaysaq bağlayıb.
Qəlbimi ömürlük sanki dağlayıb.
Qurumaq bilməyir mənim göz yaşım.
Sənsizlik çətindir, şəhid qardaşım!

## SEVGİ DASTANI!

Yazıldı gözəl bir sevgi dastanı!
Sədası bürüdü bütün cahanı.
Nakam məhəbbətin qəhrəmaları!
Torpağa verildi şirin canları.

Tərtərin qəhrəman igid Mehdisi.
Varıydı özünün gözəl Leylisi.
Leyliyə bənzəyən həmin bu Mələk,
Mehdini nə qədər sevirmiş deмək?

Dözmədi Mehdinin o, yoxluğuna.
Baxmadı insanın heç çoxluğuna.
Elə ki, şəhidim cəbhəyə getdi.
Mələyə bir ətir hədiyyə etdi.

Mələyim ətiri aldı əlinə.
Özünü bənzətdi sanki gəlinə.
Yoxuydu yanında ancaq Mehdisi.
Mələyi yandırdı yoxluq istisi.

Ürəyi atırdı , tez-tez vururdu.
Gözünün önündə Mehdi dururdu
Sanki çağırırdı onu yanına.
Od düşdü Mələyin o an  canına.

Əlinə götürdü kağız və qələm.
Yazdı ki, istərəm dalınca gələm.
Söylədi: vermışəm indi bir qərar.
Ancaq xoşbəxtliyim Mehdiylə olar.

Mehdisiz almaram bir udum hava.
Lənətə gəlsin bu döyüşlər, dava.
Kəndiri keçirdi mələk boynuna.
Onlar düşmüşdülər düşmən oynuna.
Tarixə yazdırdı Mələk adını.
Tərtərin fədakar, gözəl qadını.

## SİLƏRƏM SƏNİ!

Paşinyan meydana atdı özünü.
Prezident söylədi ona sözünü.
Deyirəm, mən sənə indi düzünü!
Mənim torpağımdan gəl çək gözünü.

Bilir bunu dünya, anlayır cahan.
Qarabağ özüdür bu Azərbaycan!
Aç qulağlarını, dinlə erməni!
Bütün yer üzündən silərəm səni!

Otuz il çəkmişəm sənin nazını.
Sən indu alarsan tamam qazını.
İstədim olmasın heç ölüm- itim.
Gəl qaytar torpağı it kimi, itim!

Təhvil ver özümə sən Qarabağı.
Çəkərəm sinənə ömürlük dağı.
Qələbə bizimdir, bizim olacaq!
Qarabağ ömürlük bizə qalacaq!

## SİLİNSİN ARTSAQ!

Yaram irinləyər , bağlamaz qaysaq.
Silinsin dünyadan qondarma Artsaq.
Son olsun qoy olan bütün davalar.
Hər yanda dəyişsin abu-havalar.

Nə qədər göylərdən mərmi ələnər?
Bir daha ölməsin bizim körpələr.
Yox olsun erməni dünya düzündən.
Olanlar baş verdi onun üzündən.

Qalmasın heç yanda bircə erməni.
Çalışar yox etsin yenidən səni.
Həm nankor, həm zalım olan erməni.
Hər yerdən siləcək ordumuz səni!

Az qalıb, biləsən həmin zamana.
Vəlvələ salıbsan Azərbaycana.
Yığmadın dünyada heç nədən savab.
Tarix qarşısında verərsən cavab.

## SONUNCU QAÇIŞ!

Qarabağ yolunda töküldü qanlar.
Fəda oldu ona nə qədər canlar.
İgidlər qorxmadı ölümdən, qandan.
Ayağa qalxdılar əmr olan andan.

Dünyaya salmışdı düşmən hay-haray.
Torpaqdan verilməz heç kimsəyə pay.
İrəli gedirdi ordumuz hər an.
Lərzəyə gəlmişdi bu Azərbaycan.

Şuşada gedirdi qızğın davalar.
Artıq soyumuşdu orda havalar.
Səmadan yağış tək mərmi yağırdı.
Mədəni Poladın halı ağırdı.

O, sağ ayağından yaralanmışdı.
Baldırı, dizindən aralanmışdı.
Elə ki, yaranı görmüşdü gözü,
Dəhşətə gəlmişdi görəndə özü.

Həkimlər sağalda bilmədi onu.
Ayağı kəsməklə qurtardı sonu.
Həmişə sürətlə  qaçırdı Polad.
İndi də qazi tək o, almışdı ad.

Poladın sonuncu qaçışı oldu.
Onun arzuları qəlbində soldu.
Çünki o, bir daha qaçmayacaqdı.
Artıq bu kitabı açmayacaqdı.

**ŞUŞA!**

Tarixi yenidən yazdı sərkərdə.
Ağlıyla tanındı bütün hər yerdə.
Prezident qeyd etdi bu günümüzü.
O, təbrik eylədi hər birimizi.

Bu günü şəhidlər yazdı qanıyla.
Şuşanı qaytardı şirin canıyla.
Qarabağ üzükdür, Şuşa da qaşı!
Sevinir yurdumun hər vətəndaşı!

Xalqına söykəndi şanlı ordumuz.
Artıq azad olub indi yurdumuz.
Ali baş komandan oldu sərkərdə.
Ağlıyla düşməni vurdu hər yerdə.

Bu gündən azaddlr qəhrəman Şuşa.
Sevincdən gəlmişik hamımız cuşa.
Sıxılır indi də düşmənin canı.
İstəsək alarıq lap Yerevanı.

İşğalçı deyilik duysun bu cahan!
Qələbə çalıbdı bax Azərbaycan!
Gözləyir bizləri Laçın, Kəlbəcər!
Rədd olsun yurdumdan vəhşi, eybəcər!

## ŞUŞANI ALMIŞIQ!

Yoxdu sevincimin həddi-hüdudu.
Şuşanı almışıq, qələbə budu!
Var olsun prezident, həm də ordumuz!
Artıq azad olub gözəl yurdumuz!

Bütün şəhidlərin ruhu şad olsun!
Onların məzarı nurlarla dolsun.
Ey şəhid anası, dik tut başını.
Bir daha axıtma sən göz yaşını.

Düzdür, yox olubdu balanın canı.
Ancaq alınıbdı bax indi qanı.
Düşmənin üstündə qələbə çaldıq.
Bütün torpaqları onlardan aldıq.

Tarixi yenidən yazdıq özümüz.
Aydın olsun bu gün bizim gözümüz!
Var olsun xalqımız, var olsun vətən!
Hər yeri yaradaq, quraq yenidən!

Qələbə bizimdir, qoy duysun hamı.
Əliyev İlhamdan aldıq ilhamı!
Yaşasın həmişə bu Azərbaycan!
Onunla fəxr edək hər zaman, hər an!

**TALEH!**
(qazi)

Odlar diyarıdır Azərbaycanım!
Qurbandır vətənə bu şirin canım.
Vətən yetişdirib mərt igidləri.
Şöhrəti dolanır bütün yerləri.

Gördülər dardadır bu vətənimiz.
Səfərbər oldular igidlərimiz.
Vətənin yolunda onlar qoydu can.
Məhv oldu bu yolda minlərlə insan.

Mərt Tovuz elimin igidi Taleh!
Bu zaman hamını eylədi valeh.
Döyüşdə həmişə getdi qabağa.
Orduyla üz tutdu o, Qarabağa.

Zəngilan,  Hadrudu onlar aldılar.
Qalib tək tarıxdə, yadda qaldılar.
Taleh ordumuzda gizir olmuşdu.
İyirmi dörd yaşına igid dolmuşdu.

Döyüşün birində o, yaralandı.
Sağ əli tamamən lap paralandı.
Bomba partlamışdı onun yanında.
Qəlpələr dolaraq qaldı canında.

Talehi həkimlər  alıb getdilər.
Hər cürə yardımı ona etdilər.
Vətənin eşqiylə vurur ürəyi.
Yaradan Talehin olsun köməyi.

O, bizim fəxrimiz, qürurumuzdu.
Qarabağ ən böyük uğurumuzdu.
Var olsun qəhrəman əsgərlərimiz.
İşğaldan azaddır öz yerlərimiz!

## TOVUZ ELİM!

Qalx ayağa, Azərbaycan!
Qurban getdi yenə bir can.
Düşmən durub astanada.
Ağlar qaldı bir ana da.

Vətən bu gün darda qalıb.
İnildəyib haray salıb.
Azərbaycan, qalx ayağa!
Sahib çıxın bu torpağa!

Mənim igid, mərd Tovuzum!
Qürurludur, sərt omuzun.
Möhkəm dayan, məğrur dayan!
Sizinlədir Azərbaycan!

Qurbanam mən hər daşına.
Anaların göz yaşına.
Uca başım, uzun dilim,
Mənim gözəl Tovuz elim!

Sən alınmaz bir qalasan!
Bu dünyaya səs salasan!
Arzum budur, ey Tovuzum,
Qarabağı tez alasan!

## TOVUZ ŞƏHİDLƏRİ

Həmişə zirvədə duran şəhidlər.
Tarixə möhrünü vuran şəhidlər.
Torpaqlar uğrunda siz verdiniz can.
Yerlərə tökdünüz al qırmızı qan.

Heç nəylə ölcülməz sizdəki hünər.
Hərəniz bir igid, bir sevimli ər.
Şəhid olmuşdular körpə mələklər.
Alovlar içində yandı bələklər.

Onlar göz acmamış şəhid oldular.
Qonçə çiçək kimi vaxtsız soldular.
Şəhid olmuşdular analar özü.
Kor olsun düşmənin, ay Allah gözü.

Tovuz unutmayır şəhidlərini.
Ziyarət edirlər qəbirlərini.
Qəbirlər çevrilib ziyarətgaha.
Əmanət olublar onlar Allaha.

## TOVUZUM!

Ey gözəl Tovuzum, cənnət məkanım!
Yerinə, yurduna qurbandır canım.
Səninlə fəxr edir bütün dünyamız.
Heç zaman basılmaz bizim obamız.

Bütün igidləri qalxıb ayağa.
Söykənib xalq kimi böyük dayağa.
Ey igid Tovuzum, şanlı Tovuzum!
Möhtəşəm , həm igid canlı Tovuzum!

Yolunda nə qədər can gedib qurban.
Fəxr edir səninlə bu Azərbaycan.
Evindən çıxmayıb bir vətəndaşın.
Hər zaman ucadır, Tovuzum başın!

Fəxr edir səninlə öz əsgərlərin.
Deyirlər işığı gəlir evlərin.
Döyüşə gedərkən onlar bir gecə,
İşığı görəndə sevinib necə ?

Deyirlər ürəklə hərəkət etdik.
Yerli sakinlərlə sanki bir getdik.
O yanan işıqdan biz ilham aldıq.
Düşmənə od qoyub, nə günə saldıq.

Tovuzum qalibdir, qalib olacaq!
Qəhrəman şəhər tək yadda qalacaq.
Halaldır Tovuzum, halaldır sənə!
Alınmaz qalasan, göstər düşmənə.

## TÜRK ƏSGƏRİ!

Hər şeydən əzizsən, ey ana vətən!
Həmişə səninlə fəxr elədim mən.
Hamıya əzizdir doğma anası.
Dəvadır, dərmandır vətən havası.

Bəxş edir dünyaya ana övladı.
Bacıdır, qardaşdır onların adı.
Qardaş qardaşına arxa, dayaqdı.
Vətənin yolunda onlar oyaqdı.

Ən gözəl qardaşdır bu türklər bizə.
Çox qürur verirlər hey özümüzə.
Elə ki, düşürük çətinə, dara.
Bizimlə gedirlər biz getsək hara.

Səngərdə həmişə qoşa dayanan,
Bizimlə bir yatıb, birgə oyanan,
Sənsən , ey qəhrəman mərt Türk əsgəri!
Ürəklə  qorudun bizim elləri.

Vətənin yolunda qoydun canını.
Bizlərlə birlıkdə tökdün qanını.
Halaldı sizlərə, ey Türk əsgəri!
Qorxmadan qorudun bizim səngəri.

## ÜLVÜ

Gömrüyün işçisi olubdu Ülvü.
Canıyla qorudu torpağı, sülhü.
Necə də sevirdi Ülvü vətəni?!
İstərdi yox etsin bütün düşməni.

Həmişə düzüydü söhbəti, sözü.
Cəbhəyə könüllü yollandı özü.
Hər zaman döyüşdə öndə gedirdi.
Əsir torpaqları azad edirdi.

Şücaət göstərdi Ülvü canıyla.
Bir tarix yazdı o, qızıl qanıyla.
Şəhidlik adını bu igid aldı.
Əbədi olaraq tarixdə qaldı.

Dünya dağılsa da, gəlsə də sonu,
Heç zaman, heç kimsə unutmaz onu!
Elimin, obamın igid övladı.
Qəhrəman Ülvü tək tanındı adı.

## UNUDA BİLMƏZSƏN!

Qurbanam gözünün yaşına, ana!
Ağlama bu qədər sən yana-yana.
Əyninə geyibsən qapqara  libas.
Dolannam başına, səbrini gəl bas.

Vətənin yolunda şəhiddir balan!
Fəxr elə onunla, qürurla dolan.
O, xalqın oğludur, tək sənin deyil.
Ona yas saxlayır, indi hamı bil.

Axmasın bir daha gözünün yaşı.
Azadlıq duyulur hər addımbaşı.
Bu yolda can qoydu o, əziz balan.
Adını yazdırdı tarixdə qalan.

Bir məzar buraxdı arxada, ana!
Hər şeydən yaxındır bu məzar cana.
Orda o, uyuyan sənin canındır.
Torpağa tökdüyü qızıl qanındır.

Bilirəm , tökülüb elə bil gözün.
Onunla birlikdə yox oldun özün.
Dünya dağılsa da, gəlsə də sonu,
Unuda bilməzsən ömürlük onu.

Həmişə bu yaran verəcəkdi qan.
Çünki ayrılıbdı canından bir can.
Qurbanam balana, ay ana özüm!
Qalmayıb təsəlli edəcək sözüm.

## YARALI ƏSGƏR!

Gur yansın hər evin öz çilçirağı.
İsinsin həmişə odu, oçağı.
Musiqi yayılsın evdən hər yana.
Xoşbəxtlik səpilsin Azərbaycana!

Var bizim  nə qədər mərt şəhidimiz.
Hamsınnan fəxr edir bütün cümləmiz.
Əsgər var şəhid yox, yaralanıbdı.
Baş-beyin tamamən paralanıbdı.

Əsgər var itirib əl-ayağını.
Heç görə bilməyir öz qabağını.
Çünki kor olubdu hər iki gözü.
Qarabağ bizimdi, ən şirin sözü.

Onlar itirsə də iki gözünü.
Yararsız hiss etmir yenə özünü.
İstəyir cəbhəyə, orduya dönsün.
Ölsə də igid tək döyüşdə ölsün.

Sağalın əsgərlər, siz tez sağalın!
Bütün şəhidlərin qanını alın.
Hər an yolunuzu gözləyir vətən.
Sizin sayənizdə məhv olur düşmən.

## YAŞARIN NARIN BALASI!

Nə gözəl bir hisdir  ata olasan!
Övladla bərabər yaşa dolasan.
Dadasan dünyada onun dadını.
Həvəslə verəsən gözəl adını.

Bu nəsib olmadı şəhidimizə.
İndi  yadigardı balası bizə.
Səkkiz il gözlədi onun yolunu.
Həvəslə bəzədi sağı, solunu.

O, dada bilmədi övlad dadını.
Öncədən qoymuşdu ancaq adını.
Vətəni yolunda qoydu canını.
Torpağa dağıtdı düşmən qanını.

Ey elin, obanın şəhidi Yaşar!
Narinin sədası elləri aşar.
Səndən yadigardır evində balan.
Ovcunun içində böyüdər anan.

O, sənin ətrini ondan alacaq.
Ömürlük meylini ona salacaq.
Heç zaman arxada qalmasın gözün.
Əfsuslar olsun ki, sən yoxsan özün.

## YETİM ŞƏHİDİN MƏKTUBU

Bilmirsən heç kimdir qohum, əqraban.
Annən kim olubdu, ya da ki, baban?
Yetimlər evində böyümüsən sən.
Tək onu bilirsən türk oğlu türksən!

Kimsəsiz böyüdün, sən başa çatdın.
Özünü alova, odlara atdın.
Qorumaq istədin sən də vətəni.
Qoruya bilmədi bu vətən səni.

Hamı tək bir məktub yazmışdı özü.
Çoxuydu ürəkdə deyəcək sözü.
Məktubu qalmışdı ancaq əlində.
Gedəcək bir ünvan yoxdu elində.

Məktubda o, yazdı ürək sözünü.
Göndərə bilmədi ancaq özünü.
Onu yazmağına olmuşdu peşman.
Yoxuydu məktubu gözləyən insan.

Qatlayıb kağızı cibinə qoydu.
Bu dəmdə bir güllə köksünü oydu.
Artıq bu yetim də şəhid olmuşdu.
Məktub  olan cibi qanla dolmuşdu.

Bu məktub dillərdə olmuşdu dastan.
Onu oxumamış qalmadı insan.
Bayaqdan yoxuydu gedəsi ünvan.
Çünki yetimiydi məktubu yazan.

## YETİM ŞƏHİDİN MƏZARI!

Bir zaman varıydı sənin də anan.
Səninlə fəxr edən igid bir atan.
Həmişə olubdu ölüm və itim.
Təkcə sən deyilsən dünyada yetim.

Məzarın başında ağlamır anan.
Ondan çox olmazdı dərdinə yanan.
Ancaq mən deyirəm düzünü inan,
Səninlə fəxr edir dünyamız bu an.

Adını daşlara yazdılar , Rəşad.
Dünyaya yayıldı  belə gözəl ad.
Öləndə sən kimdən istədin imdad?
Anan yox, yanında dayandı bir yad.

Yetimin qəbiri adlanır qəbir.
Yaradan qoy versin bizlərə səbir.
Rəşad Cəfərzadə yazılıb adın.
Qəlbinə həkk oldun sən hər bir yadın.

Ey yetim şəhidin dilsiz məzarı!
Lənətə gəlsin bu dərdi, azarı.
Sən nurlar içində rahat yatıbsan.
Ən yüksək zirvəyə artıq çatıbsan.

## YURDUMUN OĞLANLARI!

Düşmənlə üz-üzə dayandı ordu.
Onları məhv etdi, kökündən vurdu.
Afərin, yurdumun igid əsgəri!
Hər gündə əzimlə gedir irəli.

Xalqıma söykənib bizim ordumuz.
Bir-bir azad olur qədim yurdumuz.
Hər gündə cəbhəyə yardımlar gedir.
Kim nəyi bacarsa onu da edir.

Kimisi vuruşur öz qələmiylə.
Zəhmət çəkənlər var tam əməyiylə.
İgiddir xalqımın hər bir övladı.
Olub vətənpərvər onların adı.

Halaldır yurdumun oğlanlarına!
Qurbanam onların mən canlarına.
Hər şeydən əzizdir onların canı.
Vətənin yolunda tökülür qanı.

**Kitabın içindəkilər:**

Ön söz........................................3

# Poemalar

Tovuz şəhidləri! ........................................6

Qırx dörd günün sədası!........................................49

# Şeirlər

Ali Baş Komandan deyir! ........................................90
Arəstə! ........................................91
Atan ölməyibdi, şəhid olubdu........................................92
Atandanmı qalıb sənə? ........................................93
Ay ata, qayıt geriyə! ........................................94
Az qalıb Laçına ........................................95
Az qalıbdı! ........................................96
Azərbaycan!........................................97
Bağışla şəhidim!........................................98
Başın sağ olsun, vətən!........................................99
Bayraq! ........................................101
Bəhram!........................................102
Bərdə! ........................................103
Boşaldın Kəlbəcəri! ........................................105
Buludlar ağlayırdı ........................................106
Bütün əsgərlərin Anasıyam mən! ........................................108
Cavid Hüseynov........................................109
Cəbrayıl!........................................111

Daşqınla Fatimə! ........ 113
Qanlı Yanvar! ........ 114
Əli və islam! ........ 116
Elimin igid vüqarı! ........ 117
Elimin, obamın igid əsgəri! ........ 118
Əlli gün! ........ 119
Elşaddı igidin adı! ........ 121
Əmrah! ........ 122
Ən cavan General! ........ 124
Evinə gələrdin yenə! ........ 125
Eyvazov Samir! ........ 126
Əzimli ol! ........ 127
Fanidir dünyamız! ........ 128
Festivaldı Şuşada! ........ 130
General anasi! ........ 131
General! ........ 132
Geri dön, Polkovnik! ........ 133
Halaldı Tovuzum! ........ 135
Hardasan Ülvü? ........ 136
Həkim İlqar! ........ 137
İki dövlət, bir millətik! ........ 138
İlqar həkim! ........ 139
İrəli əsgərim! ........ 140
It də yaxşıdı! ........ 142
İyirmi yanvar ........ 143
İyulun on dördü! ........ 144
Kamranın gözləri! ........ 145
Kəlbəcəri almışıq ........ 148
Kimdir erməni? ........ 150
Kökü silinsin! ........ 151
Küs yoldaşından! ........ 152

Mərd tovuzlular! ........ 153
Məzarda tək deyil! ........ 154
Möcüzə yarat! ........ 155
Mübarək olmadı ........ 156
Mübarək olsunmu? ........ 157
Nə verib, ala bilmirsən? ........ 158
Nədən küsdün? ........ 160
Neynirəm, bu mərmər daşı? ........ 162
Nəzakət ana! ........ 164
Nişanlı Fəqan! ........ 165
Ölməyib Elvinin! ........ 167
Ölməyib generalımız! ........ 168
Otuz il sonra ! ........ 169
Parçaladı ürəyimi! ........ 171
Qalx ayağa! ........ 172
Qan ağlayır! ........ 174
Qanlı yanvar! ........ 175
Qarabağ Azərbaycandır! ........ 177
Qarabağ bizimdi! ........ 178
Qardaş  həsrəti ........ 179
Qardaş! ........ 180
Qardaşın Akifdi adı! ........ 181
Qəhrəman qadın!. ........ 183
Qəhrəman Şamil! ........ 184
Qələbə bizimdir, bizim! ........ 186
Qələbə budu! ........ 187
Qələbə hissi! ........ 188
Qələbə! ........ 189
Reallaşan xəyal! ........ 190
Rədd olsun erməni! ........ 191
Rəşadın qadını! ........ 193

Sağ olsun Vətən! ........................................................ 195
Salmanov İsa ........................................................ 197
Şəhid qardaşlarım! ........................................................ 199
Şəhidin var, Azərbaycan! ........................................................ 201
Sən yoxsan! ........................................................ 202
Sənsiz keçən ad günün! ........................................................ 204
Sənsizlik çətindir! ........................................................ 206
Sevgi dastanı! ........................................................ 207
Silərəm səni! ........................................................ 209
Silinsin artsaq! ........................................................ 210
Sonuncu qaçış! ........................................................ 211
Şuşa! ........................................................ 213
Şuşani almışıq! ........................................................ 214
Taleh! ........................................................ 215
Tovuz elim! ........................................................ 217
Tovuz şəhidləri ........................................................ 218
Türk əsgəri! ........................................................ 221
Ülvü ........................................................ 222
Unuda bilməzsən! ........................................................ 223
Yaralı əsgər! ........................................................ 225
Yaşarın narın balası! ........................................................ 226
Yetim şəhidin məktubu ........................................................ 227
Yetim şəhidin məzarı! ........................................................ 229
Yurdumun oğlanları! ........................................................ 230

RƏNA QURBANLI
(Qılıcova)

# QIRX DÖRD GÜNÜN SƏDASI

“Elm və təhsil” nəşriyyatının direktoru:
***professor* Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 12.10.2021
Şərti çap vərəqi 14,7. Sifariş № 304
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4